Xalqın qəzeti!

# Xalq qəzeti

№ 78 (31047) 6 may 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## N.A.Yusifbəylinin Sumqayıt Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nurəli Adil oğlu Yusifbəyli Sumqayıt Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 may 2026-cı il**

# Parlamentlərarası İttifaq Azərbaycan – Ermənistan sülh gündəliyini fəal dəstəkləyir

## Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib.**

Söhbət zamanı dövlətimizin başçısının Martin Çunqonqla görüşləri məmnunluqla xatırlandı.

Parlamentlərarası İttifaqın Baş katibi Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı əldə edilmiş nailiyyətlər, həmçinin ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Vaşinqtonda sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətləri qeyd edərək, ölkələrimiz arasında artıq iqtisadi-ticari münasibətlərin başladığını və Azərbaycanın birtərəfli qaydada Ermənistana gedən tranzit yüklər üzərindəki məhdudiyyəti aradan qaldırdığını bildirdi.

Azərbaycan Prezidentinin Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilmiş "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında iştirakı iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində tarixi hadisə kimi qiymətləndirildi.

Dövlətimizin başçısı Parlamentlərarası İttifaqın Azərbaycanla Ermənistan arasında parlament üzrə dialoqun, eyni zamanda, Azərbaycan və Ermənistan parlament sədrlərinin sülh prosesinin müzakirəsi üçün mütəmadi görüşlərinin keçirilməsinə şəraitin yaradılmasında rolunu müsbət qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanla Parlamentlərarası İttifaq arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu.

Baş katib Azərbaycanın Parlamentlərarası İttifaqın işində fəal iştirak etdiyini deyərək, ölkəmizin parlamentlərarası dialoqa verdiyi töhfəyə toxundu.

Görüşdə işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, həmçinin Azərbaycanın mina problemindən əziyyət çəkməsi, minaların mülki insanlara və quruculuq prosesinə törətdiyi maneələr vurğulandı, əməkdaşlığın mövcud vəziyyəti, əlaqələrin perspektivləri və parlamentlərarası dialoqun inkişafı ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Bakı–Roma əməkdaşlığının yeni tərəfləri



Səhifə ⇨ 3

## Azərbaycan–Aİ münasibətlərində anlaşma və davamlı yüksəliş



Səhifə ⇨ 3

## Ermənistan–Aİ Birgə Bəyannaməsi: Azərbaycan amili və Cənubi Qafqaz

*Brüssel və İrəvan regional inkişafı Bakısız görmür, amma...*



**Dünən İrəvanda keçirilmiş Ermənistan–Avropa İttifaqı sammitinin yekunlarına əsasən Birgə Bəyannamə imzalanıb. Sənəddən gəlinən ümumi nəticə onu deməyə əsas verir ki, "köhnə qitə" Ermənistanı tamamilə himayəsi altına alır. Yəni əvvəlki himayəçilik hazırda daha geniş məzmuna köklənməklə, yeni trayektoriya qazanır. Əlbəttə, sözdə dəstək ayrı, əməldə ayrı. Ümid edək ki, Ermənistan-Avropa İttifaqı Birgə Bəyannaməsi əməldə də konkret, ən başlıcası, faydalı nəticələr verəcək.**

Bəli, haqqında söz açdığımız sənəddə bir çox mətləblərdən söz açılır. O mətləblər ki, Ermənistanı və bütövlükdə, Cənubi Qafqazı nəinki inkişafa daşımalı, eyni zamanda, tam yeni tərəqqi yoluna çıxarmalıdır. Bu mənada, bir neçə məqamın üzərində dayanmağı vacib sayırıq. Söhbət bir-biri ilə əlaqəli olan və həm də Azərbaycanla bağlı məqamlardan gedir. Hərçənd, şübhələr və belə demək mümkünsə, müəmmalı nüanslar var və onları da diqqətə çatdıracağıq.

*(ardı 4-cü səhifədə)*

## Makron Azərbaycan rəhbərliyi ilə danışıq aparmaqdansa...



Səhifə ⇨ 4

## İrəvan hibrid basqının hədəfində



Səhifə ⇨ 5

## Məktəbin şən xorunda "yad notlar"



Səhifə ⇨ 8

## Azərbaycan–İtaliya çoxölçülü tərəfdaşlığı strateji önəm daşıyır



Səhifə ⇨ 9

## "Böyük güclər"in Cənubi Qafqaz rəqabətində yeni hədəf



Səhifə ⇨ 5

## Atəşkəsi kim pozdu?



Səhifə ⇨ 11

# Prezident İlham Əliyev “Caspian Agro Week” və “InterFood Azerbaijan” sərgilərində






**Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bakı Ekspo Mərkəzində 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu - “Caspian Agro Week” və 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi - “InterFood Azerbaijan” ilə tanış olublar.**

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlətimizin başçısına və birinci xanıma sərgilər barədə məlumat verdi.

Bildirildi ki, 45 ölkədən 447 şirkətin iştirak etdiyi sərgilərin coğrafiyası bu il daha da genişlənib. İlk dəfə olaraq burada Braziliya, Efiopiya, Şimali Kipr milli pavilyonlarla təmsil olunur. Ümumilikdə isə sərgilərdə Almaniya, Belarus, Braziliya, Cənubi Koreya,







Gürcüstan, İtaliya, İndoneziya və Niderlandın milli stendləri var.

“Caspian Agro Week” sərgisi kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma, qablaşdırma, logistika, elektron kənd təsərrüfatı, innovasiya texnologiyaları, heyvandarlıq, quşçuluq, bitkiçilik, baytarlıq, tullantıların emalı sahələrini əhatə edir. Eyni zamanda, sərgidə “Smart Agro” istiqaməti üzrə süni intellekt, “ağıllı” kənd, startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və “green agro” bölmələri nümayiş olunur.

“InterFood Azerbaijan” sərgisində isə qida sənayesi, içkilər, meyvə-tərəvəz, qida texnologiyaları və digər bölmələr üzrə məhsullar və xidmətlər təqdim edilir.

Əsas yeniliklərdən biri indiyədək “Caspian Agro” kimi tanınan sərginin bu ildən “Caspian Agro Week” konsepti çərçivəsində təşkil olunmasıdır. Sərgi ilə yanaşı, konfrans və forumlar, həmçinin innovativ təsərrüfatlara səfərlər təşkil olunacaq.

Dövlətimizin başçısı və birinci xanım “Azərsun Holdinq” şirkətinin stendinə baxdılar. Şirkət “tarladan süfrəyə” prinsipi ilə fəaliyyət göstərərək, müasir avadanlıq və innovativ həllərlə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal edir. “Azərsun Holdinq”in fəaliyyəti bölgələrdə on minlərlə insanın daimi və mövsümi işlərlə təminatına imkan yaradır.

Azərbaycanın aqrar sektorunda 10 ildən artıq təcrübəyə malik “Agro Dairy” aparıcı kənd təsərrüfatı və qida şirkətlərindən biridir. Şirkət xammalın istehsalından emalına, logistikasından son məhsulun istehlakçıya çatdırılmasına qədər bütün mərhələləri birləşdirən güclü aqrar-sənaye ekosistemi formalaşdırıb. “Torpaqdan süfrəyədək” prinsipi əsasında qurulan dəyər zənciri məhsulun keyfiyyətini təmin edir.

Almaniyanın “Holmer” şirkəti şəkər çuğunduru yığmaq üçün özüyeriyən kombaynların istehsalında dünya lideridir. “Holmer” innovativ şirkət olmaqla, texnoloji cəhətdən qabaqcıl kənd təsərrüfatı texnikasının istehsalını və satışını həyata keçirir.

İtaliyanın “New Holland” şirkəti kənd təsərrüfatı texnikasının istehsalı sahəsində 130 illik təcrübəyə malikdir. Dünyanın 170-dən çox ölkəsində bu şirkətin məhsulları istifadə olunur. “New Holland” kombaynları və traktorları müasir texnologiyalarla təchiz olunaraq, fermerlərin işini asanlaşdırır, keyfiyyətli biçinlə yanaşı, məhsul yığımını da avtomatlaşdırır.

Rusiyanın “PhosAgro” şirkəti dünyada fosfatəsaslı gübrələrin aparıcı istehsalçılarından biridir. Şirkətin əsas fəaliyyət istiqaməti, eyni zamanda, yüksəkkeyfiyyətli fosfat süxurunun, həmçinin yem fosfatlarının, azot gübrələrinin və ammoniumun istehsalından ibarətdir. Avropanın ən iri fosfatəsaslı gübrə istehsalçısı olan bu şirkət, həmçinin ən böyük yüksəkkeyfiyyətli fosfat süxuru istehsalçısıdır.

Diqqətə çatdırıldı ki, 20 ilə yaxın təcrübəyə malik “Azera Holdinq” əkinçilik, heyvandarlıq, balıqçılıq üzrə aparıcı kənd təsərrüfatı şirkətlərini özündə birləşdirir. Qafqazın ən iri istixana komplekslərinə malik Holdinq həm də işğaldan azad olunmuş ərazilərdə geniş əkinçilik layihələrini uğurla icra edir. Holdinqə daxil olan “Fruitland” şirkəti Azərbaycanda ilk dəfə “Agroland” və “BinəAgro” şirkətlərinin 200 hektara yaxın əraziyə malik istixanalarında ildə 1000 tona yaxın banan yetişdirir.

Sərgidə iştirak edən Türkiyənin “Favo Agro” şirkəti kənd təsərrüfatı texnikası, avadanlıqları və ehtiyat hissələrinin tədarükü sahəsində fəaliyyət göstərən beynəlxalq şirkətdir. “Favo Agro” kənd təsərrüfatı texnikası ilə yanaşı, suvarma, sağım sistemləri və bu məhsullara aid ehtiyat hissələri üzrə həllər təqdim edir. Şirkət, həmçinin Azərbaycanda Favo və Aksan markaları ilə kənd təsərrüfatı texnikası və heyvandarlıq avadanlıqlarının istehsalını həyata keçirir.

Qeyd edildi ki, “Made in Azerbaijan” brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayan sərgilərə Kənd Təsərrüfatı Nazirliyi təşkilati dəstək göstərir. Nazirlik, həmçinin burada öz stendi ilə iştirak edir. Stenddə aqrar sektorun inkişafına yönəlmiş layihələr, dövlət dəstəyi mexanizmləri, rəqəmsal həllər, innovativ yanaşmalar, “Aqrar sahədə süni zəka”, “Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi” layihələri, həmçinin startap təşəbbüsləri ilə bağlı məlumatlar təqdim olunur. Burada, eyni zamanda, “ağıllı” kənd təsərrüfatı texnologiyaları, rəqəmsal monitorinq sistemləri, məhsuldarlığın artırılmasına yönəlmiş texnoloji yanaşmalar, işğaldan azad olunmuş ərazilərimizdə kənd təsərrüfatı təyinatlı torpaqların icarəyə verilməsi üzrə nazirliyin həyata keçirdiyi investisiya müsabiqələri ilə bağlı pilot layihə, regionlarda təşkil olunmuş aqrar biznes və məhsul festivalları barədə məlumatlar var.

Bu il sərgilərdə regionlarımızın aqrar və qida sahəsində mövcud imkanları ilə yaxından tanış olmaq mümkündür. Bundan başqa, hər il təşkilatçılar Azərbaycanın müxtəlif bölgələrindən olan fermerlər üçün sərgiyə turlar təşkil edirlər. Bu il 51 bölgədən 500-dən çox fermer sərgilər çərçivəsində ən son sənaye yenilikləri və beynəlxalq təcrübə ilə tanış ola biləcək.

Sərgilər BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası tərəfindən dəstəklənir.

Sərgidə İspaniyanın “Industrıas Davıd” şirkəti də iştirak edir. Şirkət üzüm, zeytun və meyvə bağları üçün xüsusi texnologiyalı kənd təsərrüfatı avadanlıqları, o cümlədən məhsul yığımı üçün maşınlar istehsal edir.

Dövlətimizin başçısı və birinci xanım “Gürcüstan Milli Qrupu”nun stendində də oldular. Həmişə olduğu kimi, bu dəfə də Gürcüstan sərgidə iştiraka böyük maraq göstərir. Bu ölkədən 10-a yaxın şirkət öz kənd təsərrüfatı məhsullarını təqdim edir.

Kənd təsərrüfatı sistemləri sahəsində ixtisaslaşan İsrailin “AFI Projects” şirkəti kompüterləşdirilmiş təsərrüfat idarəetmə sistemləri, süd fermalarının layihələndirilməsi və tikintisi, müxtəlif növ sağım otaqları və təsərrüfatların yenidən qurulması sahəsində xidmətlər təqdim edir. “AFI Projects” həm böyük fermalar, həm də kiçik təsərrüfatlar üçün əmək və istehsal proseslərini optimallaşdırmağa dəstək verir.

“İtaliya Respublikasının Milli Qrupu”nun stendi ilə tanışlıq zamanı məlumat verildi ki, bu ölkədən olan şirkətlər sərgilərdə iştiraka böyük maraq göstərir. Belə ki, budəfəki sərgilərdə İtaliyanın kənd təsərrüfatı məhsulları və avadanlıqları istehsal edən 20-yə yaxın şirkəti iştirak edir.



Kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan “Az Agromila” şirkəti yeni nəsil gübrə və biopestisit sektorunda uğurla fəaliyyət göstərir. Müasir texnologiyalar təqdim edən şirkət istixana, meyvə-tərəvəz və açıq sahə də daxil olmaqla, kənd təsərrüfatının bütün sahələrində xidmət göstərir.

Niderland Krallığı da sərgiyə böyük maraq göstərir. Bu ölkə sərgidə milli stendlə təmsil olunur. Niderland şirkətləri öz kənd təsərrüfatı məhsullarını burada nümayiş etdirir. Stenddə toxumlar, güllər, istixana üçün avadanlıqlar və digər qida və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Məlumat verildi ki, yerli aqrar şirkət olan “Amofresh” Azərbaycanda münbit torpaqlarda fəaliyyət göstərir, ənənə ilə müasir innovasiyaları birləşdirir. Şirkət ekoloji təmiz regionlarda “Amofresh” brendi altında premium meyvə və tərəvəzlərin becərilməsi ilə məşğuldur. İstehsalın bütün mərhələlərində yüksək keyfiyyətin və təbii dadın təmin olunmasına çalışır.

“METAK” da kənd təsərrüfatı məhsulları istehsal edən yerli şirkətdir. Şirkətin stendində intensiv bağ modeli nümayiş olunur. Bu model il ərzində salınmış intensiv bağın struktur və quruluşuna tam uyğun şəkildə hazırlanıb, ziyarətçilərə bu texnologiyanın üstünlüklərini yerindəcə vizual şəkildə təqdim edir.

İranın “Khazar Electric” şirkəti innovativ həllərə əsaslanaraq kənd təsərrüfatı və tullantıların emalı avadanlıqlarını istehsal edir. Məhsul çeşidinə taxılqurutma, inkubator, kəsimxana, quşçuluq avadanlıqları daxildir.

“Absheron Olive Garden” MMC zeytun yağı və süfrəlik zeytun məhsullarının istehsalı ilə məşğuldur. İstehsal prosesi beynəlxalq keyfiyyət standartlarına uyğun şəkildə təşkil olunub, müasir texnologiyalar tətbiq edilir və məhsulun keyfiyyəti daim nəzarətdə saxlanılır.

Sərgidə maraq doğuran stendlərdən biri də “Şirvan Aqro” heyvandarlıq kompleksinə aiddir. Kompleks ən son texnologiyalarla təchiz edilən və süni intellekt vasitələri ilə idarə olunan müəssisədir. “Şirvan Aqro” Qafqaz regionunda və MDB məkanında ən böyük heyvandarlıq komplekslərindən biridir.

Hazırda “Meysəri” markası ilə tanınan “Şirvan Şərabları” müəssisəsi Azərbaycanın Şamaxı rayonunun Meysəri kəndində yerləşir. O, ölkəmizdə Avropa İttifaqı tərəfindən sertifikat almış ilk orqanik şərab istehsalçısıdır.

Belarus bu dəfə də sərgilərdə fəal iştirak edir. Bu ölkənin şirkətləri qida məhsulları təqdim edirlər. Belarusun sərgidə ümumilikdə 11 şirkəti təmsil olunur. Qeyd olunub ki, bu ölkə 10 ildən çoxdur sərgilərdə iştirak edir.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə sərgidə KOB-ların bazarlara çıxışına dəstək üçün xüsusi stend təşkil olunub. Stenddə 10-a yaxın KOB subyekti tərəfindən istehsal olunmuş qənnadı məmulatları, şokolad, ət məhsulları, bal, zəfəran və pendir kimi məhsullar nümayiş etdirilir. Prezident İlham Əliyevin Fərmanı ilə 2017-ci ildə yaradılmış Agentlik ölkədə kiçik və orta biznesin inkişafını dəstəkləyərək, kiçik və orta biznes subyektlərinə bir sıra xidmətlər göstərir, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirir.

“Braziliya Federativ Respublikasının Milli Qrupu”nun stendində ziyarətçilərə əsasən kənd təsərrüfatı məhsulları təqdim edilir. Braziliya pavilyonunda bu ölkənin ət istehsalçısı və ixracatçısı şirkəti məhsullarını nümayiş etdirir. Bundan başqa, Braziliya qəhvəsi istehsal edən müəssisənin məhsulları da sərgidə maraqla qarşılanır.

İndoneziya da sərgiyə maraq göstərən ölkələr sırasındadır. Bu ölkə tədbirə milli stendlə qatılıb. “İndoneziya Milli Qrupu”nun stendində əsasən qəhvə və qənnadı məhsulları təqdim edilir.

Sərgidə Afrika ölkələrinin birgə iştirakı ilə təşkil edilən AFAZ (Africa-Azerbaijan Cooperation) ilk dəfə öz stendi ilə təmsil olunur. Bu stenddə isə Benin, Cənubi Sudan, Efiopiya, Kot-d’İvuar, Kamerun, Nigeriya, Qana, Seneqal, Somali, Tanzaniya və Zambiyadan olan şirkətlər məhsullarını təqdim edir.

Sonra dövlətimizin başçısı və birinci xanım Bakı Ekspo Mərkəzinin həyətində müxtəlif ölkələrin şirkətlərin kənd təsərrüfatı texnikası ilə tanış oldular.

Kənd təsərrüfatı və qida sənayesi üzrə regionun ən böyük sərgiləri olan “Caspian Agro Week” və “InterFood Azerbaijan” bu iki sahədə beynəlxalq əməkdaşlıq, innovasiya və yeni biznes əlaqələrinin inkişafına xidmət edən mühüm platformadır. Bu illər ərzində sərgilər milli brend kimi dünyanın aparıcı beynəlxalq tədbirləri sırasına daxil olaraq, qlobal sərgi təqvimində mühüm yer tutub.

Sərgi həftəsi çərçivəsində kənd təsərrüfatında innovativ həllər, aqrotexnologiyalar, “ağıllı” kənd təsərrüfatı sistemləri, qida emalı texnologiyaları, qida təhlükəsizliyi, logistika və ixrac imkanları üzrə qabaqcıl məhsul və xidmətlər nümayiş etdiriləcək. Bu platforma beynəlxalq təcrübə mübadiləsinin təşviqinə və aqrar-qida sektorunda yeni tərəfdaşlıqların qurulmasına mühüm töhfə verəcək.

# Azərbaycan lideri Avropa İttifaqı heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



Söhbət zamanı Prezident İlham Əliyevin Kaya Kallasla görüşləri məmnunluqla xatırlandı, onun 2025-ci ildə ölkəmizə səfəri zamanı əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd edildi.

Kaya Kallas Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Antonio Koştaya çatdırmağı xahiş etdi.

Kaya Kallas Antonio Koştanın ölkəmizə səfəri zamanı dövlətimizin başçısı və Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən birgə bəyanatın qəbul edilməsinin, həmin sənəddə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin strateji xarakterinin vurğulanmasının əhəmiyyətinə toxundu.

Qonaq Azərbaycanın Avropa İttifaqı üçün vacib tərəfdaş olduğunu dedi.

Prezident İlham Əliyev ölkəmizlə Avropa İttifaqı arasında enerji, bağlantılar, təhlükəsizlik, ticarət və digər sahələrdə əməkdaşlığın perspektivlərinə toxundu. Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, eyni zamanda, ölkəmizin isə enerji təhlükəsizliyinin təmin olunması baxımından həmişə Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu vurğuladı. Bu xüsusda dövlətimizin başçısı qeyd etdi ki, bu yaxınlarda Azərbaycan qazı Avropa İttifaqının daha iki üzv ölkəsinə - Almaniyaya və Avstriyaya çatıb.

Söhbət zamanı Azərbaycan-Ermənistan sülh prosesinə toxunuldu, ölkəmizin sülh gündəliyinin gücləndirilməsi istiqamətində atdığı addımlar vurğulandı. Azərbaycanla Ermənistan arasında artıq iqtisadi-ticari münasibətlərin yaradıldığı qeyd edilərək, bu xüsusda ölkəmizin Ermənistana gedən tranzit yüklərlə bağlı məhdudiyyəti birtərəfli qaydada aradan qaldırdığı bildirildi. Ötən gün İrəvanda keçirilmiş “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısında Azərbaycan Prezidentinin videobağlantı formatında iştirakı tarixi hadisə kimi dəyərləndirildi.

Görüşdə vurğulandı ki, hazırda Azərbaycanla Avropa İttifaqının gündəliyində rəqəmsal transformasiya, süni intellekt, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər var.

Söhbət zamanı Avropa İttifaqının minatəmizləmə sahəsində Azərbaycana dəstəyi təqdir edildi, TRIPP layihəsinin fəaliyyətə başlaması ilə onun regionda bağlantılar baxımından yaxşı imkanlar yaradacağı qeyd olundu.

Dövlətimizin başçısı və Kaya Kallas Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivlərini və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə etdilər.

*AZƏRTAC*

# Bakı–Roma əməkdaşlığının yeni tərəfləri

**Azərbaycan–İtaliya münasibətləri artıq diplomatik dialoq və enerji əməkdaşlığı çərçivəsini aşaraq, çoxşaxəli strateji tərəfdaşlıq modelinə çevrilib. Bu inkişafın arxasında həm regional geosiyasi reallıqlar, həm də tərəflər arasında qarşılıqlı iqtisadi və təhlükəsizlik maraqları dayanır. Xüsusilə Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Nazirlər Respublikası Şurasının sədri Ciorcia Meloni dövründə bu münasibətlər yeni mərhələyə keçid edib və enerji təhlükəsizliyi, sənaye əməkdaşlığı kimi önəmli sahələri əhatə edir. Son dövrlərdə isə münasibətlərin gündəliyi tədricən klassik enerji iqtisadiyyatından çıxaraq müdafiə sənayesi və logistika kimi sahələrə doğru genişlənir ki, bu da tərəfdaşlığın texnoloji inteqrasiya xarakteri aldığını göstərir.**



Bu strateji strukturda hərbi-texniki əməkdaşlıq prioritet istiqamət kimi mühüm yer tutur. Burada ən çox diqqətçəkən "Alenia Aermacchi M-346" təlim-döyüş təyyarələridir. Bu platforma pilotların 4-cü və 4+ nəsil döyüş aviasiyasına hazırlanmasında istifadə olunur və müasir hərbi aviasiya standartlarına keçid baxımından vacib mərhələ hesab edilir. Açıq mənbələrdə qeyd olunan məlumatlara görə, Azərbaycan bu tip təyyarələrin artıq bir hissəsini (10 ədəd) əldə edib və əlavə tədarük planları da mövcuddur. Bu fakt ölkənin hava qüvvələrinin kadr və texniki hazırlıq sistemində keyfiyyət dəyişikliklərinin baş verdiyini nümayiş etdirir.

**Hərbi ekspert Şair Ramaldanov** mətbuata verdiyi açıqlamada bu keçidin əhəmiyyətini belə vurğulayıb: "M-346" təyyarəsi müasir qırıcıların və digər aviasiya vasitələrinin parametrlərinə uyğun dizayn edilib. Azərbaycan pilotlarının məhz bu təyyarələrdə təlimi son dərəcə vacibdir".

Bu təlim təyyarəsi həm də hərbi məqsədlər üçün effektiv istifadə edilə bilər. Təyyarə 500 kiloqram yük daxil olmaqla, havadan quruya hədəflənən silahları daşımaq qabiliyyətinə malikdir. Erməni hərbi ekspert Van Hambardsumyanın fikrincə, bu təyyarələr Ermənistanın hərbi hava sistemlərini sıradan çıxarmaq gücünə malik olan Türkiyənin uzaq mənzilli "SOM-B1" raketlərini daşımaq qabiliyyətinə malikdir. Bu texnoloji üstünlük Azərbaycanın HHQ potensialını əsaslı şəkildə dəyişən strateji amil kimi çıxış edir.

Eyni zamanda, hərbi-nəqliyyat aviasiyası sahəsində də əməkdaşlıq genişlənir. Xüsusilə "C-27J Spartan" tipli təyyarələrin əldə olunması Azərbaycanın taktiki-logistik imkanlarının artırılması baxımından böyük əhəmiyyət daşıyır. Mürəkkəb relyef şəraitində yük daşımaları, paraşüt-desant əməliyyatları və humanitar missiyalar üçün nəzərdə tutulan bu platforma çoxfunksiyalı istifadə imkanları ilə seçilir. Belə müasir sistemlərin inteqrasiyası təkcə texniki yenilənmə deyil, həm də ordunun əməliyyat doktrinasında çevikliyin artması deməkdir.

Yada salaq ki, 2023-cü ildə İtaliyanın "Leonardo S.p.A." şirkəti ilə bu təyyarələrin alınmasına dair strateji müqavilə imzalanıb. Razılaşma iki ölkənin müdafiə qurumları arasında aparılan uzunmüddətli texniki müzakirələrin uğurlu nəticəsidir. Sözügedən müqavilə Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı modernləşdirmə proqramının tərkib hissəsi olmaqla yanaşı, rəsmi Bakı tərəfindən Qərb hərbi texnologiyalarına keçid istiqamətində atdığı ən mühüm addımlardan biri kimi dəyərləndirilir.

Qeyd edək ki, "C-27J Spartan" taktiki hərbi-nəqliyyat seqmentində özünü dünyada təsdiqləmiş çoxməqsədli platformadır. İlk uçuşunu 1999-cu ildə həyata keçirib və 2006-cı ildə istismara verilib, ABŞ da daxil olmaqla bir sıra aparıcı ölkələrin arsenalında yer alıb. Təyyarə paraşüt-desant əməliyyatları, taktiki yük daşımaları, xüsusi təyinatlı qüvvələrin dəstəyi, humanitar missiyalar və fövqəladə halların nəticələrinin aradan qaldırılması kimi geniş spektrli vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmək qabiliyyətinə malikdir.

2024-cü il iyunun 26-da Bakıda ilk "C-27J Spartan" təyyarəsinin təqdimatı isə Azərbaycan–İtaliya hərbi-texniki əməkdaşlığının praktik mərhələyə keçdiyini nümayiş etdirdi. Bəs bu təyyarələr ordumuza nə kimi üstünlüklər verir? Bu texnologiyalar ordunun əməliyyat çevikliyini və müxtəlif döyüş şəraitlərinə uyğunlaşma qabiliyyətini əsaslı şəkildə artırır. Taktiki əməliyyatların planlaşdırılmasında çevik dəstək elementi kimi çıxış edərək, ordunun qlobal təhdidlərə və hərbi çağırışlara daha qısa zamanda reaksiya verməsinə zəmin yaradır. Xüsusilə Azərbaycanın mürəkkəb coğrafi relyefi, o cümlədən dağlıq ərazilərdə manevr imkanlarının genişlənməsi ölkənin müdafiə potensialının güclənməsində həlledici amilə çevrilir. Bu müasir platformalar daha yüksəklikdə və çətin hava şəraitində qoşunların fasiləsiz təchizatını, yaralıların təxliyəsini və xüsusi təyinatlı bölmələrin operativ yerdəyişməsini təmin edir.

Bu proses həm də Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına yaxınlaşması, logistika, rəqəmsal əməliyyat idarəetməsi və texniki təminat zəncirində tamamilə yeni, innovativ yanaşmaların formalaşmasına şərait yaradır. İtaliya ilə qurulan hərbi-texniki tərəfdaşlıq təkcə silah sistemlərinin alınması deyil, həm də həmin sistemlərin idarə olunması üçün yüksəkixtisaslı kadrların hazırlanması deməkdir. Məsələn, 2025-ci ilin noyabrında İtaliyanın Çerviya şəhərində keçirilən birgə ekspert görüşü bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Dağlıq ərazilərdə axtarış-xilasetmə əməliyyatlarına və taktiki uçuşların koordinasiyasına həsr olunmuş bu tədbir hərbi təhsil ilə praktiki bacarıqların vəhdətini nümayiş etdirərək tərəflər arasında əməliyyat uyğunluğunu yeni səviyyəyə qaldırıb.

Bundan başqa, Azərbaycan İtaliya müdafiə sənayesinin son nailiyyətləri, xüsusilə "Leonardo S.p.A." tərəfindən hazırlanan və qeyri-rəsmi olaraq "Mikelancelo günbəzi" adlandırılan yeni nəsil hava hücumundan müdafiə sistemi ilə də maraqlanır. Süni intellekt əsaslı bu sistemin müxtəlif platformalarla inteqrasiya imkanları və NATO standartlarına tam uyğunluğu, onun gələcəkdə qlobal bazarda ciddi üstünlük qazandıracaq. Belə yüksək texnologiyalara çıxış perspektivi Azərbaycanın hava məkanının müdafiəsi üçün də strateji imkanlar vəd edir. Bu çərçivədə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin ölkəmizə tarixi səfəri ikitərəfli bağların keyfiyyətcə yeni və daha dinamik bir mərhələyə qədəm qoymasına misilsiz töhfə verəcək. Prezident İlham Əliyev ilə mətbuata bəyanatında Ciorcia Meloninin qeyd etdiyi kimi: "Əminəm ki, İtaliya ilə Azərbaycan arasında olan dostluq əlaqələri bundan sonra daha da inkişaf edəcək və daha yüksək səviyyələrə qalxacaq".

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **politoloq İlqar Hüseynli** bildirdi ki, İtaliya texnologiyalarının Azərbaycan Ordusuna inteqrasiyası həm kadr hazırlığı, həm də infrastruktur baxımından hərbi gücümüzün intellektual və texniki bazasını modernləşdirir: "Bu əməkdaşlıq yalnız Azərbaycanın müdafiə qüdrətini artırmır, həm də regional sabitliyin qarantı kimi çıxış edərək bölgədə kənar təhdidlərin qarşısının alınmasında və təhlükəsizlik arxitekturasının qorunmasında həlledici rol oynayır. Azərbaycan–İtaliya müdafiə əməkdaşlığı artıq epizodik xarakterli deyil, sistemli və uzunmüddətli strateji tərəfdaşlıq modelinə çevrilib. Silah və texnika tədarükü, hərbi təhsil, birgə təlimlər və texnoloji mübadilə prosesləri paralel şəkildə inkişaf edir. Kadr hazırlığı, təcrübə mübadiləsi və hərbi-texniki sənaye sahəsində birgə layihələr sonrakı dövrdə əlaqələrin genişlənməsi üçün əsas platforma rolunu oynayır.

Bu inteqrasiya Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşmasını sürətləndirir, operativ imkanlarını genişləndirir və bütövlükdə ölkənin müdafiə qabiliyyətini yeni səviyyəyə yüksəldir. İtaliya bu gün Azərbaycanın yalnız ən böyük ticarət tərəfdaşı deyil, həm də milli maraqlarımızın müdafiəsində çıxış edən ən sadiq strateji müttəfiqlərindən biridir".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan–Aİ münasibətlərində anlaşma və davamlı yüksəliş

## *İtaliya ilə çoxtərəfli əməkdaşlıq isə ön mövqeyə çıxıb*



**Avropa ilə Cənubi Qafqaz arasında formalaşan yeni geosiyasi xəritədə Azərbaycan–İtaliya münasibətləri geniş strateji kontekstdə qiymətləndirilməlidir. İkitərəfli münasibətlər enerji təhlükəsizliyi, siyasi dialoq və geoiqtisadi maraqların kəsişdiyi çoxsəviyyəli modelə çevrilib.**

İtaliya bu gün Avropa İttifaqı daxilində Azərbaycan üçün ən etibarlı və praqmatik tərəfdaşlardan biri kimi çıxış edir. Roma–Bakı xəttində formalaşan münasibətlər konkret maraqların kəsişməsi üzərində qurulub. Məhz bu amil tərəflər arasında əlaqələri daha dayanıqlı və uzunmüddətli edir. Çünki ideoloji dalğalanmaların tez-tez müşahidə olunduğu müasir beynəlxalq münasibətlər sistemində rasional maraqlara əsaslanan tərəfdaşlıqlar daha çevik və davamlı olur.

İtaliyanın yanaşması xüsusilə diqqətəlayiqdir: Roma Azərbaycanla münasibətlərdə funksional əməkdaşlığa üstünlük verir. Praqmatik tərəfdaşlığın ən aydın təzahürü enerji sahəsində özünü göstərir. Cənub Qaz Dəhlizi və onun əsas seqmentlərindən biri olan Trans-Adriatik Boru Kəməri (TAP) layihəsi Azərbaycan–İtaliya münasibətlərini strateji müstəviyə yüksəldib. TAP vasitəsilə Azərbaycan qazının birbaşa İtaliya bazarına daxil olması Romaya enerji təhlükəsizliyinin şaxələndirilməsi baxımından mühüm üstünlüklər qazandırır. Xüsusilə son illərdə Avropanın enerji xəritəsində baş verən dəyişikliklər fonunda bu əməkdaşlıq daha da aktuallaşıb.

2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya səfəri Azərbaycan–İtaliya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidini şərtləndirən mühüm siyasi hadisə kimi dəyərləndirilə bilər. İmzalanan çoxsaylı sənədlər, xüsusilə "çoxölçülü strateji tərəfdaşlıq" anlayışının ön plana çıxarılması göstərirdi ki, Bakı və Roma əməkdaşlığı epizodik layihələr səviyyəsindən çıxarıb sistemli və institusional müstəviyə keçirmək niyyətindədir. Səfər çərçivəsində verilən siyasi mesajlar da diqqətəlayiq idi. Hər iki tərəf açıq şəkildə nümayiş etdirdi ki, münasibətlər sənaye, müdafiə, logistika və humanitar sahələrdə də genişlənəcək. Başqa sözlə, 2020-ci il səfəri Azərbaycan–İtaliya əlaqələrini taktiki əməkdaşlıqdan çıxarıb strateji planlaşdırma səviyyəsinə yüksəltdi.

Sonrakı dövrdə Ciorcia Meloni hökumətinin Azərbaycanla dialoqu ardıcıl şəkildə davam etdirməsi bu xəttin davamlı xarakter daşıdığını göstərdi. İtaliya siyasətində hökumət dəyişikliklərinin tez-tez baş verdiyi nəzərə alınsa, bu davamlılıq xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, Meloni hökumətinin praqmatik xarici siyasət kursu Azərbaycanla münasibətlərin daha da dərinləşməsi üçün əlverişli zəmin yaradır. Son illər müşahidə olunan dinamika təsdiqləyir ki, Azərbaycan–İtaliya münasibətləri artıq fərdi diplomatik təşəbbüslərdən kənara çıxaraq institusional və strateji sabitlik qazanıb.

Meloninin Azərbaycana budəfəki səfəri bu kontekstdə çoxqatlı geosiyasi mesajların daşıyıcısı kimi oxunmalıdır. Müasir beynəlxalq münasibətlər sistemində liderlərin xüsusilə də Cənubi Qafqaz kimi həssas regionda ardıcıl səfərlər müəyyən strateji niyyətlərin göstəricisinə çevrilir. Roma açıq şəkildə tərəf tutan aktor kimi çıxış etməkdən çəkinərək, daha çox vasitəçi və ya "tarazlaşdırıcı tərəfdaş" rolunu ön plana çıxarmağa çalışır. Çünki Cənubi Qafqazda kəskin tərəfkeşlik siyasəti uzunmüddətli perspektivdə iqtisadi və enerji layihələri üçün risklər yarada bilər. Buna görə də İtaliya daha çevik və inklüziv diplomatiya yürütməyə üstünlük verir.



Bununla belə, balans siyasəti formal neytrallıq da demək deyil. Faktiki reallıq göstərir ki, İtaliyanın Azərbaycanla əməkdaşlığı daha dərin və strukturlaşdırılmış xarakter daşıyır. Enerji sahəsində formalaşmış qarşılıqlı asılılıq, nəqliyyat və logistika imkanları, eləcə də investisiya perspektivləri Bakı ilə əlaqələri Romaya daha konkret və ölçülə bilən dividendlər vəd edən istiqamətə çevirir. Digər tərəfdən, Meloninin bu səfəri İtaliyanın Cənubi Qafqazda rolunu genişləndirmək niyyətinin də göstəricisidir. Roma, eyni zamanda, siyasi dialoqun aktiv iştirakçısı kimi mövqeyini gücləndirməyə çalışır. Bu kontekstdə Prezident İlham Əliyevin mətbuat üçün bəyanatında dedikləri Meloninin səfərinin yüksək siyasi və simvolik məna daşıdığını daha aydın şəkildə ortaya qoyur. Prezidentin vurğuladığı kimi, İtaliya Nazirlər Şurasının sədrinin İrəvanda keçirilən tədbirdən sonra birbaşa Azərbaycana səfər etməsi iki ölkə münasibətlərində xüsusi etimad və hörmət mühitinin göstəricisi kimi qiymətləndirilir.

Dövlət başçısının sözləri həm də regional diplomatiyanın incə balansına işarə edir. Eyni səfər çərçivəsində Cənubi Qafqazın iki fərqli siyasi mərkəzinə baş çəkmək siyasi mesaj xarakteri daşıyır. Prezident İlham Əliyev bu məqamı xüsusi vurğulayaraq qeyd edir ki, bu ardıcıllıq Azərbaycanın İtaliya tərəfindən nə qədər yüksək səviyyədə qəbul olunduğunu və ikitərəfli münasibətlərin dərinliyini nümayiş etdirir. İtaliya Azərbaycanın regiondakı rolunu və strateji əhəmiyyətini nəzərə alan Avropa İttifaqı üzv dövlətlərindən biridir. Meloninin səfər trayektoriyası isə bu yanaşmanın praktik təzahürü kimi çıxış edir.

Roma ilə qurulan dialoq Bakıya Aİ daxilində daha balanslı mövqe formalaşdırmağa imkan verir. Çünki İtaliya Avropa siyasətində daha çox real sektor maraqlarına – enerji təhlükəsizliyi, iqtisadi əməkdaşlıq və sənaye əlaqələrinə – üstünlük verən ölkələrdən biridir. Bütün bunlar isə Azərbaycanla əməkdaşlığın ideoloji müstəvidən daha çox funksional və qarşılıqlı fayda əsaslı platformada inkişafına şərait yaradır. Roma Aİ daxilində Azərbaycanla əməkdaşlığın davamlılığını dəstəkləyən, bəzən isə bu əməkdaşlığın lehinə mövqe formalaşdıran aktor kimi çıxış edir. Bunlar xüsusilə enerji təhlükəsizliyi məsələlərində və Cənub Qaz Dəhlizinin əhəmiyyətinin vurğulanmasında özünü aydın şəkildə göstərir. Beləliklə, İtaliya müəyyən mənada Azərbaycanın Aİ daxilində "səs daşıyıcısı" funksiyasını yerinə yetirərək Bakı üçün əlavə diplomatik üstünlük yaradır.

Eyni zamanda, bu dinamika Azərbaycan üçün daha geniş strateji nəticələr doğurur. İtaliya vasitəsilə qurulan əlaqələr yeni əməkdaşlıq formatlarına zəmin yaradır. Bu ilin yanvarında hökumətlərarası komissiyanın iclasının keçirilməsi Azərbaycan–İtaliya institusional və idarəolunan əməkdaşlıq modelinə keçdiyini göstərir. Komissiya çərçivəsində müzakirə olunan məsələlərin spektri – enerji və sənayedən tutmuş nəqliyyat, təhsil və mədəniyyət sahələrinə qədər – əməkdaşlığın çoxşaxəli xarakter aldığını nümayiş etdirir. Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, bu platforma siyasi razılaşmaları konkret layihələrə çevirən icra mexanizmi rolunu oynayır. Yəni tərəflər arasında əldə olunan anlaşmalar real iqtisadi və sosial nəticələr doğuran təşəbbüslərə transformasiya olunur.

Ümumilikdə, Azərbaycan–İtaliya münasibətləri bu gün Avropa ilə əməkdaşlığın ən funksional və uğurlu nümunələrindən biri kimi çıxış edir. Belə bir modelin dayanıqlılığı onun üç əsas dayağı ilə izah olunur: qarşılıqlı asılılıq, praqmatizm və strateji uyğunluq. Enerji əməkdaşlığı qarşılıqlı asılılığı dərinləşdirir, siyasi dialoq praqmatik xarakter daşıyır, geosiyasi maraqlar isə böyük ölçüdə üst-üstə düşür. Bu üç element birlikdə münasibətləri həm sabit, həm də inkişafyönümlü edir.

Sonda onu da qeyd edək ki, C.Meloninin Azərbaycana səfəri bu modelin davamlı və perspektivli olduğunu təsdiqləyən mühüm siyasi siqnaldır. Əgər bu tendensiya davam edərsə, Bakı–Roma xətti yaxın perspektivdə Aİ–Azərbaycan əlaqələrinin ümumi arxitekturasını formalaşdıran əsas istiqamətlərdən birinə çevrilə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Aİ-nin ali diplomatı XİN-də



**Mayın 5-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşüb.**

Tərəflər arasında keçirilmiş təkbətək və geniş tərkibdə görüşlər zamanı Azərbaycan-Aİ münasibətlərinin cari vəziyyəti və perspektivləri ətraflı nəzərdən keçirilib.

Siyasi dialoqun intensivliyi, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb, tərəfdaşlığın qarşılıqlı hörmət, bərabərlik və ortaq maraqlar əsasında inkişaf etdirilməsinin vacibliyi qeyd olunub. Bununla yanaşı, Azərbaycanla Avropa arasında dialoq mexanizmlərinin, yeni ikitərəfli saziş üzrə danışıqların bərpasının və Tərəfdaşlıq Prioritetləri sənədi üzrə aparılan danışıqların önəmi vurğulanıb.

Görüş zamanı iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, nəqliyyat və logistika, "yaşıl enerji" və rəqəmsallaşma sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi və etibarlı tərəfdaş kimi rolu qeyd olunub.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycanın həyata keçirdiyi bərpa və yenidənqurma işləri, habelə mina təhlükəsi ilə mübarizə sahəsində görülən tədbirlər barədə qarşı tərəfi məlumatlandırıb. Tərəflər, həmçinin regional və beynəlxalq təhlükəsizlik məsələləri üzrə fikir mübadiləsi aparıblar.

Görüş zamanı, habelə Azərbaycan ilə Aİ arasında müxtəlif institutlar və proqramlar çərçivəsində əməkdaşlığın inkişaf perspektivləri nəzərdən keçirilib.

***XQ***

# Mətbuat Şurasının etik davranış çağırışı

**Azərbaycan Mətbuat Şurası müsahibələrin təqdimatına və müsahiblərə həssaslıqla yanaşmaqla bağlı media qurumlarına çağırış edib.**



Açıqlamada bildirilir ki, ölkənin media qurumları və jurnalistlər müsahibə götürdükləri şəxslərin fikirlərini hissələrə bölərək, müxtəlif sərlövhələrlə təqdim edirlər: "Lakin bir çox hallarda bu üsula üstünlük verilməsi müsahiblərdə ciddi narazılıq doğurur. Həmin hissələrin sosial şəbəkələrdə paylaşılması isə bu narazılığı daha da artırır. Sosial şəbəkə istifadəçiləri isə rəy və münasibətlərini, bir qayda olaraq, müsahiblərin yanaşmalarına, onların söz açdıqları məsələ ilə bağlı söylədikləri digər fikirlərə diqqət yetirmədən, yaxud yalnız irəliyə çıxarılmış sərlövhəyə köklənərək bildirirlər".

Çağırışda qeyd edilir ki, adətən belə durumlarda əsl mahiyyət kənarda qalır. Mövcud müstəvidəki ən yolverilməz hal isə müsahiblərin sosial şəbəkə istifadəçiləri tərəfindən əsassız ittihamlarla üzləşmələridir: "29 aprel 2026-cı il tarixində Azərbaycan Respublikasının Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevdən "Qaranlıqda həqiqət" verilişində müsahibə alınıb. Alim-diplomatın səsləndirdiyi fikirlər önə çıxarılmaq əvəzinə, mərhum qızı Humay Quliyeva ilə bağlı sual-cavab hissəsi qısa video anonslarla təqdim edilib. Digər media qurumları da məhz bu parçanı auditoriya ilə paylaşıblar".

Çağırışda bildirilir ki, yaranmış vəziyyətə görə Humay Quliyevanın adına yaradılmış "Huma Quşu" Təhsilə Yardım Fondu bəyanat yayıb, kəskin etirazını bildirib və Azərbaycan Mətbuat Şurasına mövqe bildirmək üçün müraciət edib. Şura fondun müraciətindəki narahatlığı bölüşür və hesab edir ki, "Qaranlıqda həqiqət" verilişinin təqdimatında qeyri-həssas yanaşmaya yol verilib.

Qeyd olunmuş və digər oxşar vəziyyətləri nəzərə alaraq, Azərbaycan Mətbuat Şurası media orqanlarının belə çıxışlarını qınayır və onları müsahibələrin təqdimatına ehtiyatla yanaşmağa, özünün ictimai missiyasına məsuliyyətlə və son dərəcə həssas yanaşmağa çağırır.

***XQ***

# Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısına mesajları dünya mediasında









**Dünyanın aparıcı mətbuat orqanları Azərbaycan Prezidenti İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışını işıqlandırmaqda davam edir.**

Avropa İttifaqının "Commonspace.eu" nəşri dövlətimizin başçısının çıxışının tam mətnini dərc edib.

Türkiyənin "Hürriyet qəzetinin "Prezident Əliyevdən Ermənistana barış mesajı" sərlövhəli məqaləsində Azərbaycan-Ermənistan münasibətlərində faktiki sülh mühitinin yarandığı diqqətə çatdırılır, iqtisadi və nəqliyyat əməkdaşlığı üzrə ilk addımların atıldığı qeyd olunur. "İlham Əliyev bildirib ki, Azərbaycan Ermənistana 12 min ton neft məhsulları ixrac edib, həmçinin öz ərazisindən 28 min ton yükün tranzitini asanlaşdırıb", - deyə nəşr yazır.

Məqalədə, həmçinin Azərbaycanın dövlət başçısının Avropa institutları, xüsusilə Avropa Parlamenti və AŞPA Azərbaycana münasibətdə ikili standartlar tətbiq etməsi barədə fikirləri də yer alıb. Qeyd olunur ki, Prezident İlham Əliyev Avropa Parlamentinin və AŞPA-nın Azərbaycana qarşı qəbul etdiyi qətnamələri "təhqir və yalanlarla dolu" adlandıraraq onları açıq şəkildə tənqid edib.

Qardaş ölkənin "TRT World", "Akşam", "Cumhuriyet", "Haber Global", "Star", "Aydınlık", "Yeşil İğdır", "Mersin Haber", "Haber 1", "Ankahaber" media orqanları da Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışından əsas məqamları dərc edib.

İranın "Tasnim" xəbər agentliyi, "Şafaqna" və "Xabarpru" portalları da Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışını işıqlandırıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti bazar ertəsi günü Avropa Parlamentini Azərbaycanla Ermənistan arasındakı sülh prosesini sabotaj etməkdə ittiham edib. "İlham Əliyev İrəvanda keçirilən Zirvə toplantısında videobağlantı vasitəsilə çıxışında bildirib ki, Avropa Parlamenti son beş ildə Bakıya qarşı təhqiramiz tonda 14 qətnamə qəbul edib", - deyə İran mediası yazır.

Misirin "NDB Masr" nəşri, Yəmənin "Saba" və Livanın NNA xəbər agentlikləri, "Leboanon files" portalı, Qazaxıstanın "Ulısmedia" qəzeti, Tacikistanın "Xabarixuş" saytı da dövlətimizin başçısının "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısındakı çıxışına geniş yer verib. Qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində irəliləyişlərin olduğunu vurğulayıb və bunu konkret iqtisadi və nəqliyyat addımları ilə əsaslandırıb.

***XQ***

# Ciorcia Meloninin ölkəmizə səfərinin əks-sədası







**İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Bakıya səfəri və onun Azərbaycan Prezidenti İlham Əliyev ilə keçirdiyi görüşlər, həmçinin iki liderin bəyanatları İtaliya və dünya mediasının diqqət mərkəzindədir.**

"RaiNews" telekanalının reportajında və onun internet saytındakı "İtaliya-Azərbaycan. Enerji və kommunikasiya sahələrində strateji alyans" sərlövhəli materialda qeyd olunub: Ciorcia Meloni və İlham Əliyev tərəfdaşlığın möhkəmlənməsini - təkcə qaz və neft həcmləri deyil, həm də İtaliyanı Avropanın enerji mərkəzinə, Bakını isə iki qitə arasında haba çevirməyi hədəfləyən sənaye layihəsini təsdiqləyirlər".

"RaiNews" Ciorcia Meloninin sözlərini sitat gətirib: "İtaliyaya qaz və neftin ixracı Ukraynaya qarşı Rusiyanın təcavüzkar müharibəsi başladıqdan sonra şərəflə təmsil etdiyim ölkənin enerji təhlükəsizliyində müəyyənedici amil rolunu oynayır. Bu əlaqələrin möhkəmləndirilməsi barədə aydın şəkildə söhbət apardıq. Biz nəinki təchizat həcmləri, xüsusilə bütün sahələr üzrə sənaye tərəfdaşlığının keyfiyyəti üzərində çalışmalıyıq. Bilirik ki, enerji və bağlantılar eyni medalın iki üzüdür. İstərdik ki, Azərbaycan Avropa ilə Asiya arasında fundamental qovşaq rolunu möhkəmləndirsin".

"Agencia Nova" agentliyinin saytında dərc olunmuş geniş məqalədə qeyd olunur ki, enerji məsələsi hər iki liderin əsas müzakirə mövzusu olub. İlham Əliyev TAP layihəsinin mərkəziliyini və onun inkişafının davam etdirilməsinin vacibliyini vurğulayıb.

"Ciorcia Meloni isə xatırladıb ki, Rusiya Ukraynaya qarşı müharibənin başlanğıcından bəri Azərbaycandan İtaliyaya qaz və neft tədarükü milli enerji təhlükəsizliyi üçün "həlledici" olub", - deyə agentlik yazıb.

Məqalədə diqqətə çatdırılır ki, ikinci mərkəzi addım iqtisadi və sənaye ölçüsü ilə bağlıdır. "Prezident Əliyev İtaliya bazarını Azərbaycan üçün çox maraqlı adlandırıb. O xatırladıb ki, İtaliyaya qoyulan Azərbaycan investisiyaları indiyə qədər üç milyard dollar təşkil edir", - deyə agentliyin materialında vurğulanır.

"Secoli dItalia" qəzetində dərc olunmuş məqalədə qeyd olunur ki, İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Bakıya səfəri bu ölkənin enerji təhlükəsizliyində mühüm rola malik olan Azərbaycan ilə əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli hadisədir. Nəşr yazır ki, hökumət başçısının Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşü çox məhsuldar olub. Ciorcia Meloni xüsusi olaraq vurğulayıb: "Bu gün ölkələrimiz arasında münasibətlərə gəldikdə, bu, siyasi baxımdan mənim üçün əhəmiyyətlidir. Çünki İtaliyanın Baş nazirinin Azərbaycana rəsmi səfərindən 13 il ötür. Düşünürəm ki, yaranmış bu qədər uzunmüddətli boşluğu doldurmalı idik".

Rəsmi ANSA informasiya agentliyi, "Agenzia CULT", "Agenzia vista", "Domani", "la Repubblica", "ItalPress", "la Gazetta del Mezzogiorno", "Crema Oggi", "Lecodelsud", "ilNordEst", "Messagerro", "il Mattino", "il Sole", la Sentinella", "GDVNews", "La Provincia", "Motori", "Reggio", "Trentino", "Sream24" mətbuat orqanlarının dərc etdiyi materiallarda İtaliyanın hökumət başçısının Azərbaycan Prezidenti ilə təkbətək və geniş tərkibdə görüşlər keçirdiyi, həmçinin iki liderin mətbuata birgə bəyanatla çıxış etdiyi vurğulanır.

ABŞ-;n "Bloomberg" agentliyinin və "Energynewsbeat" nəşrinin "İtaliya enerji təchizatında Azərbaycan ilə daha yaxın əlaqələr qurmaqda maraqlıdır" sərlövhəli məqaləsində qeyd olunub ki, Ciorcia Meloninin Azərbaycan Prezidenti ilə görüşündə davam edən qlobal fasilələr fonunda tədarükü təmin etmək üçün İtaliyanın daha geniş strategiyasının bir hissəsi olaraq iki ölkə arasında enerji əməkdaşlığını dərinləşdirmək qərara alınıb.

Türkiyənin Anadolu agentliyi, həmçinin "Haberglobal", "Haberler.com", "Ekoturk", "Orta Doğu Gazetesi", "Eplis Haber.com" mətbuat orqanları da İtaliyanın hökumət başçısının Azərbaycan Prezidenti ilə təkbətək və geniş tərkibdə görüşləri, həmçinin iki liderin mətbuata birgə bəyanatları ilə bağlı materiallar dərc edib.

***XQ***

# Ermənistan–Aİ Birgə Bəyannaməsi: Azərbaycan amili və Cənubi Qafqaz

*(əvvəli 1-ci səhifədə)*

Beləliklə, Birgə Bəyannamədə Ermənistana ən müxtəlif dəstək mətləbləri ilə yanaşı, o da vurğulanır ki, ölkə və Aİ ümumi siyasi dəyərlərə və beynəlxalq hüquqa, BMT Nizamnaməsinə və qaydalarına əsaslanan beynəlxalq nizama birgə sadiqlik ruhunu daşıyır: "Biz suverenlik və ərazi bütövlüyünün fundamental prinsiplərini təsdiqləyirik. İkitərəfli münasibətlərimizin dərinləşdirilməsi Cənubi Qafqazda və onun hüdudlarından kənarda sülhə, sabitliyə və rifaha töhfə verir".

Sülhə, sabitliyə və rifaha töhfə baxımından Bəyannamədəki diqqətçəkən məqam Ermənistan və Azərbaycan arasındakı barışdır. Sənəddə barışın daha da institusionallaşdırılmasına, yekun sazişinin imzalanmasının və ratifikasiyasının təmin edilməsinə yönəlmiş səylər yüksək dəyər qazanır: "Həmçinin 8 avqust 2025-ci il tarixində keçirilmiş Vaşinqton sammitinin nəticələrini və Ermənistan ilə Azərbaycan arasında münasibətlərin tənzimlənməsinə yönəlmiş sonrakı addımları da yüksək dəyərləndiririk".

Bundan əlavə, Birgə Bəyannamədə bildirilir ki, Avropa İttifaqı Ermənistan ilə Türkiyə arasında münasibətlərin normallaşdırılmasını, region ölkələrinin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə, sərhədlərin toxunulmazlığına və qarşılıqlılığa əsaslanan bütün regional kommunikasiyaların inklüziv şəkildə açılmasını tam dəstəkləyir. Belə bir dəstəyin ifadə olunması isə özlüyündə müsbət haldır.

Ancaq sənəddəki "Biz Avropa İttifaqının Ermənistandakı missiyasının Cənubi Qafqazda sülh və sabitliyin təşviqinə verdiyi töhfəni yüksək qiymətləndiririk" fikri ümumi kontekstə sığmır. Çünki EUMA adlandırılan missiyasının sülh prosesinə heç bir aidiyyəti yoxdur və olmayıb. Ümumən, qurumun konkret nə işlə məşğul olduğu anlaşılmır. Yəni yaxşı olar ki, "köhnə qitə"dəkilər Ermənistanla münasibətlər zəminində konkret məqamların üzərində dayansınlar.

Bilavasitə EUMA-ya gəlincə, prinsip etibarilə, qurumun tamamilə ləğvi lazımdır. Axı keçmiş unudulmur. Çünki Aİ-nin müşahidə missiyasını ATƏT-in artıq canını tapşırmış Minsk qrupuna bənzər təsisata çevirmək planları olub. Deməli, Azərbaycanla Ermənistan arasında hansısa formada münaqişə və ya anlaşılmazlıq məntiqini vurğulayan heç bir kənar təsisata meydan tanınmamalıdır. EUMA-ya ona görə ehtiyac yoxdur ki, Bakının və İrəvanın sülhə nail olduğu Aİ-nin özü tərəfindən də qəbul edilir. Hazırda bu quruma həm də o səbəbdən ehtiyac duyulmur ki, indi ziddiyyətlərdən və şübhələrdən kənar dayanmağın, səmimi münasibət və yanaşmaların zamanıdır.

*

Növbəti məqama diqqət yetirək. Birgə Bəyannamədə bildirilir ki, tərəflər Ermənistan–Aİ qarşılıqlı əlaqəlilik tərəfdaşlığını alqışlayır və onun üç əsas istiqamətinin – nəqliyyat, enerji və rəqəmsal sahələrin strateji əhəmiyyətini vurğulayırlar: "Eyni zamanda, insanlararası əlaqələri gücləndirən təşəbbüsləri də önə çəkirik; bu təşəbbüslər qarşılıqlı anlaşmanı, cəmiyyətlərin dayanıqlılığını və Avropanın ideyalar, istedadlar və investisiyalar şəbəkələri ilə əlaqələri möhkəmləndirir və Ermənistan–Aİ tərəfdaşlıq gündəliyinin daha da inkişafına xidmət edir".

Birgə Bəyannamədə yuxarıda qeyd etdiyimiz kontekstdə və Aİ-nin regionlararası əlaqəlilik gündəliyi çərçivəsində, Ermənistanın inklüziv dayanıqlılığının yaxşılaşdırılmasına yönəlmiş təşəbbüslərinin alqışlandığı açıqlanır və bildirilir ki, bu təşəbbüslər suverenlik, yurisdiksiya, bərabərlik, qarşılıqlılıq prinsiplərinə əsaslanır və Aİ "Sülh kəsişməsi" layihəsinə dəstəyini bir daha təsdiqləyir. Həmçinin "bu ortaq baxış Qara dənizdə, Cənubi Qafqazda və Mərkəzi Asiyada sülhün, sabitliyin və əlaqəliliyin təşviqinə, eyni zamanda, insanlar arasında əlaqələrin gücləndirilməsinə xidmət edir". Ən başlıcası isə "bu baxımdan, "Beynəlxalq sülh və rifah naminə Tramp Marşrutu" (TRIPP) proqramının həyata keçirilməsində irəliləyiş əsas amil kimi qiymətləndirilir və bu, sabit, təhlükəsiz və region üzrə inklüziv əlaqəliliyin inkişafına töhfə verir".

Göründüyü kimi, regionun əsas və hərəkətverici inkişaf kazusunun TRIPP olduğu vurğulanır. Amma diqqətçəkən məqam TRIPP-ə rəsmi İrəvanın "Sülh kəsişməsi" və ya "Dünyanın kəsişməsi" pəncərəsindən baxışdır. Məlum olduğu kimi, "Dünyanın kəsişməsi" 2025-ci ilədək rəsmi İrəvanın Azərbaycanın "Zəngəzur dəhlizi" ideyasına alternativ kimi irəli sürdüyü, əslində isə ideyanı sıradan çıxarmaq məqsədilə ortaya atdığı layihə idi. Hazırda Aİ Ermənistanla Birgə Bəyannamədə "Sülh kəsişməsi" üzərinə siyasi sərmayə yatırmaqla, erməni iqtidarına dəstəyini göstərir.

Əlbəttə, daha yaxşı olardı ki, vurğu birbaşa TRIPP üzərinə qoyulardı, "Dünyanın kəsişməsi" məntiqi ortaya atılmazdı. Çünki söhbət bütövlükdə regionun inkişafı mənzərəsinin təmin edilməsindən gedirsə və Ermənistanla bağlı imzalanmış sənəddə Azərbaycanın da adı çəkilirsə və deməli, inkişafda ölkəmizin rol oynadığı vurğulanıb qəbul edilirsə, "Sülh kəsişməsi" kimi, rəsmi Bakının "Zəngəzur dəhlizi" məntiqinə də yer verilməliydi. Amma verilmir.

Sonda onu da deyək ki, hər nə qədər Ermənistana açıq dəstəyin ifadə olunmasına baxmayaraq, Aİ-nin bu ölkə ilə Birgə Bəyannaməsində əksini tapan məqamları, ümumən, müsbət qiymətləndirmək mümkündür. Bizim üçün ən vacib isə bildirdiyimiz kimi, Azərbaycanın regional inkişafdakı hərəkətverici missiyasının vurğulanmasıdır. Nəzərə alaq ki, bu vurğulanmada ölkəmizin regional aktor obrazı dolğunluğu ilə əksini tapır.

***C.ƏVƏZ***
***XQ***

**Bəlkə Fransa Prezidenti Emmanuel Makron Ermənistanda bu suala başqa cür cavab verə bilməzdi. Yəqin hay auditoriyasına xoş gəlməsi üçün nə isə deməli idi. Axı o, Avropanın lider ölkəsinin rəhbəridir. Bütün bunları başa düşdük. Amma Makronun timsalında real durumu yaddan çıxaranlar və ya unudanlar var.**

# Makron Azərbaycan rəhbərliyi ilə danışıq aparmaqdansa...

## *Yaxud Fransa Prezidentinin bilmə(mə)li olduğu məqamlar barədə*

Ermənistanda Makrona "Azərbaycanda saxlanılan erməni hərbi əsirlər"lə bağlı sual ünvanlanıb. Daha doğrusu, onların azadlığa çıxmalarına və bu işdə Parisin təşəbbüsünə dair. Makron da üz-gözünə müdrik görkəm verərək bildirib ki, məsələni əvvəlcə Ermənistan, sonra isə Azərbaycan rəhbərliyi ilə danışacaq.

Bəli, Makronun durumu anlaşılandır. Paris İrəvanla əlahiddə yaxınlığa malikdir, Fransa erməni lobbi və diaspor təşkilatlarının geniş lövbər saldıqları və adətən seçki proseslərinə əhəmiyyətli təsir göstərdikləri ölkədir. Hər ölkənin bir cür bədbəxtliyi olur, Fransanınkı da budur, nə etmək olar? Hərçənd, məsələnin çox ciddi "əmması" var.

Birincisi, "Azərbaycanda saxlanılan erməni hərbi əsirlər" məsələsi siyasi şoudur və zaman-zaman Azərbaycana təzyiq vasitəsi kimi gündəmə gətirilib. Hazırda belə bir fikrindədir? Görəsən, Fransada belə bir amplualı şəxs olsaydı, hansısa başqa dövlətin rəhbəri Makrondan onun sərbəst buraxılmasını istəyərdimi? Bu sualımız da ritorikdir. Çünki cavabı məlumdur.

Daha bir məqama diqqət yetirək. Ümumən, dövlət başçılarının nəyisə bir-birilərindən xahiş etmələrinə, kluar söhbətləri aparmalarına dair diplomatik təcrübə var. Əslində, VIII toplantısı Ermənistanda keçirilmiş "Avropa Siyasi Birliyi" də, müəyyən mənada, məhz bu baxımdan münbit platformadır. Ancaq hər xahişin və istəyin ədəb-ərkanı olmalıdır. Cənab Makron bu barədə düşünməli və Azərbaycan rəhbərliyi ilə əslində, hansı mövzunu müzakirə edəcəyinin fərqinə varmalıdır. Ən başlıcası isə o, ölkəmizin "qırmızı xət"lərini nəzərə almalıdır.

Başqa bir məqam Makronun özünün siyasətçi nüfuzu ilə bağlıdır.



Aydındır ki, ona verilən sual erməni ictimai rəyinin müəyyən kəsimi üçün əhəmiyyətə malikdir. Deməli, sualın cavabına da konseptual yanaşma önəmlidir. Konseptual yanaşma isə budur ki, Bakı həbsxanalarında yatanlar, təqdim edildikləri kimi, heç də hərbi əsir deyillər. Onların cinayətkar olduqlarını vurğuladıq, əlavə edək ki, bu şəxslər, eyni zamanda, Ermənistan ərazisində yox, Azərbaycan torpaqlarında ələ keçiriliblər. Ortaya elementar sual çıxır: Ermənistan vətəndaşlığını daşıyan şəxslər Azərbaycanda nə gəzirdilər? Hələ onların ağızlarını köpükləndirib, durmadan "Artsax" vay-şüvəni qopardıqlarını bir kənara qoyuruq.

Sözümüz ondadır ki, cənab Makron ona ünvanlanmış sualı məhz vurğuladığımız kontekstdən cavablandırmalı, Azərbaycan rəhbərliyi ilə nəyisə danışacağına dair mesaj verməməli, ən başlıcası, düşünməli idi ki, nəinki danışığın heç bir faydası olmayacaq, ümumən, belə bir söhbətin özü beynəlxalq hüquq normalarına aşkar etinasızlıqdır. Axı Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin VIII toplantısında videobağlantı formatında çıxışı zamanı açıqca bildirdi ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi istənilən digər dövlətin ərazi bütövlüyü və suverenliyi ilə eyni dərəcədə qiymətləndirilməlidir. Bakı həbsxanalarında cəza çəkənlər bunu anlamayanlardır. Makrondamı anlamır? İstəməzdik belə düşünək...

Nəhayət, Cənubi Qafqazda sülh məsələsinə gələk. Bəli, sülh naminə müəyyən güzəştlərin vacibliyini biz də bilirik. Azərbaycanın ən böyük güzəşti otuz ilə yaxın müddətdə işğalçı siyasət yürütmüş Ermənistana barış əlini uzatmaqdır. Həm Makron, həm də başqa Avropa ölkələri bunu böyük lütf kimi qiymətləndirməlidirlər. Onlar onu da nəzərə almalıdırlar ki, keçmişin qalığı olan və iyrənc siluetləri ilə münaqişə məntiqini qoruyan separatçıların azadlığa çıxmaları istiqamətində hansısa cəhd göstərmək, bilavasitə, sülhə zidd məqamdır. Axı barış həm də fundamental səciyyə daşımalı, bütün komponenetlər düşünülməlidir.

Bu gün Azərbaycan sülh naminə real jestlər edir. Ölkəmiz Ermənistana daşımaların tranzitini həyata keçirir, özünün neft məhsullarını qonşusuna ixrac edir. Prezident İlham Əliyev də bununla bağlı bütün məhdudiyyətlərin aradan qalxdığını bəyan edir, üstəlik qarşıda görüləsi daha böyük işlər var. O işlər ki, Ermənistana və erməni xalqına dinclik və rifah gətirəcək. Yəni belə bir sülh sadiqliyi və ardıcıllığı fonunda dərisi beş qəpiyə dəyməyən şəxslərin azadlığa çıxmaları barədə söz açmaq ən azından qeyri-ciddilikdir. Elə bilirik, əlavə şərhə ehtiyac yoxdur.

cəhdin heç bir nəticə verməyəcəyi gün kimi aydındır. Deməli, əvvəldən məkrli məqsəd güdən məsələdən, ümumiyyətlə, söz açmağa dəyməz, onu, sadəcə, tarixin zibilliyinə atmaq lazımdır. Tarixin zibilliyindən söz düşmüşkən, keçək növbəti məqama.

İkincisi, mövzunun Azərbaycan üçün prinsipial həssaslıq dərəcəsi var. Ölkəmiz və cəmiyyətimiz Qarabağ avantürasının daşıyıcısı olmuş, ərazilərimizdə insanlıq əleyhinə coxsaylı cinayətlər törətmiş və günahları sübuta yetirilmiş şəxslərin azadlığa çıxmalarına, əsla, imkan verməz. Nəzərə alaq ki, Azərbaycan dövləti cəmiyyətin baxışlarının əleyhinə addım atmır, atmayıb və atmayacaq da.

Üçüncüsü, həmin şəxslərin azadlığa çıxmaları, böyük ölçüdə, barəsində söz etdiyimiz Qarabağ avantürasının yenidən dirilməsi anlamı daşıyan hadisədir. Axı Ermənistanda bir çoxları bu adamları məhz bu avantüra kontekstində gündəmə gətirirlər. Hətta onlara "Arsax qəhrəmanları" kimi saxta ad verənlər də tapılır.

Dördüncüsü, erməni iqtidarının təmsilçilərinin də Bakı həbsxanalarında cəza çəkənlərdən, yumşaq desək, xoşları gəlmir. Görünür, elə buna görə də Makron əvvəlcə mövzu ətrafında onlarla danışmaqdan söz açır. Yəni tam mümkündür ki, Baş nazir Nikol Paşinyan və komandası "Artsax sevdalılarını" dəmir barmaqlıqlar arasından kənarda təsəvvürə gətirmir. Çünki bu şəxslər nəinki hərbi cinayətkardırlar, eyni zamanda, potensial olaraq Ermənistanda keçmişi yenidən canlandırmaq istəyənlərin cəbhəsində yer alanlardır. Azərbaycan belə bir cəbhənin dirçəlməsinə imkan tanıya bilməz, bu, öz yerində. Məsələ həm də ondadır ki, erməni iqtidarına indiki dövrdə problem lazım deyil.

Bütün bunlardan sonra Fransa Prezidenti Azərbaycan rəhbərliyi ilə nəyi danışacaqmış? Məgər, ortada müzakirə mövzusu var? Ermənistanda ev dustaqlığına məhkum olunmuş erməni əsilli rusiyalı iş adamı, Kremlin maşası Samvel Karapetyan nədirsə, Azərbaycanda məhbus həyatı yaşayan Ruben Vardanyan da odur. Birinci indi Ermənistanda hakimiyyəti dəyişməklə bağlı ultimatumlar verir, ikinci əvvəllər bu mövzuda sərsəmləyirdi. Görəsən, Makron ölkəmizin rəhbərliyindən Rubeninmi azadlığa çıxmasını xahiş edəcək? Bəlkə o, Rusiyadakı bəzi qüvvələr kimi, Paşinyan iqtidarının devrilməsini istəyir? Sualımız ritorikdir, hərçənd siyasətin oyun qaydaları bəzən anlaşılmaz qalır.

Digər tərəfdən, bəlkə Makron Gəncədə yaşayış binasına raket atmaqla çoxsaylı dinc sakinin həyatını itirməsinə və yaralanmasına səbəb olmuş, canlı efirə çıxıb əməli ilə qürrələnmiş, bu azmış kimi Azərbaycanı yeni raket atəşləri ilə hədələmiş Arayik Arutyunyan kimi separatçıbaşının azadlığa çıxmasını xahiş etmək

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İrəvan hibrid basqının hədəfində

## *Kaya Kallas Ermənistanın seçkiqabağı mürəkkəb vəziyyətlə üzləşdiyini açıqladı*

**Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas mayın 4-də İrəvanda keçirilmiş "Avropa Siyasi Birliyi"nin VIII Zirvə görüşünün yekunlarını şərh edib.**



Xanım Kallas "Facebook" sosial şəbəkəsində etdiyi paylaşımda bildirib ki, Ermənistan hibrid təhdidlərlə müşayiət olunan mürəkkəb seçkiqabağı vəziyyətlə qarşı-qarşıyadır. Onun sözlərinə görə, Ermənistan üzrə əsas qrup respublikaya dəstəyin əlaqələndirilməsi üçün görüş keçirib: "Avropa təkcə coğrafiya deyil, həm də bölüşdüyümüz dəyərlər və prinsiplərdir. Məhz buna görə bu gün (paylaşım mayın 4-də edilib–S.H.) Ermənistanda keçirilən "Avropa Siyasi Birliyi"nin VIII görüşündə iştirak etməkdən məmnun oldum. Qitənin hər yerindən 48 lider, eləcə də qonaq qismində Kanada Baş naziri İrəvanda bir araya gələrək dərin geosiyasi dəyişikliklər dövründə daha sıx əməkdaşlığın yollarını müzakirə etdilər.

"Avropa Siyasi Birliyi" – biz demokratik dayanıqlılığın möhkəmləndirilməsi, koordinasiyanın inkişafı, iqtisadi və enerji təhlükəsizliyinin gücləndirilməsi üçün fəaliyyətlərin necə əlaqələndiriləcəyini müzakirə etdik. Müzakirələr, həmçinin hamımızın üzləşdiyi təhdidlərə qarşı davamlılıq məsələsi üzərində cəmləşdi.

Ermənistan üzrə əsas qrup – Ermənistan dezinformasiya kampaniyaları və xarici təsir əməliyyatları da daxil olmaqla hibrid təhdidlərlə müşayiət olunan mürəkkəb seçkiqabağı şəraitlə üz-üzədir. Əsas qrup Ermənistanın dəstəklənməsini koordinasiya etmək üçün görüş keçirdi. Son bir ildə Aİ–Ermənistan tərəfdaşlığı misli görünməmiş sürətlə inkişaf edib. Biz ölkənin dayanıqlılığına ciddi sərmayələr yatırır və qarşıdan gələn seçkilərin şəffaflığını dəstəkləyirik".

Ai rəsmisi paylaşımın sonunda bildirib ki, ASB-nin görüşü başa çatsa da, onlar İrəvanda ilk dəfə keçirilən Aİ–Ermənistan sammiti ilə işlərini davam etdirirlər. Qeyd edək ki, Aİ–Ermənistan sammiti mayın 5-də keçirilib. Sammitdə Avropa İttifaqını Aİ Şurasının Prezidenti Antonio Koşta, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen, Ermənistanı isə Baş nazir Nikol Paşinyan təmsil edib.

*

K.Kallasın paylaşımında qeyd etdiyi hibrid təhdidlər məsələsi isə, belə deyək, yeni söhbət deyil. Ermənistanın rəsmi şəxsləri az qala bir ilə yaxındır ki, seçkilər ərəfəsində rusiyapərəst siyasi qüvvələrin seçicilərin iradəsinə təsir göstərmək, nəticələri öz xeyirlərinə dəyişmək üçün hibrid təsir alətlərindən istifadə edəcəklərini bildirirlər. Rəsmi İrəvan bu hibrid təhdidlərlə mübarizə üçün Aİ-yə rəsmi müraciət etdi və bunun nəticəsi olaraq Aİ ölkələrinin xarici işlər nazirləri 2026-cı il aprelin 21-də Brüsseldə Ermənistana yeni mülki missiyanın göndərilməsi barədə qərarı təsdiqlədilər. Sənədə görə, missiya Ermənistanın hibrid təhdidlərə qarşı dayanıqlılığını gücləndirməyə yönələcək və nazirliklərə, eləcə də təhlükəsizlik qurumlarına strateji və praktiki məsləhətlər, həmçinin dəstək verəcək. Ermənistan Xarici İşlər Nazirliyi açıqlama yayaraq 2 illik mandatla fəaliyyət göstərəcək və "Avropa İttifaqının Ermənistan Respublikasındakı Tərəfdaşlıq Missiyası" adlanacaq yeni mülki missiyanın yerləşdirilməsi qərarını alqışladığını bildirib. XİN təsdiqləyib ki, missiyanın məqsədi Ermənistanın demokratik dayanıqlılığının gücləndirilməsini dəstəkləmək, dezinformasiya, kiberhücumlar və qanunsuz maliyyə axınları ilə mübarizə səyləri də daxil olmaqla hibrid təhdidləri aradan qaldırmaqdır.

Bu çərçivədə gündəlik 10 milyon izləyicisi ilə Fransanın ən çox izlənilən xəbər kanalı olan BFM TV-nin mayın 5-də yaydığı məlumat diqqəti cəlb edir. Telekanalın yayımladığı süjetdə bildirilib ki, Rusiya təbliğatı ilə "qidalanan" minlərlə məqalə və paylaşım süni intellekt tərəfindən yaradılmış saxta xəbər saytları, eləcə də koordinasiya olunmuş sosial şəbəkə hesabları vasitəsilə 8 dildə, 11 sosial platforma üzərindən yayılır. "Bu təbliğat maşını Ermənistanda seçkilərə 14 ay qalmış işə salınıb", – deyə süjetdə qeyd olunub.

Beləliklə, bir daha aydın görünür ki, Ermənistanda iyunun 7-də keçiriləcək parlament seçkiləri fonunda hibrid təhdidlər mövzusu artıq mücərrəd təhlükə kimi deyil, konkret və ölçülə bilən risk kimi gündəmdədir. K.Kallasın açıqlamaları da bu reallığın Avropa səviyyəsində qəbul edildiyini göstərir. Məsələ yalnız siyasi rəqabətin kəskinləşməsi deyil, informasiya mühitinin sistemli şəkildə təsir altına salınmasıdır. Son illərdə müxtəlif ölkələrdə müşahidə olunan proseslər göstərir ki, seçkilərə müdaxilə artıq klassik üsullarla məhdudlaşmır. Sosial şəbəkələr, saxta xəbər saytları, koordinasiya olunmuş hesablar və süni intellekt vasitəsilə hazırlanan məzmun seçici davranışına təsir etməyin əsas alətlərinə çevrilib. Ermənistan da bu tendensiyadan kənarda deyil. Əksinə, regionun geosiyasi həssaslığı bu cür müdaxilələr üçün əlverişli zəmin yaradır.

Aİ rəsmisinin qeyd olunan fikirləri də seçki ərəfəsində vəziyyətin sadə olmadığını göstərir. O, dezinformasiya və xarici təsirin real risk olduğunu açıq şəkildə deyir. Bu, problemin artıq nəzəri deyil, praktik olduğunu göstərir. Onun qeyd etdiyi koordinasiya məsələsi isə prosesə ciddi yanaşıldığını göstərir. Aİ ilə əməkdaşlığın sürətlənməsi bu sahənin prioritet olduğunu göstərir. Ümumilikdə, bu yanaşma seçkiləri qorumaq üçün qabaqlayıcı addım kimi görünür.

BFM TV-nin yaydığı məlumat isə hibrid təhdidlərin texniki tərəfini açıq şəkildə göstərir. Minlərlə materialın müxtəlif platformalarda, fərqli dillərdə dövriyyəyə buraxılması təsadüfi fəaliyyət deyil. Bu, planlaşdırılmış və uzunmüddətli təsir strategiyasına bənzəyir. Seçkilərə 14 ay qalmış belə bir kampaniyanın işə salınması isə məqsədin yalnız informasiya yaymaq deyil, ictimai rəyə tədricən nüfuz etmək olduğunu göstərir. Bu cür yanaşma seçicinin qərarvermə prosesinə birbaşa deyil, dolayı təsir etməyə hesablanır.

Ermənistan rəsmilərinin bir ilə yaxındır bu mövzunu qaldırması da təsadüfi deyil. Daxili siyasi mübarizənin xarici təsirlərlə çarpazlaşması riski realdır. Xüsusilə rusiyapərəst qüvvələrin informasiya dəstəyi ilə gücləndirilməsi ehtimalı İrəvanın narahatlığını artırır. Burada söhbət təkcə təbliğatdan getmir, həm də dezinformasiya, manipulyasiya və etimadın sarsıdılması kimi daha mürəkkəb təsir formalarından gedir.

Aİ-nin bu prosesə reaksiya verməsi də məntiqli görünür. Ermənistana mülki missiyanın göndərilməsi qərarı formal addım deyil, konkret ehtiyacdan doğur. Bu missiyanın əsas funksiyası texniki məsləhətlər verməklə yanaşı, dövlət qurumlarının bu cür təhdidlərə qarşı çevik reaksiyavermə qabiliyyətini artırmaqdır. Kiberhücumlar, maliyyə axınlarının izlənməsi və informasiya təhlükəsizliyi kimi sahələr artıq seçki təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilib.

Burada diqqətçəkən məqamlardan biri də odur ki, hibrid təhdidlər yalnız bir istiqamətdən gələn risk kimi qiymətləndirilməməlidir. İnformasiya mühitinin zəif olduğu, media savadlılığının kifayət qədər inkişaf etmədiyi cəmiyyətlər bu cür təsirlərə daha açıq olur. Ermənistan cəmiyyəti üçün də əsas çağırışlardan biri məhz budur. Xarici təsir yalnız o zaman effektiv olur ki, daxildə onun yayılması üçün uyğun şərait mövcud olsun. Bu baxımdan həm Aİ-nin, həm də Ermənistan hakimiyyətinin narahatlığı şişirdilmiş görünmür. Əksinə, son illərin təcrübəsi göstərir ki, bu cür təhlükələri vaxtında qiymətləndirməyən ölkələr daha ciddi nəticələrlə üzləşir. Seçkilərin legitimliyi isə təkcə səsvermə günü ilə müəyyən olunmur, ona qədərki informasiya mühiti də bu prosesin ayrılmaz hissəsidir.

Nəticə etibarilə, Ermənistan ətrafında formalaşan vəziyyət daha geniş bir tendensiyanın tərkib hissəsidir. Hibrid təsir alətləri artıq beynəlxalq siyasətin daimi elementinə çevrilib. Bu reallıq fonunda qabaqlayıcı tədbirlərin görülməsi və risklərin açıq şəkildə etiraf edilməsi daha rasional yanaşma kimi görünür. Ermənistan nümunəsi isə göstərir ki, bu məsələdə gecikmək üçün artıq yer qalmayıb.

***Səxavət HƏMİD***
***XQ***

# "Böyük güclər"in Cənubi Qafqaz rəqabətində yeni hədəf

## *Yaxud Avropa İttifaqının "Tramp marşrutu"na qoşulmaq cəhdi*



**"Avropa Siyasi Birliyi"nin İrəvan sammitində səslənən maraqlı fikirlərdən biri də Brüsselin TRIPP layihəsinin reallaşmasında maraqlı olduğu barədə tezis oldu. Bu tezis xüsusilə ASB-nin VIII zirvə görüşünün ardınca keçirilən Aİ–Ermənistan sammitində daha ucadan eşidildi. Bəri başdan onu qeyd edək ki, "qoca qitə"dən eşidilən bu çağırışlar dünyanın "böyük güclər"i arasında Cənubi Qafqazda nüfuz savaşının getdikcə böyüməsinin əyani nümayişi sayıla bilər.**

Avropa İttifaqı bir müddət vasitəçi kimi Bakı ilə İrəvan arasında sülhə nail olmaq üçün çalışırdı, amma ötən il bu proses ABŞ-ın nəzarəti altına keçdi və avqustun 8-də uğurla başa çatdı. Vaşinqtonda prezident Donald Trampın şahidliyi və iştirakı ilə iki ölkə arasında sülh sazişləri paraflandı, Vaşinqton İrəvanla "Tramp marşrutu" (TRIPP) üzrə də razılaşma əldə etdi. Hazırda bəzi ekspertlər hesab edirlər ki, layihənin icrası İranla müharibə səbəbindən gecikə bilər. Bununla belə, ABŞ administrasiyası hesab edir ki, bu məsələ Vaşinqtonun Cənubi Qafqazda əsas prioritetlərindən biri olaraq qalır. Dövlət Departamenti bununla bağlı konkret mövqeyini açıqladı: TRIPP ABŞ-ın bölgədə strateji layihəsidir və bu yöndə danışıqlar, eyni vaxtda, həm Bakı, həm də İrəvanla davam etdirilir.

Bəli, "Tramp marşrutu" ABŞ-ın Cənubi Qafqazda əsas prioritetlərindən biridir. Prosesdən kənarda qalan Rusiyanın Ermənistana "Tramp marşrutu"nda iştirak etmək üçün təzyiqlər etdiyi də məlumdur. Lakin İrəvanla Vaşinqton arasında bu layihə üzrə razılaşma, faktiki olaraq, üçüncü tərəfin iştirakını istisna edir. İmzalanmış müqaviləyə görə, üçüncü tərəfin layihədə iştirakı hər iki ölkənin razılığını tələb edir.

Nəzərə alsaq ki, "Tramp marşrutu" Asiyadan Avropaya Rusiyadan yan keçməklə alternativ nəqliyyat dəhlizinin inkişafı konsepsiyasının tərkib hissəsidir, Moskvanın layihədə iştirakı, sadəcə olaraq, qeyri-real görünür. Bununla yanaşı, Avropa İttifaqı da "Tramp marşrutu"nda iştirak payına yiyələnmək istəyini açıq şəkildə irəli sürüb. "EU Observer" yazır ki, Brüssel layihənin hazırlanmasında iştirak etməkdə maraqlıdır.

ABŞ-ın ötən il Ermənistan və Azərbaycan arasında sülh danışıqlarında fəal iştirakından sonra Avropa İttifaqı TRIPP regional və transmilli nəqliyyat dəhlizi layihəsinin reallaşmasına və inkişafına qoşulmağa çalışır. Brüsselin fikrincə, bu coğrafi marşrut Ermənistana Rusiyadan yan keçməklə, eyni zamanda, Ermənistanı Avrasiya logistika zəncirlərinə daha dərindən inteqrasiya etmək imkanı verən alternativ ticarət yoluna çevrilə bilər", – nəşr belə yazır.

*

Bu məsələ dünən İrəvanda keçirilən Aİ–Ermənistan sammitinin gündəliyində olmasa da, dolayısı ilə mövzuya toxunuldu. Avropa ilə ABŞ arasında münasibətlərin heç də ağ rəngdə olmadığı indiki şəraitdə Vaşinqtonun Aİ-nin bu təşəbbüsə necə yanaşdığı müəmmalı olaraq qalmaqdadır.

ASB-nin İrəvan sammitinə təşrif buyuran avropalı yüksək nümayəndələrdən biri toplantıdan əvvəl erməni mediasına bunları bildirib: "Standart sxemə əsasən, Çindən Avropaya malların daşınması təxminən 42 gün çəkir. Orta Dəhliz effektiv işləsə, bu müddət təxminən 12-13 günə qədər endirilə bilər".

"EU Observer"in yazdığına görə, bir sıra ekspertlər Avropa İttifaqını strateji liderliyin olmamasına və maliyyə qərarlarının qəbulunda ləngliyinə görə tənqid edirlər. Onlar hesab edirlər ki, Aİ-nin indiki durumu regionda ona qarşı inamsızlıq yaradır və bu amil ABŞ-a Cənubi Qafqazda öz təsirini daha fəal şəkildə gücləndirməyə imkan verir.

"Bloomberg", həmçinin İrəvanda keçirilən ikitərəfli sammit kontekstində strateji əhəmiyyətli Cənubi Qafqazda fövqəlgüclər arasında artan rəqabətdən yazır. Agentlik qeyd edir ki, Ermənistan və Azərbaycan arasında uzunmüddətli münaqişənin sona çatması Avropa və Asiyanı birləşdirən dar boğazdan keçən enerji və ticarət yolları üzərində hökmranlıq uğrunda rəqabəti qızışdırır: "Yaxın Şərq və Ukraynadakı müharibələr Qafqazın əhəmiyyətini artırır, çünki hazırda Şimala və Cənuba gedən marşrutlar münaqişələr, sanksiyalar və geosiyasi gərginliklə məhdudlaşır. Uzun müddət regionda dominantlıq edən Rusiya Birləşmiş Ştatların Ermənistanda yeni nəqliyyat və enerji dəhlizinin yaradılmasına qarşıdır, eləcə də Türkiyə, Avropa İttifaqı və Çinin artan rəqabəti ilə üzləşir".

Londonda yerləşən "PRISM Strategic Intelligence" şirkətinin əməkdaşı Keyt Mallinson bəyan edib ki, ABŞ-ın Cənubi Qafqaza hazırkı marağı misilsizdir və müəyyən dərəcədə Kremlin Azərbaycan və Ermənistandakı maraqlarını həmişəlik sarsıdıb: "Vaşinqtonun yanaşması Cənubi Qafqaz ölkələrinin iqtisadi inteqrasiyasını təşviq etmək və bu əlaqələri Türkiyə və Mərkəzi Asiyanı əhatə edəcək şəkildə genişləndirməkdir".

Qərb mediası, eyni zamanda, Moskvanın Cənubi Qafqaz və Mərkəzi Asiyada təsirinin toxunulmaz olaraq qaldığını, lakin Vaşinqtonun alternativ tərəfdaşlar axtarmaq üçün stimullar yaratdığını da qeyd edir. Avropa İttifaqının Mərkəzi Asiya və Cənubi Qafqazda öz rolunu gücləndirməyə çalışdığını vurğulayan ekspertlər İrəvan və Brüssel arasında hazırkı yüksək səviyyəli danışıqların əsasının ötən ilin aprelində Səmərqənddə keçirilən Aİ–Mərkəzi Asiya sammitindən qoyulduğunu irəli sürürlər.

Mərkəzi ofisi Londonda yerləşən "RUSI" analitik mərkəzinin Rusiya və Avrasiya təhlükəsizliyi üzrə baş elmi işçisi Natia Seskuria hesab edir ki, Ukraynadakı müharibə resurslarını tükəndirdiyi üçün Moskvanın Qafqazdakı hökmranlığı azalsa da, "Trampın bu bölgədə tam qalib gəldiyini, Putinin isə qəti şəkildə uduzduğunu söyləmək, yəqin ki, hələ tezdir".

Aydın məsələdir ki, Rusiyanın Cənubi Qafqazda hələ də təsir rıçaqları qalmaqdadır və onlar tam aradan qalxmayıb. Eyni zamanda, ekspertlərin fikrincə, ABŞ prezidenti həm Mərkəzi Asiya, həm də Cənubi Qafqaz ölkələri üçün alternativ iqtisadi tərəfdaşlar axtarmaq üçün stimul yaradıb. Bu proses xüsusilə Rusiyanın getdikcə daha az etibarlı, daha az hərbi qüdrətli və iqtisadi cəhətdən qeyri-sabit tərəfdaş kimi qəbul edildiyi bir vaxtda baş verir.

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Hazırda Cənubi Qafqazda çox maraqlı proseslər gedir. Avropa İtifaqının TRIPP layihəsinə bu qədər maraq göstərməyi bəlkə də gözlənilən idi. Burada Aİ bir tərəfdən özünün iqtisadi üstünlüyünü nümayiş etdirmək istəyir. Axı TRIPP marşrutu ilə yüklər Ermənistan ərazisindən Naxçıvana, sonra Türkiyəyə, oradan isə Avropa qitəsinə daşınacaq. Təbii ki, Avropa İttifaqı bu layihədən faydalanmaq barədə düşünür. Bu marşrutun yaradılmasında Aİ-nin iştirakını da istisna etmək olmaz. Hesab edirəm ki, Ermənistan bu plana etiraz etməyəcək. Amma bu təşəbbüsə ABŞ da "hə" deməlidir. Amma hazırkı durumda, yəni Yaxın Şərq hadisələri, İranla hərbi qarşıdurma fonunda Vaşinqtonun Avropanın bu planına birmənalı müsbət yanaşağını, razılığını verəcəyini düşünmürəm. Çünki ABŞ prezidenti İranla savaşda avropalı tərəfdaşlarından heç bir köməyin edilmədiyini dəfələrlə bəyan edib. Ola bilsin ki, müəyyən müddətdən sonra Ağ Evin mövqeyində yumşalma müşahidə olunsun. Fəqət bu gün vəziyyət qeyd etdiyimiz kimidir.

Əlbəttə, Avropa İttifaqının bölgəmizdə xüsusi maraqları var və bu istiqamətdə hansısa addımları atacağı istisna edilmir. Təbii ki, bu addımları, ilk növbədə, Ermənistanla razılaşdırmalıdır. Digər tərəfdən onu da müşahidə edirik ki, belə kritik dönəmdə Ermənistanı Rusiya amilindən sığortalamaq üçün əlindən gələni edir. Yəni İrəvanı Moskvanın bu ölkəyə mümkün müdaxiləsindən qorumağa çalışır. Bildiyimiz qədər Rusiya TRIPP layihəsinə qıcıqla yanaşır. Kremlin bəzi siyasiləri bununla bağlı Ermənistana mənfi mövqelərini çatdırmış, xəbərdarlıq xarakterli bəyanatlar vermişlər. Çox güman ki, bu narahatlığı Avropa İttifaqı da nəzərə alır.

*Replika*

# Antonio Koştanın azadlıq tezisi

**Tarixdən məlumdur ki, Şərqlə Qərb arasında ən böyük fikir ayrılığı fərdin və cəmiyyətlərin azadlıq düşüncəsi ilə bağlıdır. Avropalının düşüncəsinə görə, azadlıq ürəyin istədiyini edə bilməkdir. Bu fəlsəfə nəfsin tələb etdiyi hər şeyin yerinə yetirilməsini deyir.**

Yəni insan hər növ istək və tələbatını nə qədər çox yerinə yetirə bilirsə, o qədər azaddır. Fikrimizcə, bu fəlsəfənin ən böyük qüsuru azad düşüncənin "düşməni" olan insan xislətini nəzərə almamasıdır. Qərbin azadlıq anlayışı bu günə köklənir, ona görə ötəridir və gələcək vəd etmir. Şərqin azadlığı isə uzunömürlüdür, hətta sonsuzluğa qədərdir.



Cəmiyyətlər də fərdlər kimidir. İndi avropalı məmurlar erməni xalqının öz müqəddəratını seçmək azadlığını qorumağın vacibliyindən danışırlar. Bəli, vətəndaş seçki hüququndan tam sərbəst, hədə-qorxusuz, kənar şirnikləndirməyə məruz qalmadan, azad şəkildə istifadə etməli, iradəsini ortaya qoymalıdır. Və onun bu haqqını qorumağı üzvü olduğu cəmiyyətin yetkililəri deyil, kənardakılar vəd edirlərsə, deməli, ortada təmənna və umacaq var. Bizim kontekstdə söhbət bölgədə nüfuz davasından, bu yöndə güclərin mübarizəsindən və siyasi planlardan gedir.

***

Ermənistan KİV-i xəbər verir ki, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta İrəvanda keçirilən birinci Ermənistan-Avropa İttifaqı sammitində ermənilərin öz müqəddəratını təyinetmə hüququndan, azad və ədalətli seçki mühitinin formalaşdırılmasından və bu işlərdə Aİ-nin Hayastana yaxından dəstək olacaqlarından danışıb. A.Koşta "Avropa Siyasi Birliyi"nin İrəvanda keçirilən VIII toplantısını tarixi hadisə adlandırıb, Ermənistan-Aİ sammitini isə günün ikinci tarixi hadisəsi kimi dəyərləndirib. Əslində, bu mesajlar Aİ-nin Ermənistanla bundan sonra münasibətləri hansı narrativlərə söykənərək qurmaq istədiyindən xəbər verir. Aİ Şurasının rəhbəri bildirib ki, Ermənistan yeni sülh və demokratiya erasına qədəm qoyub və bu, inkişafa, o cümlədən ikitərəfli münasibətlərin perspektivi üçün olduqca əlverişli mühit yaradır.

Bu siyasi ritorika aydırdır. Tam aydın olmayan Aİ–Ermənistan əməkdaşlığının son 6 ayda yeni keyfiyyət fazasına keçdiyini vurğulayan Koştanın çıxışında səsləndirdiyi bu məqamdır: "Biz təhlükəsizlik və hibrid təhdidlərlə mübarizə üçün Avropanın alətlər dəsti çərçivəsində İrəvanla yaxından işləyirik". Avropa Şurasının rəhbəri Aİ-nin Demokratiya üzrə Fəaliyyət Missiyasının bu məqsəd üçün yaradıldığını və uzun müddət Ermənistanda fəaliyyət göstərəcəyini qeyd edib. Çıxışında bunun səbəbini belə izah edib: "Erməni xalqının öz müqəddəratını seçmək azadlığını qorumaq bizim üçün olduqca vacibdir. Siz bizə arxalana bilərsiniz və biz bu yolu birlikdə qət edəcək və sonra ortaq yolu paylaşacağıq. O, həmçinin onu da xatırladıb ki, Ermənistan Avropadan Xəzər dənizinə və Mərkəzi Asiyaya gedən marşrutun "təməl daşı"dır. Bax, burada A.Koşta boynunun vəzifəsi olmayan məsələlərə dil uzadıb və erməni elektoratını mövcud iqtidara meyilləndirməyin yanlış üsulunu tapıb. Çünki onun bu tezisini nə fəlsəfə, nə də coğrafiya qəbul edir...

Avropa İttifaqı Şurasının Prezidenti bilməzlikdən, yaxud bilərəkdən hörgü daşı ilə təməl daşını qarışdırıb. Həm Şimal–Cənub, həm Orta Dəhliz, həm də Transxəzər Avroatlantik marşrutlar Azərbaycandan keçirsə, bu yolların təməl daşları Ermənistanda necə döşənə bilər? Axı, ikinci dayanacaq-ötürücü məntəqə sayılan Ermənistana bu logistik layihələrin təməlinin deyil, olsa-olsa, divarının hörgü daşı olmaq imkanı verilə bilər. O da Bakının siyasi iradəsindən və İrəvanın özünü necə aparmasından asılı olan məsələdir. Deyəsən, Paşinyan kimi, Koşta da arzuladığını reallıq kimi qələmə verməkdən zövq alır.

Əgər avropalı məmur erməni cəmiyyətinin bir seçkidə iradəsini sərbəst ifadə etməsi ilə azadlığına qovuşacağına inanırsa, bunda da kökündən yanılır. İyunun 7-də seçki qutusundan kimin adının çıxacağından asılı olmayaraq, erməni cəmiyyəti reallığı qəbul etməli və azadlığın kənardan gəlməyəcəyinə, onu məhz özünün qazanacağı təqdirdə, uzunömürlü olacağına inanmalıdır.

***İ.HƏSƏNQALA***
***XQ***

# Heydər Əliyev: liderliyin konseptual kodları



## I MƏQALƏ

### Çətin zamanların şəxsiyyətləri

Ulu öndər öyrədirdi ki, "tarix çətin imtahançıdır"! İnsanları, cəmiyyətləri, ölkələri və dövlətləri daim sınağa çəkir. Dünyada hər bir xalq üçün "böhranlı Zaman qövsü" yaranır. Onun dolanbaclarından salamat keçən qövmlərin "çətin sınaqdan keçdiyini" deyirlər.

Maraqlıdır, sinergetikada belə bir teorem vardır: sosial sistemlərdə (bütövlükdə cəmiyyətdə) dərin böhranlar meydana gələndə hər şey milyonlarla fərdlərin sırasında olan məhdud sayda fəal aparıcı şəxslərin davranışlarından asılı olur. Bu zaman "tələsən aparıcı şəxslər yanırlar", əvəzində təmkinli, səbirli, lakin aktiv olan şəxsiyyətlər cəmiyyətin taleyini üzərilərinə götürməkdən çəkinmirlər. Onlara şərti olaraq "idarəedici və nizamlayıcı liderlər" demək olar!

Lakin burada Konfutsi mənasında bir "qızıl qayda" vardır: təmkinli və səbirli "idarəedici və nizamlayıcı liderlər"in heç də hamısı davamlı uğurlu ola bilmirlər. Deməli, nadir şəxsiyyətlərə xas olan elə bir keyfiyyət mövcuddur ki, onların əsl anlamda "çətin Zamanın şəxsiyyətləri" olmalarına şans yaradır.

Azərbaycan kontekstində XX əsrin son onilliyi və XXI əsrin başlanğıcı Zamanının şərtləri daxilində çətin məqamların şəxsiyyətini formalaşdıran həmin keyfiyyət hansı ola bilər? Bu suala kimsə birmənalı və tam məzmunda cavab verə bilməz. Çünki çətin Zamanın şəxsiyyətləri zamanın özü qədər dinamik olduğu kimi, həm də mürəkkəb və ierarxik keyfiyyətlərin kompleksinə malik olmalıdırlar. Bu mənada, həmin şəxsiyyətlər həm dahi, həm də "Zamanı özündə yarada bilən" insanlardırlar. Onlar qövmün yaşamına aid olan Zaman ritminin nəbzini uyğun dalğaya kökləyə bilirlər! Heydər Əliyev bu cür şəxsiyyətlərin bariz nümunəsidir!

### Liderliyin "qızıl qaydası"

Hələ bir neçə əsr öncə Konfutsi yazmışdır ki, uğurlu insan nə tələsəndir, nə də ləngiyən. Lao Szı daha obrazlı və dinamik formuldan bəhs etmişdir. Daosizmin banisi yazırmışdır: hər bir insan üçün Göylər "şans pəncərəsi açır" – ondan keçməyi bacaran insan uğurludur!

Konfutsi və Lao Szı dərin fəlsəfi tezislər ifadə etmişlər. Ancaq onların ayrılıqda natamam konseptual mənzərə yaratdığını duymaq olar. Bəs həmin tezislərin liderlik kontekstində vəhdəti hansı qənaəti yarada bilər? Bu suala cavab üçün hər iki dahi filosofun ana tezislərinin ortaq semantik sahəsinə nəzər salaq.

Lao Szı insan mövcudluğunun uğur aspektində ümumi "qaydası"nı, "yolu"nu (xatırladaq ki, "Dao" "Böyük Yol" deməkdir) ifadə etmişdir – uğur məqamları yaranır, lakin çox qısa müddət üçün, sonra hər şey dəyişə bilər! Konfutsi isə ümumi fəaliyyətin abstrakt prinsipini təklif edir – nə tələs, nə də ləngi! Praktiki aspektdə əsas çətinlik də bununla əlaqəlidir. Buna baxmayaraq, liderlik kontekstində iki addımda ümumi mənzərəyə müəyyən aydınlıq gətirə bilərik.

Birincisi, Konfutsi tezisi göstərir ki, "qızıl qayda" əslində hər bir prinsipial situasiyada (taleyüklü durumun yaranması baxımından) fərd (və həm də toplum) "şans pəncərəsi"nə yana biləcək qədər "yaxın" olmamalıdır və həm də ləngiyə biləcək qədər "uzaq" durmamalıdır.

İkincisi, "ifrat yaxınlıq" və "ifrat uzaqlıq" kriteriyasını (və ya əsas şərtlərini) hər zaman-məkan vəhdətində aparıcı rolunu oynayan şəxs müəyyənləşdirir.

Buradan liderlik baxımından üçüncü mühüm prinsip alınır. Hər bir lider üçün konkret zaman-məkan vəhdətinin (kontinuumun) prinsipial əhəmiyyəti vardır. Yəni Lao Szı və Konfutsi tezislərinin ümumabstrakt və ümumbəşəri səviyyədə məzmununun hər bir nümunə üçün proyeksiyası zəruridir. Əks halda, hər iki filosofun fəlsəfi baxımdan dərin olan nəzəri prinsipləri abstraktlıq müstəvisində qalar. Buna görə də hər bir nümunə üçün liderin zaman-məkanda fəaliyyəti onun "qızıl qaydası"nın kriteriyalarını müəyyən edir.

Bu ümumfəlsəfi bazanın işığında ulu öndər Heydər Əliyevin liderliyinin konseptual kodlarını təhlil etmək, bizcə, faydalıdır.

### Heydər Əliyev liderliyinin tarixi önəmi

Bu "qızıl qayda"nın təməlində üç sütun faktorun dayandığını düşünürük.

Birincisi, liderin zəkası. Heydər Əliyevin mənsub olduğu qövmün təşəkkülünü (mövcudolma və yaşam fəlsəfəsi, onun reallaşma üsullarını) və ayrıca onun dövlətçilik tarixini dərindən mənimsəmişdir. Hətta Ümummilli lider o dərəcədə yüksək və dərin əxz etmişdi ki, çox mürəkkəb məsələləri belə dahi sadəliyi və dəqiqliyi ilə təqdim edə bilirdi. Dahilik həmişə sadəlik və aydın ifadə qabiliyyəti ilə xarakterizə olunur. Buna görə də əksəriyyət Ulu öndərin fikirlərinin dərinliklərində mövcud olan semantikanı tam dərk edə bilməyə bilər. Bir nümunədə fikrimizi izah etməyə çalışaq.

Heydər Əliyev öyrədirdi: "Azərbaycan xalqı öz köklərinə görə zehni inkişaf etmiş xalqdır. Biliyə, inkişafa həmişə diqqət vermiş və bu yol ilə getmiş xalqdır"! Bu fikir Azərbaycan xalqının tarixində elm və təhsilin adi maariflləndirici rol oynayan dəyərlər deyil, ümumiyyətlə, həyat tərzini, sosial-mədəni kimliyini və kollektiv təşəkkülün baza dəyərlərini müəyyən edən mental hadisə olduğunu ifadə edir.

Bu keyfiyyət dünyanın hər bir xalqına, təəssüf ki, aid deyildir. Tarixdə öz vəhşiliyi, dağıdıcılığı ilə seçilən və zor hesabına təşəkkül etmək təşəbbüsündə bulunan etnik qruplara rast gəlinmişdir. Onların tarixi yolu başqadır. Elmə, mədəniyyətə, təhsilə üstünlük verən toplumlarda isə fərqli təkamül dinamikası və mənzərəsi yaranır.

Heydər Əliyev öyrədir ki, Azərbaycan xalqı elmə söykənən təşəkkül yolu seçmişdir və bu da toplumu fəzilətli, nəcib etmişdir. Onun üçün mənəvi-əxlaqi dəyərlər çox əhəmiyyətlidir. Buna görədir ki, Ulu öndər tez-tez Azərbaycan xalqının ədalətliliyindən və humanizmindən də bəhs edirdi.

Dinimizdə belə bir deyim var: "Nəcib insan güclüdür!" Diqqət edək; dinimiz üçün də fəzilət çox önəmlidir. O halda Heydər Əliyevin yuxarıdakı kəlamı Zamandan kənardır – o mənada ki, ümumiyyətlə, zamanından asılı olmayaraq azərbaycanlı mentaliteti üçün fəzilət, nəciblik üstünlük təşkil edir.

Heydər Əliyevin vurğuladığı həmin tezisdən çox vacib bir ümumi nəticə hasil edə bilərik. Həmin nəticə belədir: Azərbaycançılıq mənəvi və intellektual fəzilətliliyin vəhdətində tarixi məzmun almaqdadır! Mənəvi fəzilətliliyin ümumbəşəri anlamı qədimdən məlumdur. Öncə sarmunlarda, sonra isə qədim yunanlarda (məsələn, Platon fəlsəfəsində) onun dərin anlamı mövcud olmuşdur. Qədim yunanların dövlət ərkanında praktiki olaraq bu dəyər var olmuşdur. Məsələn, yunan sərkərdəsi İsgəndər Bərdəyə qoşun yeridəndə qarşısına müdrik Azərbaycan qadın diplomatı, hökmdarı Nüşabə çıxdı. Nüşabə fəziləti, konkret olaraq müdrikliyi ilə hərbi gücü qat-qat üstün olan İskəndəri cilovlaya bildi. İsgəndər də yunan dövlət ərkanına uyğun olaraq gözəllik, idarəetmə müdrikliyi və diplomatik məharət qarşısında geri çəkilməyi bacardı.

Digər tərəfdən, həmin situasiyanı Azərbaycan şairi, şeyxi Nizami təqdim etmişdir. Bu da Azərbaycan poetik təfəkkürünün həqiqət qatında fəzilətliliyin, onun parametrləri olan müdriklik (Platon anlamında), nəciblik (Həzrəti Əli anlamında) və məharətliliyin (Sara xatun nümunəsində) praktiki olaraq fundamental müəyyənedici rol oynadıqlarını göstərir.

Aydın olur ki, Heydər Əliyevin sadə, aydın və yığcam tezisləri daha dərin qatlarda özündə qövmün mental, emosional, ideoloji və zəkavi gücünü ehtiva edirlər! Özü də bunlar bizim anlamağa çalışdığımız məqamlardır (hər bir qavram məhduddur), gerçəkdə isə Ulu öndər çox dərindir!

İkincisi, liderin iradəsi. Müasir liderologi konsepsiyalarda liderin iradəsi faktoru ilk sırada yer alır. Çünki tarixin çətin sınaqları sübut edir ki, kəskin böhranlı dönəmlərdə qövmü liderin yüksək möhkəm iradəsi xilas edə bilər. Bu kontekstdə H.Kissincer lideri keçmişi gözəl bilmək əsasında bu günü düzgün təhlil etmək və gələcəyi proqnozlaşdırmaqla toplumu irəli apara bilən şəxsiyyət kimi xarakterizə etmişdir.

1993-cü ildə Heydər Əliyevin xalqın təkidini nəzərə alaraq çox çətin müstəqil dövlət quruculuğuna başlaması tarixin çətin sınağına dahi bir liderin yüksək iradə ilə qatıldığının nümunəsidir. O günlərdə vəziyyət o qədər mürəkkəb və ağır idi ki, bütövlükdə qövm siyasi abseintizmin (siyasi laqeydliyin, təcridin, "mənə aid deyil" psixoloji apatiyasının) astanasında dayanmışdı. Ümummilli lider məhz bu "psixoloji uçurumun qaşından" toplumu və onun dövlətini qaytara bildi!

E.Şevardnadze XX əsrin 90-cı illərinin sonlarında heyranlıqla etiraf etmişdi ki, Heydər Əliyev bütün güclü rəqibləri yenərək neft boru xəttinin Gürcüstandan keçməsini təmin etdi. Və sonra: "Heydər Əliyev olmasa idi, bu layihə baş tutmayacaqdı!".

Başqa bir nümunə Heydər Əliyevin 1994-cü il və 1995-ci il sui-qəsd cəhdləri zamanı yüksək iradə nümayiş etdirərək yenilməz mübarizə aparması və qətiyyən geri çəkilməməsi ilə bağlıdır. İndi bəzi dövlət rəhbərlərinin bunkerə sığınması bu məsələnin heç də asan olmadığını bir daha göstərir.

Üçüncüsü, liderin xoş niyyətdən qidalanan məqsədyönlülüyü. Liderin ümumilikdə strateji məqsədin kökündə xoş niyyətlilik varsa, bu, bəri başdan fəzilət deməkdir. Eyni zamanda, lider yenilməz dərəcədə məqsədyönlüdürsə, bu da onun mənəvi fəzilətliliyi ilə yanaşı intellektual fəzilətliliyinin vəhdəti və ya harmoniyası deməkdir. Bu iki vacib xüsusiyyəti intellektual fəzilətlilik birləşdirib onların münasibətlərinə konkret dinamika, zaman kontekstində isə ritm verə bilər.

Maraqlıdır ki, xüsusilə liderlərin emosional xoş niyyətliliyi ilə intellektual xoş niyyətliliyi arasında bağlantıların fəlsəfi və politoloji tədqiqi hələ aparılmamışdır. Yəni hansı anlamda deyə bilərik ki, siyasi liderin intellekti xoş niyyətlidir? Ümumiyyətlə, emosional ölçüsü olan "xoş niyyət" rasional-məntiqi ölçüyə söykənən intellektə necə proyeksiya edilə bilər?

İndi bir sıra fəlsəfi təlimlərdə mənəvi-əxlaqi fəzilətliliyi (əsasən Platon anlamında) intellektin fəzilətliliyinə proyeksiya cəhdləri mövcuddur. Məsələn, veritist fəlsəfədə, deyək ki, müdrikliyi intellektual fəzilət kimi elmi həqiqəti əvəz edə biləcək dəyər olaraq təqdim edirlər. Bu, onun idrakı mənzərəni xeyli mürəkkəbləşdirir, lakin həqiqəti müdrikliklə əvəzləmə cəhdi diqqəti çox çəkir. Eyni məntiqlə hansı anlamda mənəvi mərdliyi və ya comərdliyi intellektual fəzilət olaraq mənalandırmaq olar? Yaxud bir sıra tədqiqatlarda elmi anlamı olan "açıqlıq" anlayışını intellektə aid etmək cəhdlərinə rast gəlinir. Belə alınır ki, açıq, qeyri-xətti, müdrik və "mərd" (hansı anlamda?) intellekt xoş niyyətə söykənsə, fəzilətli ola bilər. Yəni "intellektual fəzilət" anlayışı konkret məzmun alar.

Bütün bu ümumfəlsəfi mühakimələrin Heydər Əliyevin liderlik fəlsəfəsinə ciddi aidiyyəti olduğunu sübut etməyə gərəkdir. Bunun üçün isə Ulu öndərin liderliyi üçün çox əhəmiyyətli və strateji anlamı olan bir dəyərin təhlilini aparmalıyıq. Həmin keyfiyyətdə azərbaycançılıq ideya, prinsip və konsepsiya kimi böyük aktuallıq kəsb edir.

Yeni baza tezisimiz belədir: Heydər Əliyev anlamında azərbaycançılıq mənəvi-əxlaqi və mədəni fəzilət olmaqla yanaşı, həm də intellektual fəzilətdir! Bu tezisin tədqiqini akademik İsa Həbibbəylinin vurğuladığı azərbaycançılığın 7 prinsipi işığında apara bilərik. Burada Ulu öndərin "Azərbaycan xalqı" və "Azərbaycan Vətən kimi" anlayışlarına azərbaycançılıq məfkurəsinin semantik sahəsi hüdudlarında verdiyi anlamlar baza rolunu oynayırlar.

Heydər Əliyev demişdir: "Hamımızın bir Vətəni var. Bu, Azərbaycandır!" və "Vətən birdir, hamı Vətən uğrunda çalışmalıdır!" (istinadlar akademik İ.Həbibbəylinin "Azərbaycançılıq ideologiyası konsepsiyası. //AMEA-nın "Xəbərlər" jurnalı (Humanitar elmlər seriyası). – Bakı, 2015, №3, s.3-6, məqaləsinə və "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. Bakı, "Elm", 2019, 448 s." monoqrafiyasınadır).

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ulu öndərin multikulturalizm və tolerantlıq dərsləri

**Dünən Azərbaycan Dillər Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda IX beynəlxalq elmi konfrans öz işinə başlayıb.**






Açılış mərasimində ali məktəbin rektoru, akademik Kamal Abdulla bildirib ki, beynəlxalq məclisdə müxtəlif xarici dövlətlərdən elm və təhsil nümayəndələri, alimlər, ziyalılar, mədəniyyət və ictimaiyyət nümayəndələri iştirak edirlər. Konfrans çərçivəsində "Heydər Əliyev və Türk dünyası: tarix və müasirlik", "Heydər Əliyev və Türk dünyası: mədəni irs", "Media və rəqəmsal məkanda mədəniyyətlərarası dialoq", "Heydər Əliyevin sülh və tolerantlıq siyasəti", "Cənubi Qafqazda əməkdaşlıq perspektivləri" adlı 5 bölmə iclası keçiriləcək.

Türkiyənin Dil və Sistem Fondunun sədri Burak Eke qeyd edib ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin adı tarixə həm də türk xalqlarının tarixini şərəfləndirən qüdrətli şəxsiyyət kimi daxil olub. Yassı Universitetinin professoru Lyudmila Bejenaru, DAAD-nin ADU-da nümayəndəsi Liza Brandt konfransın beynəlxalq əməkdaşlığın inkişafı baxımından önəmini vurğulayıblar.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və dövlətçilik fəaliyyəti milli maraqlara sədaqətin və güclü dövlətçilik ideyalarının bariz nümunəsidir. Ulu öndər cəmiyyətin bütün sahələrini əhatə edən strateji qərarlar qəbul edərək ölkənin iqtisadi gücünün artmasına və xalqın rifahının yüksəlməsinə şərait yaradıb.

Mərasimdə Milli Məclisin deputatları Sevinc Fətəliyeva, Arzu Nağıyev, ADU-nun Pakistan dili və mədəniyyət mərkəzinin müdiri Mahmud Athar, Polis Akademiyası ictimai elmlər kafedrasının rəisi Rəhim Məcnunov, Özbəkistan Dövlət Dünya Dilləri Universitetinin prorektoru Abdurəhim Nasirov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Azərbaycan Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Avropa Yəhudilərinin Bakı Dini İcmasının rəhbəri Aleksandr Şarovski, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu Aleksiy Smirnov, Azərbaycan Rus İcması sədrinin birinci müavini Anastasiya Lavrina çıxış ediblər.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən danışan çıxışçılar bildiriblər ki, onun siyasi və dövlətçilik fəaliyyəti tariximizin ən parlaq səhifələrindəndir.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.

***T.RÜSTƏMLİ***
***XQ***

# Ümummilli liderin quruculuq irsi canlı məktəbdir





**"Azərbaycan Hava Yolları" QSC-nin Milli Aviasiya Akademiyasında (MAA) ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Azərbaycanda nəqliyyatın aktual problemləri" mövzusunda XXVII elmi-texniki tələbə konfransı işə başlayıb.**

Konfrans Elm və Təhsil Nazirliyi və "Azərbaycan Hava Yolları" QSC-nin təşkilatçılığı ilə keçirilir. Tədbirdə MAA-nın tələbələri ilə yanaşı, ölkənin müxtəlif ali təhsil müəssisələrinin, eləcə də xarici ölkələrin ali məktəblərinin tələbələri iştirak edirlər. Konfrans çərçivəsində iştirakçılar əvvəlcə Akademiyanın tələbələri tərəfindən hazırlanmış innovativ layihələrin sərgisi ilə tanış olublar.

Mərasimi açan MAA-nın birinci prorektoru professor Ədalət Səmədov Akademiyanın rektoru, akademik Arif Paşayevin konfrans iştirakçılarına ünvanlanmış təbrik məktubunu oxuyub. Bildirilib ki, bu il konfransa 9 bölmə üzrə ümumilikdə 196 elmi məruzə təqdim olunub və bu da tələbələrin nəqliyyat, aerokosmik texnologiyalar, logistika, informasiya texnologiyaları və digər sahələr üzrə artan tədqiqat aktivliyini və innovativ yanaşmalarını əks etdirir.

Plenar iclas çərçivəsində Rusiya Elmlər Akademiyasının müxbir üzvləri, fizika-riyaziyyat elmləri doktorları Pavel Paxlov və Taqir Auşev müvafiq olaraq "Fizika: mikrodünyadan makrosistemlərə qədər" və "Fundamental elmin texnoloji tərəqqidə rolu" mövzularında məruzələr çıxış ediblər.

Plenar iclasda, həmçinin MAA-nın gənc tədqiqatçıları tərəfindən aerokosmik texnologiyalar və süni intellekt istiqamətlərində aktual mövzular üzrə məruzələr təqdim olunub. Bu çərçivədə pilotsuz uçuş aparatları üçün dəqiq yükçatdırılma sistemləri, kosmik əməliyyatlarda süni intellektin tətbiqi, eləcə də mühərrik texnologiyaları və robototexnika sahəsində innovativ yanaşmalar müzakirə edilib.

Konfrans işini mayın 6-da bölmə iclasları ilə davam etdirəcək və tələbələrin elmi-tədqiqat nəticələrinin müzakirəsi, eləcə də yeni əməkdaşlıq imkanlarının formalaşdırılması üçün platforma rolunu oynayacaq.

***XQ***

# Konstitusiya Məhkəməsi Palatasının iclası

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Bu barədə Konstitusiya Məhkəməsindən məlumat verilib.

Bildirilib ki, iclasda Konstitusiyanın 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət Məcəlləsinin 288.2-ci maddəsinin şərh edilməsinə dair Şəki Rayon Məhkəməsinin müraciətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Müraciətə mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun iyunun 1-nə təyin edilmiş iclasında baxılacaq.

***XQ***

# Qüdrətli şəxsiyyətin əbədiyyət ünvanı



**Ümummilli lider Heydər Əliyevin şəxsiyyətinə, onun siyasi fəaliyyətinin bütün tərəflərinə, zəngin idarəedicilik irsinə diqqətləri cəmləmək bizə daha fundamental işlər görməyə, daha konseptual məsələləri həyata keçirməyə bir növ vasitə olur. Hər şeydən əvvəl, bununla gənc nəsillərə "ulusu sevmək fənni"nin nümunəsini aşılayırıq və bu imkan bizə azərbaycançılıq amalının, vətən, millət sevgisinin bir liderin tərcümeyi-halında necə bütöv şəkildə ehtiva olunduğunun bütün çalarlarını duymağa imkan qazandırır.**

Ümumilikdə XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyevin irsi bu vaxta qədər də layiqincə öyrənilən predmet olub. Bunu meydanda olan çoxsaylı nümunələr sübut edir. Buna baxmayaraq, Ümummilli liderin kolossal zəhmət qoyduğu işlər dövlətçiliyin simasını müəyyən edən tarixi xidmət olaraq araşdırılmalıdır. Bu işin reallaşması prosesində Heydər Əliyev şəxsiyyətinin xarici ölkələrin maraqları kontekstində olduğunu da unutmamalıyıq. Nəzərə alsaq ki, Ümummilli lider bütün dünyada birmənalı qəbul edilmiş qüdrətli şəxsiyyətdir, o zaman məsuliyyət daha da artır. Heydər Əliyev obrazını dünya xalqlarının nəzər nöqtəsindən dəyərləndirmək maraqlı nəticələr verə bilər. M.Baxtinin dəqiq deyilmiş bir fikri var: "Özgə mədəniyyət yalnız başqa mədəniyyətin gözü ilə özünü dərindən göstərir". Bu həm də həmin mədəniyyəti yaratmış şəxslərə aidlənəcək fikirdir. Heydər Əliyevin siyasi fəaliyyətini tanış sistemlərlə bərabər, qeyri-tanış sistemlərlə görüşdürmək onun nəhəngliyini meydana qoymaq baxımından əlverişli olardı.

## Azərbaycançılıq təliminin təntənəsi

Azərbaycançılıq məfkurəsi ulu öndər Heydər Əliyevin taleyüklü məsələ kimi yanaşdığı mühüm ideoloji istiqamət olmuşdur. O, milli dövlətçilik düşüncəsini - əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla, əsrin sonlarına doğru - müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Xalqımızın milli həmrəyliyini və birliyini təmin etmək, milli-mədəni irsi və mənəvi-əxlaqi dəyərləri qoruyaraq zənginləşdirmək, ölkəmizdə yaşayan müxtəlif millətlərin və dinlərin nümayəndələrini öz ətrafında birləşdirmək, xarici ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinə və təşkilatlanmasına çalışmaq, ümummilli ideologiya kimi siyasi münasibətlərin fövqündə dayanmaq və s. kimi çoxyönlü fəaliyyəti ilə o, azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırmış, onun əsasında vətəndaş həmrəyliyi və ümumxalq birliyi yaratmağa nail olmuşdur.

Ümummilli lider hələ hakimiyyətinin birinci mərhələsində milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, kadrların milliləşdirilməsi, azərbaycançılıq ideologiyasının sistem halına salınması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirmişdir. 1990-cı illərdən sonra isə artıq praktik şəkildə bu ideologiyasının icrasına başlanıldı. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", – deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail oldu. Bu böyük şəxsiyyətin vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan azərbaycançılıq ideyasını irəli sürməsi, onu milli diasporun təşkilatlanması üçün ideoloji təmələ çevirməsidir.

1997-ci ildə Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxışında bu istiqamətdə əsas prinsipləri belə müəyyən etmişdir: "Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan". Dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, onları müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, bununla əlaqələri möhkəmləndirmək Heydər Əliyevin diaspor ilə sistemli çalışmalarının nəticəsindən doğan müsbət hallar idi. Onun təşəbbüsü ilə 2001-ci ilin 9-10 noyabr tarixlərində Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir. Milli həmrəyliyimizin nümayişinin ən yaddaqalan tədbirlərindən olan bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Ümumilikdə bu qurultay dövlətimizə nə verdi? Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, müxtəlif ölkələrdə dilimizin, tariximizin, mədəniyyətimizin yüksək səviyyədə təbliği, Ermənistanın təcavüzkarlıq siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əks-hücumun təşkili məsələləri qurultayın qarşıya qoyduğu başlıca vəzifələr olmuşdur. Həmin qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuşdur. Ümummilli lider Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə "Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzalamışdır. Dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoyan bu komitə qısa müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq olmuşdur.

## Dövlətçilik məfkurəsinin intibahı

Heydər Əliyevin mədəniyyət, ədəbiyyatla bağlı gördüyü işlərin miqyası heç bir ölçüyə sığmır. Ulu öndərin ədəbiyyat, sənətlə bağlı elədiyi çıxışlar mükəmməlliyi ilə seçilir, şeirdən danışanda poeziyanın, nəsrdən danışanda prozanın dərin bilicisi təəssüratı doğururdu. Bu da onun ədəbiyyata sevgisindən, mütaliəsiz bir gün də keçirmədiyindən qaynaqlanan amildir.

Milli düşüncənin intibahı, milli ruhu diri saxlamaq meyli onun tərcümeyi-halının ən işıqlı tərəfini təşkil edir. Bu kontekstdə onun obrazını necə xarakterizə etmək olar? Həm azərbaycançılıq ruhunu bütün siyasi-mənəvi aşamalardan bütöv və zədəsiz çıxaran böyük azərbaycanlı, həm də bütün dünya mədəniyyət və dəyərlərinə tolerant və multikultural aspektdən yanaşmağı bacaran dünya insanı! Heydər Əliyev üçün hər zaman əsas amal milli birlik, milli vəhdət olmuşdur. Onun azərbaycançılıq təliminin ana yapısında dayanan başlıca məqam elə bundan qaynaqlanırdı. İqtisadi coğrafiyanı böyük quruculuq işləriylə, mənəvi coğrafiyanı isə milli-mənəvi dəyərlərin Azərbaycana qaytarılmasıyla gerçəkləşdirən Heydər Əliyevin atdığı bütün addımlar milli məfkurənin gəlişməsinə imkan yaratmaq məqsədi güdürdü. Heydər Əliyev bu məqsədə doğru sovet hakimiyyətinin ən kəskin dövrlərində yüksək tribunada təmsil olunarkən irəliləmiş, yüksək kürsülərdən Azərbaycanın sözünü deməyə cəsarət və hünər göstərmişdir.

Azərbaycançılıq ideologiyasının formalaşması prosesində ulu öndər Heydər Əliyevin istinad etdiyi ünvan daim klassik irs və milli-mənəvi dəyərlər olmuşdur. Məsələn, Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalayırdı və qeyd edirdi ki, əgər indi biz "Kitabı-Dədə Qorqud" dastanının 1300 illiyini qeyd ediriksə və bunu bütün dünyaya bəyan ediriksə, demək, bizim bədii sözümüzün 1300 illik tarixi göz qabağındadır. Yaxud Nizami Gəncəvinin 840 illiyinin keçirilməsinin zəminində öz dəyərlərini tanımaq, onu layiqincə dünyada təbliğ etmək meyli olmasaydı deyərdimi ki, biz Nizami ilə bəşəriyyəti qovuşdurmağa tələsirik?!

Eləcə də böyük şair Füzulinin yubileyinin həm Azərbaycanda, həm bütün türk-islam aləmində, həm də Rusiya və Avropada böyük təntənə ilə keçirilməsinə rəvac verirdisə, bunu ilk növbədə, XX əsrdə parçalanmış Türk dünyasını birləşdirmək, yaxınlaşdırmaq üçün edirdi. 1982-ci ildə Cavidin nəşini Sibirdən Azərbaycana qaytarmaqla türklük ruhunu, turan əxlaqını millətin özünə qaytarırdı. Eyni ildə Şuşada Vaqif məqbərəsini ucaltmaq onun üçün Qarabağ xanlığının timsalında Azərbaycan dövlətçiliyinin rəmzi, Vaqif poeziya günləri Azərbaycan dilinin əbədi təntənəsinin rəmzi idi. Yaxud Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi ilə bağlı 1997-ci ildə imzaladığı tarixi sərəncamla həmişə amalına çevirdiyi bütöv Azərbaycan idealının gerçəkləşməsinə doğru növbəti əhəmiyyətli addımlardan birini həyata keçirirdi. Hər bir addımında ölçülü-biçili, gələcəyə hədəflənmiş siyasət! Düşünülmüş idimi? Birmənalı şəkildə! Heydər Əliyev xalqın milli qürurunu ölməyə, yadlaşmağa, yaddaşsızlaşmağa qoymurdu. Əks təqdirdə, bu xalqın 1990-cı illərdə milli müstəqilliyini yenidən qazanması mümkünsüz olardı.

Ulu öndərin 1993-cü ildən sonrakı qayıdış mərhələsi də asan dövrə təsadüf etmədi. Amma hər cür hərc-mərclik, mənəvi-milli deqradasiya, siyasi-hərbi kataklizm, sosial böhran şəraitində belə onun fəaliyyətində müasir və klassik sənətkarlarımızın taleyinə həssas münasibət davamını tapdı. Həmin çətin dövrdə Heydər Əliyevin mətbuata verdiyi bütün müsahibələrdə mənəvi məsələ, milli düşüncəyə xidmət yenə də ilk unudulmaz sıralarda qərar tutur. Böyük siyasətçi dəfələrlə vurğulayırdı ki, "respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik".

## Multikultural dəyərlərə sədaqət

Heydər Əliyevin dövlətçilik siyasətində multikulturalizm prioritet yerlərdən birini tuturdu. Onun bu barədə çox yayılmış bir fikri var. Qeyd edir ki, "Azərbaycanın vətəndaşları dini, irqi, siyasi, dil mənsubiyyətindən asılı olmayaraq, hamısı eyni hüquqa malikdir və onların hüquqları Azərbaycan tərəfindən qorunur və mühafizə olunur. Siz əmin ola bilərsiniz ki, biz bu məqsədlərimizə, bu prinsiplərimizə daim sadiq olacağıq və gələcəkdə də Azərbaycan vətəndaşlarının dini mənsubiyyəti, yaxud dil mənsubiyyəti, siyasi mənsubiyyətindən asılı olmayaraq, bir-birilə münaqişəyə girməsinə yol verməyəcəyik".

Heydər Əliyev cəmiyyətdə yaşayan hər xalqın etnik-mədəni dəyərlərinə böyük önəm verirdi, bildirirdi ki, dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Akademik Kamal Abdulla "Müstəqillik illərində multikulturalizm və tolerantlıq" kitabında bir məqamı doğru qeyd edir ki, ümummilli lider Heydər Əliyev öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış Azərbaycanın çoxmədəniyyətlilik, yəni multikultural ənənəsini bərpa edərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı".

Əslində bu gün ölkə başçısı, cənab İlham Əliyevin bütün dünyada nümunə sayıla biləcək multikulturalizm siyasətinin kökündə Heydər Əliyevin müəyyənləşdirdiyi mədəniyyət siyasəti dayanır. Bugünkü mənzərə həmin ali məqamı, Azərbaycan multikulturalizminin Heydər Əliyev tərəfindən işlənmiş ideya əsaslarını yüksək səviyyədə idrak etməyə imkan verir. Diqqət edək. "İslam Həmrəyliyi ili", "Multikulturalizm ili" və bunların ardınca gələn müxtəlif tədbirlər, ideoloji müşavirələr, multikultural ideyaların intişar arenasına çevrilən Azərbaycanın sivil, modern dünyada yeri, nüfuzu, ünsiyyət məkanı kimi hər cür müzakirələrə açıq və hazır olması Heydər Əliyevin ideal və məramının yaşarılığının sübutudur. Vacib bir məqamı da qeyd edim ki, Heydər Əliyevin təşəbbüsü ilə multikulturalizmlə bağlı məsələlər hüquqi sənədlərdə, o cümlədən Konstitusiyada əks olunmuşdur. Eləcə də multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Konstitusiyanın bir sıra maddələrində təsbit edilib. Bu gün ölkə başçısı, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin də siyasətində milli məfkurəyə istinad xətti konsepsiya, təlim səviyyəsində gerçəkləşir. Onun ard-arda imzaladığı "Multikulturalizm ili", "İslam həmrəyliyi ili", "Azərbaycan Xalq Cümhuriyyəti ili", "İmadəddin Nəsimi ili", "Nizami Gəncəvi ili", "Şuşa ili", "Şəhərsalma və memarlıq ili" kimi sərəncamlar mədəniyyətin inkişafına, tarixi yaddaşın bərpasına, eləcə də layiqli şəxsiyyətlərin misilsiz xidmətlərinə dəyər qazandırmaq, onları yeni düşüncə kontekstindən incələməyə imkan yaratmaq, ən kiçik nüansı belə bədii-estetik yaddaşın məxəzinə çevirmək baxımından müstəsna addımdır.

## 103 ilin əbədiyyət ünvanı

Bütün digər məziyyətləri ilə yanaşı, Heydər Əliyev son yüz ilin Azərbaycan tarixinə yada, rəqibə bir metr də olsun torpaq verilməsinə imza atmamış yeganə lider kimi daxil olub. Bu, onun öndərlik tərcümeyi-halında bəlkə də, ən ali şərəfli məqamdır. Bunu nə ilə əlaqələndirmək olar? Hər şeydən əvvəl, onunla ki, Heydər Əliyev dəyərlərin gücünü bilirdi və ona torpaq qədər sahib çıxmağı bacarırdı. Bilirdi ki, ən böyük güc xalqı bir yerə cəm edəcək milli ideologiyanın varlığından keçir.

Ona görə Heydər Əliyev əvvəl milli məfkurəni, sonra müstəqil dövləti yaratdı. Bu baxımdan, minillik dövlətçilik tariximizə milli məfkurəyə istinad edən ilk və yeni Azərbaycan dövlətinin qurucusu kimi daxil oldu. Azərbaycanı azərbaycanlıların ixtiyarına verən və Azərbaycan xalqı "öz taleyinin sahibidir", – deyən ilk böyük dövlət xadimimizdir Heydər Əliyev. Ona qədər Azərbaycan tarixində belə bir siyasi kontekstin olmadığı hər kəsə bəllidir.

Heydər Əliyevin həyata keçirdiyi siyasət qlobal mahiyyətinə görə bənzərsiz tarixi mərhələdə Azərbaycanın gücünə və Azərbaycan ictimai fikrinin təməl daşına çevrildi. XX yüzilliyin sonunda Ərəbistandan Qafqaza qədər dalğalanan siyasi ziddiyyətlərin Azərbaycana yansımaması, Azərbaycanın Şərqdə də, Qafqazda da müstəsna bir dünya dövləti kimi öz sabitliyini və hər mənada müstəqilliyini qoruyub saxlaması Heydər Əliyev tərəfindən irəli sürülmüş milli məfkurənin ümummilli mahiyyətinə ən mükəmməl və etibarlı sübutdur.

Ümummilli dəyərləri ideoloji baxımdan ilk dəfə o təsbit etdi. İqtisadi coğrafiyanı böyük quruculuq işləriylə, mənəvi coğrafiyanı isə milli-mənəvi dəyərlərin Azərbaycana qaytarılmasıyla gerçəkləşdirdi. Azərbaycanın qapılarını Dədə Qorqudun, Nizaminin, Hüseyn Cavidin, Şəhriyarın üzünə taybatay açmaqla, əslində, Azərbaycanın məfkurəvi necəliyini müəyyənləşdirməyi bacardı. 1993-cü ildə isə Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətə təkcə Azərbaycanı hərbi-siyasi böhrandan qurtarmaq üçün deyil, həm də Ümummilli liderin 25 il əvvəl başladığı azərbaycançılıq əsərinin ən ciddi səhifələrini yaratmaq üçün dəvət edirdi. Çünki bu mənəvi abidənin – siyasi Azərbaycanın sirri 1969-cu ildən başlayaraq Heydər Əliyevin üslubunda kəşf olunmuşdur.

Məhz bu gücün sayəsində biz 2020-ci ildə 44 günlük müharibədə zəfər çala bildik. Bu, həm də Heydər Əliyev ideallarının qələbəsi idi ki, öz layiqli varisinin – Ali Baş Komandan İlham Əliyevin əməllərində gerçəklik qazandı. Onun dil və din, mental və yaddaş, mənəvi-əxlaqi dəyərlər kontekstində ehtiva etdiyi sahiblik şüuru, bir yumruqda cəm olaraq milli birliyi qorumağı strateji xəttin əsas konsepsiyasına çevirmək əzmi İkinci Qarabağ savaşında qazandığımız Zəfərin cövhərinə çevrildi!

Bu gün Heydər Əliyev həm də İlham Əliyevin simasında yaşayır, əbədi davam edən tarixə çevrilir. 44 günlük Zəfər salnaməsinin hər səhifəsində Heydər Əliyevin rolu, gücü, iradəsi olduğu danılmaz faktdır. Çünki Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə qazandığı ən böyük nailiyyət məhz buna yetmək olmuşdur: milli varlığın idrak məqamına! Heydər Əliyev cəmiyyətimizlə bahəm ədəbiyyatda da başlanan yeni epoxanın təməlini qoyan, onun gəlişməsinə təkan verən tarixi şəxsiyyətdir. Ona görə haqqında yazılan mətnlərin bəlkə də hələ Ümummilli liderin obrazını bütünlüyü ilə yaratmağa gücü yetmir. Heydər Əliyevin obrazı ən istedadlı mətndən belə irəlidə durmağı bacarır. Görünür, Zamanın fövqünə, ucalığına qalxmış İnsanlar üçün ən gözəl əsəri elə Tarixin özü yaradır.

Heydər Əliyev ədəbiyyatı! Bu faktdır, tarixdir, hamımızın keçib gəldiyi, dürüstlüyünə vaqif olduğumuz gerçəklər sırasıdır. Necə ki, bütöv bir epoxa yazarlar nəsli öz yaradıcılığında Heydər Əliyev dühasının rolunu dönə-dönə vurğulamış, səmimi etiraf anlarından tutmuş alt-fəlsəfə məqamlarının işləndiyi yerlərə qədər bu dühanın rolunu önəmsəməyə çalışmışlar.

Bu mənada, Heydər Əliyev sözümüzün "yaddaş sirri"dir. O, dövlətin rəmzinə çevrilmiş ilk siyasi lider oldu və kifayət qədər ibrətamizdir ki, belə bir hadisə Azərbaycan tarixində ilk dəfəydi ki, baş verirdi. Belə hadisələri isə tarix sonradan təshih etmir. Çünki yüzillər keçəndən sonra tarix daha çox həqiqətin dilində danışır. Heydər Əliyev Azərbaycanın siyasət dilini dünyaya təlim edən ilk azərbaycanlı oldu. Bu mənada, yüzillər keçəndən sonra da tarix Azərbaycan barədə qurucunun, baninin, Ümummilli liderin, yəni Heydər Əliyevin üslubunda danışacaq!

*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*filologiya elmləri doktoru*

*Yeni kitablar*

# Ulu öndərin liderlik məktəbi

**Hidayət Heydərovun "İki şəxsiyyət – iki tarix" kitabı dünya siyasət tarixinin iki nəhəng nümayəndəsi – Heydər Əlirza oğlu Əliyevin və İlham Heydər oğlu Əliyevin müstəqil Azərbaycanda liderlik fəaliyyətinə həsr olunub. Nəşrə hər iki şəxsiyyətin həyat və fəaliyyətinin ən mühüm məqamları, təltif və fəxri adları, mükafatları, barələrində görkəmli ictimai-siyasi xadimlərin fikirləri yer alıb.**

Müəllif kitabda ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixində təkcə dövlət başçısı deyil, həm də dərin strateji düşüncəyə malik müdrik siyasi xadim kimi xüsusi yer tutduğunu qeyd edərək bildirir ki, dahi şəxsiyyətin fəaliyyəti milli maraqların qorunması, dövlətçiliyin möhkəmləndirilməsi və gələcəyə hesablanan siyasətin həyata keçirilməsi ilə səciyyələnir. Nəşrdə Ulu öndərin mürəkkəb geosiyasi şəraitdə balanslaşdırılmış xarici siyasət yürüdərək Azərbaycanı beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanıtması məhz onun uzaqgörənliyinin məntiqi nəticəsi kimi dəyərləndirilir.

Ümummilli liderin müdrikliyinin təkcə onun siyasi qərarlarında deyil, həm də kadr siyasətində, iqtisadi islahatların istiqamətinin müəyyənləşdirilməsində və milli birliyin təmin olunmasında özünü göstərdiyini diqqətə çatdıran Hidayət Heydərov dövlət idarəçiliyində sabitlik və ardıcıllığı bu dünyaşöhrətli siyasi xadimin əsas prinsip kimi formalaşdırdığını xatırladır. Müəllifin sözlərinə görə, müasir müstəqil Azərbaycanın formalaşması bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Eyni zamanda, 1990-cı illərin əvvəllərində ölkədə mövcud olan siyasi və iqtisadi böhranın, xaos və parçalanma təhlükəsinin məhz onun hakimiyyətə qayıdışından sonra aradan qaldırıldığını diqqətə çatdırır.

Nəşrdə qeyd edilir ki, "Əsrin müqaviləsi" kimi tanınan neft strategiyası Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını qoydu. Bu addım ölkəyə böyük həcmdə xarici investisiyaların cəlb olunmasına və iqtisadi inkişafın sürətlənməsinə şərait yaratdı. Beləliklə, Heydər Əliyev yalnız siyasi sabitliyi bərpa etmədi, həm də müasir Azərbaycanın iqtisadi modelini formalaşdırdı.

Ümummilli lider, eyni zamanda, təkcə Azərbaycanda deyil, bütövlükdə, dünya siyasətində tanınan nüfuzlu liderlərdən biri idi. Onun beynəlxalq münasibətlər sistemində oynadığı rol, müxtəlif dövlətlərlə qurduğu strateji tərəfdaşlıqlar və regional layihələrdə iştirakı ölkənin mövqeyini gücləndirdi. Ulu öndərin təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri Azərbaycanın qlobal iqtisadi sistemə inteqrasiyasını sürətləndirdi.

Heydər Əliyev siyasətinin mərkəzində insan amili dayandığını diqqətə çatdıran müəllif qeyd edir ki, dahi şəxsiyyət sosial rifahın yüksəldilməsini dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirərək, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, sosial müdafiə sisteminin gücləndirilməsi və iqtisadi imkanların genişləndirilməsi məsələlərinə bu siyasətin əsas tərkib hissəsi kimi yanaşırdı. Ulu öndər hər zaman Azərbaycanın gələcəyini düşünərək uzunmüddətli strategiyalar formalaşdırırdı. Onun siyasəti yalnız cari problemlərin həllinə deyil, həm də gələcək nəsillərin rifahına hesablanmışdı. Güclü dövlət, inkişaf etmiş iqtisadiyyat və savadlı cəmiyyət dahi liderin əsas hədəfləri idi.

Hidayət Heydərov kitabın ikinci bölümündəki məqalələrdə müstəqil Azərbaycan dövlətinin inkişaf tarixinin Prezident İlham Əliyevin rəhbərliyi dövründə yeni və keyfiyyətcə fərqli mərhələyə qədəm qoyduğunu, bu mərhələnin təkcə iqtisadi yüksəliş, sosial rifahın yaxşılaşması və infrastruktur quruculuğu ilə deyil, eyni zamanda, Azərbaycanın beynəlxalq arenada güclənən mövqeyi, qlobal proseslərdə fəal iştirakı və ən əsası, ölkəmizin ərazi bütövlüyünün gerçəkləşməsi kimi tarixi nailiyyətlərlə xarakterizə olunduğunu bildirir.

Kitabda daha sonra qeyd edilir ki, onilliklər boyu davam edən işğal faktı Azərbaycan xalqının ən böyük ağrısı və dövlətin əsas prioritet məsələsi idi. Buna görə də dövlət başçısı prezidentlik fəaliyyəti dövründə bu problemin həlli üçün həm siyasi-diplomatik müstəvidə, həm də hərbi sahədə sistemli və məqsədyönlü addımlar atmağı daim diqqətdə saxladı. Məhz bu siyasətin nəticəsi olaraq 2020-ci ildə Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfər qazanaraq işğal altındakı torpaqları azad etdi.

Bu uğurlar sübut edir ki, Prezident İlham Əliyevin siyasəti Azərbaycan dövlətçiliyini daha da möhkəmləndirib, ölkəmizi güclü, nüfuzlu və müstəqil dövlətə çevirib. Respublikamız bu gün yeni mərhələyə qədəm qoyaraq daha böyük hədəflərə doğru inamla irəliləyir və bu inkişaf yolu beynəlxalq miqyasda milli maraqlara əsaslanan müdrik liderliyin real nəticəsi kimi dəyərləndirilir.




*İlqar HƏSƏNOV*
*XQ*

# Məktəbin şən xorunda “yad notlar”

## *Yaxud təhsil ocaqlarında zorakı şıltaqlıqlar niyə çoxalıb?*

**Azərbaycanda, xüsusilə paytaxtın təhsil müəssisələrində şagirdlərin bir-birinə qarşı kobud davranışı, psixoloji təzyiq göstərilməsi, qrup halında döymə, alçaltma, hətta bıçaqlanma kimi ağır hadisələrin artması artıq cəmiyyətdə ciddi narahatlıq doğurur. Əgər bir vaxtlar məktəb mühitində zorakılıq halları təsadüfi hadisə sayılırdısa, indi bu bəlanın sistemli xarakter aldığı diqqət çəkir. Bu isə təhsil ocağının deyil, bütövlükdə, cəmiyyətin qarşılaşdığı ciddi təhlükədir. Çünki məktəb cəmiyyətin gələcəyidir. Bu gün təhsil müəssisəsində zorakılığa meyilli uşaq sabah ailədə, iş yerində və ictimai münasibətlərdə böyük ehtimalla eyni davranışı nümayiş etdirir.**



### Nəğmə, yoxsa yumruq?

Məktəb deyəndə ilk xəyalımıza gələn açıq pəncərəsindən şagirdlərin xorla oxuduğu şən nəğmələrin xoş ahəngi gəlir. Bəs nədən son vaxtlar təhsil otaqlarımızdan cəmiyyətə arzuolunmaz, cinayət səpkili xəbərlər yayılır?

Uşağın davranışının formalaşmasında ən güclü rol oynayan ailə mühiti onun tərbiyə aldığı ilk ocaqdır və əzəli davranış kodlarını müəyyən edir. Əgər burada münaqişə, emosional laqeydlik, zorakılıq, sərt münasibət, valideynlər arasında mübahisələr mövcuddursa, yeniyetmə bu atmosferdə psixoloji gərginliklə böyüyür. Bəzi ailələrdə valideyn uşağa qarşı həddindən artıq təzyiq göstərir, onu daim danlayır və sərt şəkildə idarə etməyə çalışır. Digər hallarda isə ata-ana övladlarına laqeyd yanaşır, onunla ünsiyyət qurmur, onun sosial mühitini izləmir. Hər iki vəziyyət uşağın daxili dünyasında narahatlıq yaradır və bu, çox vaxt aqressiv davranışa çevrilir.

Məktəb zorakılığının artmasının digər səbəblərindən biri də müasir dövrdə uşaqların emosional və psixoloji yükünün getdikcə çoxalmasıdır. Yeniyetməlik dövrü özü psixoloji baxımdan həssas mərhələdir. Bu dövrdə uşaq özünü sübut etmək, qrupda lider olmaq və digərlərindən seçilmək istəyir. Əgər o, bunu sağlam yollarla bacarmırsa, zorakılığa əl atmaqla “güc nümayiş etdirmək” yolunu seçir.

Məktəblərdə zorakılıq təkcə fiziki müstəvidə müşahidə edilmir, bu, həm də psixoloji istiqamətdə getdikcə geniş miqyas alır. Şagirdin sistemli şəkildə təhqir olunması, alçaldılması, lağa qoyulması və kollektivdən təcrid edilməsi müasir təhsil mühitində ən təhlükəli problemlərdən birinə çevrilir. Fiziki zorakılıq bəzən görünür və dərhal reaksiya doğurur. Amma psixoloji zorakılıq uzun müddət gizli şəkildə davam edir və uşağın, necə deyərlər, daxili dünyasını dağıdır.

Məsələnin ən ağır tərəfi ondan ibarətdir ki, uşaq təkcə məktəbdə deyil, sosial şəbəkələr vasitəsilə də təzyiqə məruz qalır. Şagirdlərin videosunun çəkilib paylaşılması, sosial mediada alçaldılması, ona qarşı sosial şəbəkə üzərindən hər hansı bir kampaniyanın aparılması artıq müasir dövrün yeni zorakılıq formasıdır. Bu isə uşağın psixologiyasını sarsıdır, depressiyaya, sosial təcridə, hətta ağır psixoloji travmalara gətirib çıxarır. Bəzi hallarda belə təzyiqlərə məruz qalan uşaq özünü müdafiə edə bilmədiyi üçün ya məktəbdən uzaqlaşır, ya da çıxış yolunu aqressiv reaksiyada tapır. Beləliklə, zorakılıq yeni zorakılığı doğurur və məktəb mühitində təhlükəli zəncir yaranır.

### Müəllim nüfuzu və məktəbdə ictimai idarəetmə

Məktəb zorakılığına təsir edən əsas amillərdən biri də müəllim nüfuzunun azalmasıdır. Belə ki, əvvəllər müəllim yalnız dərs keçən şəxs deyil, həm də tərbiyəçi və məktəbin mənəvi dayağı hesab edilirdi. Lakin son illərdə müxtəlif səbəblərdən müəllimin cəmiyyətdəki nüfuzu zəifləyib. Bu isə təhsil müəssisəsində intizamın pozulmasına və şagirdlər arasında nəzarətin azalmasına gətirib çıxarıb.

Bəzi hallarda müəllim şagirdlərlə sərt davranmaqdan çəkinir, çünki valideyn məktəbə dərhal müdaxilə edir və müəllimi günahlandırır. Digər tərəfdən, müəllimin iş yükünün çox olması və sosial problemlərlə əhatələnməsi onun şagirdlərlə psixoloji münasibət qurmaq imkanlarını məhdudlaşdırır. Halbuki zorakılığın qarşısını almaq üçün müəllim həm də psixoloji yanaşma tətbiq etməyi bacarmalıdır.

Məktəb rəhbərliyinin idarəetmə sistemi də burada mühüm rol oynayır. Təhsil ocağında sağlam psixoloji mühit formalaşdırılmadıqda şagirdlər arasında konfliktlər artır. Bu zaman məktəb rəhbərliyi yalnız formal intizam tədbirləri ilə deyil, həm də önləyici mexanizmlərə üstünlük verməlidir.

Məktəbdə zorakılığın artmasında sosial-iqtisadi problemlərin də rolu böyükdür. Maddi çətinlik yaşayan ailələrin uşaqları özlərini sosial baxımdan sıxılmış hiss edr. Bəzən onlar bunu kompleks kimi yaşayır və həmin kompleks aqressiya formasında üzə çıxır. Digər tərəfdən, imkanlı ailələrdən gələn bəzi uşaqlar üstünlük hissi ilə davranırlar, bu da məktəbdə sosial gərginlik yaradır.

Cəmiyyətdə sosial təbəqələşmə dərinləşdikcə məktəb də bu prosesdən kənarda qalmır. Şagirdlər arasında “kimin telefonu bahadır”, “kimin geyimi markadır”, “kimin ailəsi daha imkanlıdır” kimi düşüncələr üstünlük təşkil etdikdə konfliktlər də artır. Bu isə təhsil müəssisəsinin sağlam sosial mühit funksiyasını zədələyir.

Məktəbdə zorakılığa qarşı tədbirlər cəza cəza mexanizmlərinə söykənməməlidir. Əlbəttə, intizam tədbirləri vacibdir, çünki cəmiyyət qaydalar üzərində qurulur. Amma təkcə cəza ilə problem həllini tapmır. Çünki bu üsul nəticəni aradan qaldırır, səbəbi yox. Əgər uşaq aqressivdirsə, onun davranışının arxasında hansı səbəblərin dayandığı araşdırılmalıdır. Uşağın ailə mühiti, psixoloji durumu, sosial çevrəsi öyrənilməli, onunla fərdi iş aparılmalıdır. Əks halda, cəza yalnız uşağı daha da aqressivləşdirə və problem daha təhlükəli formaya keçə bilər.

### Məktəb, ailə və cəmiyyət üçbucağı

Bu məsələdə sosial, psixoloji və ailə amillərinin kompleks təsiri mövcuddur. Uşağın formalaşdığı ailə mühiti onun davranış modelinin əsasını təşkil edir. Ailədaxili münaqişələr, emosional laqeydlik və ya həddindən artıq təzyiq uşaqlarda daxili gərginlik yaradır. Bu gərginlik zamanla aqressiv davranışlara çevrilə bilir.

**Təhsil eksperti İsmayıl İsmayılovun** sözlərinə görə, bu məsələdə valideyn nəzarətinin zəifliyi narahatlıq doğuran amillərdən biridir. Yeniyetmələrin emosional ehtiyaclarının nəzərə alınmaması, onların fikirlərinin dinlənilməməsi psixoloji boşluq yaradır. Bu boşluğun isə çox zaman rəqəmsal mühitdə doldurulmasına çalışılır.

İ.İsmayılov fikrinə əlavə edərək bildirir ki, rəqəmsal texnologiyaların sürətli inkişafı yeni çağırışlar formalaşdırır. Sosial şəbəkələrdə və digər platformalarda yayılan zorakılıq səhnələri bəzi yeniyetmələr üçün davranış modeli rolunu oynayır. Xüsusilə psixoloji baxımdan həssas olan gənclərdə bu təsirlərə maraq daha güclü olur. Buna görə də onların sosial platformalarda gördüklərini real həyatda təkrarlama cəhdi aydın nəzərə çarpır.

Məktəblərdə psixoloji xidmətlərin yetərincə inkişaf etməməsi vəziyyəti daha da ağırlaşdırır. Psixoloq ştatlarının azlığı və ya formal fəaliyyəti risk qrupunda olan şagirdlərin vaxtında müəyyən edilməsinə çətinlik yaradır. Belə bir şəraitdə isə müasir təhsil sistemi təkcə bilik verməklə kifayətlənməməli, eyni zamanda, şagirdlərin emosional və sosial inkişafını gerçəkləşdirməlidir.

Müəllimlərin üzərinə düşən məsuliyyət də bu baxımdan xüsusi önəm daşıyır. Çünki müəllim bilik verməklə bərabər, həm də tərbiyəedici və yönləndirici funksiyanı yerinə yetirir. Lakin onların bu sahədə hazırlıq səviyyəsi və dəstək mexanizmləri heç də hər zaman kifayət etmir. Belə bir hal isə məktəbdaxili münasibətlərdə problemlərin yaranmasına gətirib çıxarır.

**Uşaq hüquqlarının müdafiəsi üzrə ekspert Qumru Aslanova** deyir ki, valideyn-məktəb əməkdaşlığının zəif olması problemlərin dərinləşməsinə daha çox təsir göstərir. Təhsil prosesində valideynlərin fəal iştirakı olmadan müsbət nəticələr əldə etmək çətindir. Amma valideynin məktəblə davamlı bağlılığı onun övladının akademik göstəricilərinin yaxşılaşması ilə bərabər, psixoloji vəziyyətini və sosial davranışlarını da tənzimləyir.

Problemin həlli üçün kompleks yanaşma tələb olunur. Bunun üçün, ilk növbədə, təhsil sistemində vahid strategiya formalaşdırılmalı, kurikulumlar sabit və məqsədyönlü şəkildə hazırlanmalıdır. Tədris və qiymətləndirmə sistemləri arasında koordinasiya gücləndirilməli, məktəblərin real funksiyası bərpa olunmalıdır. Eyni zamanda, psixoloji xidmətlər genişləndirilməli, tədris müəssiələrində peşəkar psixoloqların fəaliyyəti gücləndirilməlidir.

Q.Aslanova daha sonra qeyd edir ki, risk qrupuna daxil olan şagirdlərlə fərdi iş aparılmalı, neqativ halların, xəstəliklərin və ya cinayətlərin əvvəlcədən qarşısını alan qabaqlayıcı tədbirlər həyata keçirilməlidir. Rəqəmsal savadlılıq da mühüm istiqamətlərdən biri olduğu üçün yeniyetmələrə bu sahənin mənfi tərəfləri ətraflı izah edilməli, valideynlər bu prosesdə fəal iştirak etməlidirlər. Sosial şəbəkələrin təsirinin azaldılması üçün maarifləndirmə tədbirləri gerçəkləşdirilməlidir.

Beləliklə, Azərbaycan təhsil sistemi hazırda həm struktur, həm də məzmun baxımından ciddi transformasiya mərhələsindən keçir. Mövcud problemlər sistemli yanaşma ilə həll olunmadığı səbəbindən, bu sahədə gözlənilən yüksək keyfiyyət dəyişiklikləri baş vermir. Təhsil təkcə bilik ötürən mexanizm deyil, eyni zamanda, cəmiyyətin gələcəyini formalaşdıran strateji sahədir. Bu baxımdan, atılacaq hər bir addım uzunmüddətli perspektiv nəzərə alınaraq planlaşdırılmalı və həyata keçirilməlidir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Günel SƏFƏROVA,**
**uşaq hüquqları eksperti**

Artıq qlobal xarakter daşıyan zorakılıq hallarının ölkəmizin təhsil müəssisələrində də getdikcə genişlənməsi ciddi narahatlıq doğurur. İnternet resurslarının çoxşaxəli olması və uşaqların bu mühitdə fəal istifadəçi kimi iştirak etməsi onların müxtəlif təsirlərə məruz qalmasına gətirib çıxarır. Bununla yanaşı, zorakılıq hallarına təsir edən əsas amillər sırasında ailə tərbiyəsi, sosial mühit və uşağın emosional-intellektual inkişaf səviyyəsi kimi amillər xüsusi yer tutur.

Artıq zorakılıq özünü təkcə fiziki müstəvidə göstərmir. Psixoloji təzyiq, sosial təcrid və xüsusilə sosial şəbəkələr üzərindən həyata keçirilən kiberzorakılıq halları daha geniş yayılıb. Müşahidələr göstərir ki, uşaqlar arasında yaranan bir çox konfliktlər məhz onlayn şəraitdə başlayır və sonradan real mühitə keçir.

Zorakılıq hallarının qarşısının alınması istiqamətində həm inzibati, həm də məzmun əsaslı tədbirlər reallaşdırılır. Məktəblərdə psixoloqlar, uşaq müdafiəsi istiqamətində fəaliyyət göstərən mütəxəssislər, sosial pedaqoqlar və digər aidiyyəti şəxslər bu sahədə fəal rol oynayırlar. Eyni zamanda, tədris və tərbiyə prosesində humanist dəyərlərin təşviqinə də xüsusi diqqət yetirilir.

Mövcud çətinliklər kompleks və çoxşaxəli problem kimi diqqət çəkir. Lakin prioritetləşdirmə aparsaq, əsas səbəblər sırasında, ilk növbədə, ailə mühiti dayanır. Uşaq ilk davranış modelini məhz ailədə formalaşdırır. Burada aqressiya, zorakılıq, laqeyd münasibət və ya emosional soyuqluq müşahidə olunarsa, bu, birbaşa uşağın davranışına sirayət edir. Ailədaxili münasibətlərdə zorakılıq hallarının olması və ya zorakılığa müəyyən hallarda haqq qazandırılması uşağın psixoloji inkişafına mənfi təsir göstərir. Belə mühitdə böyüyən uşaq zorakılığı problemi həlletmə vasitəsi kimi qəbul edə bilir.

Xüsusilə yaşa uyğun olmayan sosial şəbəkələrdəki məzmunlara çıxış, zorakı səhnələrin izlənilməsi və aqressiv oyunların təsiri uşaqlarda davranış modellərinə mənfi təsir göstərir. Bu təsir birbaşa deyil, dolayı şəkildə, yəni təqlid, normallaşdırma və emosional həssaslığın azalması formasında özünü göstərir. Burada əsas məsələ qadağalar tətbiq etmək deyil. Tam qadağa əks-effekt verir və uşağın marağını daha da artırır. Əsas yanaşma düzgün yönləndirmə, rəqəmsal savadlılıq və valideyn nəzarətinin təmin edilməsidir.

Valideyn uşaqların istifadə etdiyi platformalarla tanış olmalı, onların hansı məzmunlarla qarşılaşdığını bilməli və açıq ünsiyyət qurmalıdır. Eyni zamanda, uşaqlara rəqəmsal təhlükəsizlik qaydalarını izah etməli, bu istiqamətdə düşünmə bacarıqlarını inkişaf etdirməlidir. Məktəbdə də bu yöndə maarifləndirici tədbirlərin gücləndirilməsi zəruridir. Uşaqlara onlayn davranış etikası, kiberzorakılıq riskləri və təhlükəsiz internet istifadəsi ilə bağlı biliklər sistemli şəkildə aşılanmalıdır.

---

*Sosial gündəm*

# Torpaq məşğulluğun etibarlı ünvanıdır

## *Taleyini onunla bağlayanlar heç vaxt işsiz qalmırlar*



**Aqrar sahə ölkəmizdə məşğulluğun təmin olunmasında və regionların sosial-iqtisadi inkişafında əsas dayaqlardan biridir. Xüsusilə bölgələrdə əhalinin böyük hissəsinin kənd təsərrüfatı ilə məşğul olması bu sahədə peşə bacarıqlarının artırılmasını və özünüməşğulluq imkanlarının genişləndirilməsini dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirib. Müasir dövrdə aqrar sektor yalnız ənənəvi təsərrüfatçılıqla məhdudlaşmır; rəqəmsal texnologiyaların tətbiqi, innovativ yanaşmalar və bazaryönümlü istehsal bu sahədə yeniliklərə uyğunlaşmağı tələb edir.**

Əhalinin peşə bacarıqlarının inkişafı bu sahədə məhsuldarlığın yüksəldilməsi ilə birbaşa bağlıdır. Ənənəvi üsullarla çalışan fermerlərin müasir aqrotexniki qaydalar, suvarma sistemləri, məhsuldar toxum növləri və rəqəmsal kənd təsərrüfatı alətləri barədə məlumatlı olması onların gəlir imkanlarını da artırır. Bu istiqamətdə həyata keçirilən təlim proqramları, peşə hazırlığı kursları və praktik məşğələlər kənd əhalisinin bilik və bacarıqlarının yenilənməsinə şərait yaradır. Son illər aqrar sahədə ixtisaslaşmış təhsil müəssisələrinin rolu da artır, gənclərin bu sahəyə marağının stimullaşdırılması məqsədilə müxtəlif təşviq mexanizmləri tətbiq olunur.

Aqrar sektorda məşğul olan əhalinin peşə bacarıqlarının inkişafında, həmçinin işsiz və işaxtaran şəxslərin özünüməşğulluğunun təşkilində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin son illər həyata keçirdiyi tədbirlər əhəmiyyətli rol oynayır.



Kənd təsərrüfatı sahəsində çalışan şəxslərin peşə bacarıqlarının artırılması, işsiz və işaxtaran şəxslərin aqrar istiqamət üzrə yeni peşə səriştələrinə yiyələnməsi məqsədilə nazirlik tərəfindən 30-dan çox peşə hazırlığı kursu təşkil olunub. Bu kurslar aqrar sektorun bitkiçilik, heyvandarlıq, aqrotexniki xidmətlər, istixana təsərrüfatı, suvarma sistemlərinin idarə olunması və digər istiqamətlərini əhatə etməklə iştirakçılara həm nəzəri biliklər, həm də praktiki vərdişlər qazandırır.

Ötən il Dövlət Məşğulluq Agentliyinin 18.4 min işsiz və işaxtaran üçün təşkil etdiyi peşə hazırlığı kurslarında 373 nəfər kənd təsərrüfatı üzrə peşələrə yiyələnib. Hazırda Agentliyin 4 regional peşə hazırlığı mərkəzi fəaliyyət göstərir və eyni zamanda, peşə kurslarının təşkilində bir çox özəl tədris müəssisələri ilə də əməkdaşlıq edilir.

Təlim proqramları əmək bazarının real tələblərinə uyğunlaşdırılıb. Müasir texnologiyaların kənd təsərrüfatına tətbiqi, məhsuldarlığın artırılması üsulları, resurslardan səmərəli istifadə və innovativ yanaşmalar iştirakçıların rəqabətədavamlı mütəxəssislərə çevrilməsinə imkan yaradır. Aqrar sahə üzrə peşə bacarıqları qazanan şəxslər işlə təmin olunur, ya da özünüməşğulluq proqramlarına qoşularaq fərdi təsərrüfatlarını qurmaq imkanı əldə edirlər. Bu da xüsusilə regionlarda məşğulluğun artmasına, kənd yerlərində iqtisadi aktivliyin güclənməsinə və əhalinin gəlir mənbələrinin şaxələndirilməsinə müsbət təsir göstərir.

Təlimlərdən keçmiş şəxslərin biznes fəaliyyətində daha uğurlu olması göstərir ki, insan kapitalına qoyulan investisiya uzunmüddətli sosial-iqtisadi effekt verir. Xüsusilə regionlarda yaşayan əhalinin məşğulluq imkanlarının genişlənməsi, kənd yerlərində özünüməşğulluq təşəbbüslərinin artması baxımından bu addım strateji əhəmiyyət daşıyır.

Dövlət Məşğulluq Agentliyinin son 5 ildə həyata keçirdiyi özünüməşğulluq proqramı iştirakçılarının 65 faizi kiçik təsərrüfatlarını qurublar. Proqrama cəlb olunanların ümumi sayı isə 110 mindən çoxdur. Hazırda özünüməşğulluq proqramı iştirakçılarına Agentlik tərəfindən “Broyler inkubatoru”, “Maldarlıq”, “Qoyunçuluq”, “Keçiçilik”, “Arıçılıq təsərrüfatı”, “Kotançılıq xidməti” kimi aktivlər və zərflər təqdim olunur.

Aqrar sahəyə aid 128 peşə və kvalifikasiya standartları beynəlxalq əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin hazırlanması və bacarıqlarının artırılmasına, habelə işəgötürənlər üçün ixisaslı işçi qüvvəsinin seçiminə xidmət edir.

Bu standartlar aqrar sektorda fəaliyyət göstərən mütəxəssislərin bilik, bacarıq və səriştələrini vahid çərçivədə müəyyənləşdirir. Əmək bazarında tələb olunan ixtisaslara uyğun kadr hazırlığı daha sistemli şəkildə həyata keçirilir, işəgötürənlərlə işaxtaranlar arasında uyğunluq artır. Bu isə aqrar sektorda fəaliyyət göstərən geniş əmək qüvvəsinin peşəkarlıq səviyyəsinin artırılmasına və müasir texnologiyaların tətbiqinə zəmin yaradır. Sözügedən standartlar peşə təhsili müəssisələrində tədris proqramlarının yenilənməsinə, əmək bazarının real tələblərinə uyğunlaşdırılmasına və aqrar sahədə innovativ yanaşmaların təşviqinə də töhfə verir.

***Mustafa KAMAL***
***XQ***

# Azərbaycan–İtaliya çoxölçülü tərəfdaşlığı strateji önəm daşıyır

*İki ölkə arasında ticarət dövriyyəsi 12 milyard dollara çatıb*



**Diplomatik münasibətlərin qurulduğu 24 il ərzində Azərbaycan ilə İtaliya arasında əlaqələr davamlı şəkildə genişlənib və dərinləşib. Bu əməkdaşlıq Xəzərdən Aralıq dənizinə qədər uzanan strateji tərəfdaşlıq müstəvisini formalaşdırıb. Bakı ilə Roma arasında 2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlığa dair imzalanan iki bəyannamə ölkələr arasındakı əməkdaşlığın yol xəritəsini müəyyən edib.**

İtaliya Avropanın böyük dövlətləri və G7 üzvləri arasında ölkəmizlə strateji tərəfdaşlıq sənədi imzalayan ilk dövlətdir. 2020-ci ilin fevralında Roma şəhərində Azərbaycan Prezidenti və İtaliyanın Nazirlər Şurasının sədri tərəfindən imzalanmış “Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə” iki ölkə arasında ən yüksək səviyyəli siyasi sənəd hesab olunur. Hazırda bu sənəd ölkələr arasında münasibət, çoxsaylı biznes anlaşmaları nəinki neft-qaz sektorunda, eləcə də iqtisadiyyatın başqa sahələri üzrə əməkdaşlığın genişləndirilməsinə təkan verir.

Mayın 4-də Ciorcia Meloninin Ermənistanda keçirilən “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısından sonra Azərbaycana səfər etməsi İtaliyanın Azərbaycana verdiyi önəmin göstəricisidir. Prezident İlham Əliyev bu səfərin Azərbaycan-İtaliya dostluq münasibətlərinin inkişafına növbəti töhfə verəcəyini vurğulayıb. Dövlət başçısı bildirib: “Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda, Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür”.

Qeyd edək ki, bu gün Azərbaycan və İtaliya arasında siyasi və iqtisadi əlaqələr yüksək səviyyədədir. İtaliya Azərbaycanın 1 nömrəli ticarət tərəfdaşıdır. 2025-ci ildə Azərbaycanla İtaliya arasında ticarət əməliyyatlarının həcmi 11,860 milyard ABŞ dolları təşkil edib ki, bu, 2024-cü ildəki göstərici ilə müqayisədə 469,5 milyon ABŞ dolları çoxdur. Hesabat dövründə İtaliya ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 24 faizi həcmində olub. Beləliklə də İtaliya hesabat dövrü ərzində Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında ilk pillədə qərarlaşıb.

Təkcə bu ilin yanvar–mart aylarında isə Bakı ilə Roma arasında ticarət əməliyyatlarının həcmi 2,604 milyard ABŞ dolları təşkil edib. Hesabat dövründə İtaliya ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 27,69 faizi həcmində olub. Bununla da sözügedən ölkə hesabat dövrü ərzində Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında birinci yerdə qərarlaşıb. Hesabat dövründə Azərbaycandan İtaliyaya 2,489 milyard dollarlıq məhsul ixracı qeydə alınıb. Dövr ərzində Azərbaycandan İtaliyaya ixrac əməliyyatlarının 29,9 milyon dollarlıq hissəsini qeyri-neft məhsulları təşkil edib.

İki ölkə arasında əməkdaşlığın əsas istiqamətlərindən biri energetika sahəsidir. Azərbaycan İtaliyanın neft və qaz təchizatında aparıcı tərəfdaşlardan biri olmaqla ikinci sırada qərarlaşır. Eyni zamanda, statistik göstəricilər İtaliyanın Azərbaycan üçün həm neft, həm də qaz ixracında əsas bazarlardan biri olduğunu göstərir. Ötən il Azərbaycandan İtaliyaya 6,7 milyard ABŞ dolları dəyərində 13,1 milyon ton bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixrac edilib. Bu göstərici ilə İtaliya hesabat ilində Azərbaycanın ən böyük neft məhsulları alıcısı olub.

İtaliya Trans Adriatik Boru Kəməri (TAP) layihəsinin reallaşmasında mühüm rollardan birinə malikdir. Bu ölkə boru kəmərinin son təyinat nöqtəsi olmaqla yanaşı, layihənin maliyyələşdirilməsi, texniki icrası və Avropa enerji bazarına inteqrasiyası prosesində fəal iştirak edir. TAP vasitəsilə Azərbaycan qazı birbaşa İtaliya bazarına daxil olaraq, ölkənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və mənbələrin şaxələndirilməsinə əhəmiyyətli töhfə verir.

Keçən il Azərbaycandan İtaliyaya 4,565 milyard ABŞ dolları dəyərində 9,604 milyard kubmetr təbii qaz ixrac edilib. Bundan əlavə, 2026-cı ilin yanvar-fevral aylarında Azərbaycandan İtaliyaya 563,2 milyon ABŞ dolları dəyərində 1,494 milyard kubmetr təbii qaz ixrac edilib.

İki ölkə arasında qarşılıqlı investisiya qoyuluşlarında da artım müşahidə edilir. İtaliya Azərbaycan üçün yalnız enerji ixrac bazarı deyil, eyni zamanda, mühüm investisiya istiqamətidir. Ciorcia Meloni hökuməti dövründə iqtisadi sabitliyin qorunması və struktur islahatların davam etdirilməsi bu ölkəni kapital üçün cəlbedici edib. Azərbaycan Dövlət Neft Fondunun İtaliyaya yönəltdiyi təxminən 3 milyard dollarlıq sərmayə isə bu marağın praktik təzahürü kimi çıxış edir və ikitərəfli iqtisadi münasibətlərin institusional əsaslarını gücləndirir. Azərbaycan 2025-ci il ərzində İtaliya iqtisadiyyatına 125,1 milyon dollar sərmayə qoyub ki, bu, əvvəlki ildəki göstərici ilə müqayisədə 52,7 milyon dollar və ya 1,7 dəfə çoxdur. Birbaşa xarici investisiyaların ümumi həcmində Azərbaycandan İtaliyaya yatırılan investisiyaların xüsusi çəkisi 4,9 faiz təşkil edib. Hesabat ilində İtaliyanın Azərbaycana birbaşa investisiyalarının həcmi 21,956 milyon ABŞ dolları təşkil edib.

Sonda qeyd edək ki, İtaliya şirkətlərinin Azərbaycandakı fəaliyyəti uzunmüddətli tərəfdaşlıq ənənəsinə söykənir və bu əməkdaşlıq illər ərzində davamlı şəkildə genişlənib. Hazırda ölkədə İtaliya kapitallı 130-a yaxın şirkətin fəaliyyət göstərməsi iqtisadi əlaqələrin miqyasını və dərinliyini aydın şəkildə göstərir. Bu şirkətlər energetika, tikinti, mühəndislik, logistika və sənaye kimi müxtəlif sahələrdə aktiv iştirak edərək Azərbaycanın iqtisadi inkişafına töhfə verir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında İtaliya şirkətlərinin fəallığı diqqət çəkir. Bu ərazilərdə onların iştirakı ilə 20-dən çox layihə artıq icra olunub və ya hazırda həyata keçirilir.

Qarabağ və Şərqi Zəngəzurda, eləcə də Mingəçevirdə həyata keçirilən strateji layihələrdə İtaliya şirkətlərinin iştirakı ilə yanaşı, memarlıq və dizayn istiqamətində də sıx əməkdaşlıq formalaşıb. Zəfər muzeylərinin memarlıq konsepsiyalarının hazırlanmasında İtaliya dizayn məktəbinin iştirakı bu tərəfdaşlığın humanitar və mədəni ölçülərini də ön plana çıxarır. Bu amil Azərbaycan-İtaliya münasibətlərinin təkcə iqtisadi deyil, eyni zamanda, dəyərlər və mədəniyyət üzərində qurulan çoxşaxəli əməkdaşlıq modeli olduğunu göstərir.

***Musa BAĞIRLI***
***XQ***

# İslam İnkişaf Bankı ilə əməkdaşlıq müzakirəsi

**İqtisadiyyat Nazirliyində İslam İnkişaf Bankı (İİB) Qrupunun sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə əməkdaşlığın prioritet istiqamətləri, birgə layihələr, İİB Qrupunun İllik Toplantılarının 2026-cı ildə Bakıda keçirilməsi ilə bağlı hazırlıq işləri barədə müzakirələr aparılıb. İqtisadiyyat Nazirliyindən bildirilib ki, nazir Mikayıl Cabbarov İslam İnkişaf Bankı (İİB) Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casirin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.**

Görüşdə iqtisadiyyat naziri Mikayıl Cabbarov İİB ilə iqtisadi əməkdaşlığın genişləndirilməsinin, o cümlədən enerji, infrastruktur, su təchizatı və digər istiqamətlərdə reallaşdırılan layihələrin ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsində, özəl sektorun inkişafında mühüm rol oynadığını vurğulayıb. Ticarət və regional inteqrasiyanın, qlobal əlavə dəyər zəncirlərinə çıxışın, sabit makroiqtisadi mühitin ölkəmizi xarici investorlar üçün cəlbedici investisiya məkanına çevirdiyi qeyd olunub. Bildirilib ki, Toplantıların Bakıda təşkili ölkəmizin investisiya potensialının regional və beynəlxalq miqyasda daha da tanıdılmasına töhfə verəcək.

İİB Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir Toplantıların tərəfdaşlıqların gücləndirilməsi və Qrupa üzv ölkələrdə dayanıqlı inkişafı təşviq edəcək innovativ həllərin irəlilədilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Toplantılar, eyni zamanda, qlobal çağırışların birgə müzakirəsi və ortaq inkişaf üçün yeni imkanların müəyyən edilməsi üçün mühüm platformadır.

Görüşdə Bakıda keçiriləcək İİB Qrupunun İllik Toplantılarının rəsmi mövzusunun “Dayanıqlı rifah naminə regional inteqrasiya”ya həsr olunduğu bəyan edilib.




Tərəflər İslam İnkişaf Bankı Qrupunun İllik Toplantılarının 2026-cı ildə Bakıda keçirilməsi ilə bağlı hazırlıq işləri və nəzərdə tutulan tədbirlər, iqtisadiyyat, o cümlədən maliyyə sahəsində tərəfdaşlığın möhkəmləndirilməsi, gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıblar.

***XQ***

# Qazaxıstan ölkəmizdən 2 quru yük gəmisi alacaq




**“Bakı Gəmiqayırma Zavodu” MMC ilə Qazaxıstanın “Samruk-Kazına” ASC-nin tərkibinə daxil olan “KTZ Express Shipping” şirkəti arasında gəmiqayırma sahəsində əməkdaşlığa dair müqavilə imzalanıb. Sənədə əsasən müəssisədə müasir beynəlxalq standartlara uyğun iki ədəd quru yük gəmisi inşası olunacaq.**

“AZCON Holding”in icraçı direktoru Şahin Babayev beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsini şirkətin prioritet istiqamətlərindən biri kimi dəyərləndirərək deyib: “Layihə həm texnoloji imkanların nümayişi, həm də Azərbaycanın gəmiqayırma sənayesinin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Əminik ki, bu əməkdaşlıq yeni uğurlu layihələr üçün möhkəm zəmin yaradacaq”.

“Samruk-Kazına” ASC İdarə Heyətinin sədri Nurlan Jakupov isə qeyd edib ki, dəniz infrastrukturunun inkişafı Qazaxıstanın tranzit potensialının genişləndirilməsi istiqamətində aparılan sistemli işlərin davamıdır: “Qazaxıstan Dəmir Yolu” SC-nin öz donanmasının formalaşdırılması Transxəzər marşrutunun dayanıqlılığını artırır, yükdaşıma imkanlarını genişləndirir və beynəlxalq tərəfdaşların cəlbi üçün əlavə şərait yaradır. Əməkdaşlıq Orta dəhliz üzrə yük axınının artdığı bir dövrdə xüsusi aktuallıq kəsb edir. Beynəlxalq sifarişlərin çoxalması fonunda layihə yerli gəmiqayırma sənayesinin inkişafını sürətləndirməklə yanaşı, zavodun istehsal gücünün artırılmasına və rəqabət qabiliyyətinin möhkəmlənməsinə xidmət edəcək”.

Bununla da beynəlxalq sifarişlər əsasında inşa olunan gəmilərin sayı 4-ə çatacaq ki, bu da zavodun qlobal bazarda artan nüfuzunun və etibarlı tərəfdaş kimi mövqeyinin göstəricisidir.

“Bakı Gəmiqayırma Zavodu” MMC İdarə Heyətinin sədri Ruslan Talıbov artıq yeni gəmilərin texniki göstəricilərinin müəyyənləşdirildiyini bildirərək deyib ki, layihəyə uyğun olaraq hər bir gəminin ümumi uzunluğu 140,97 metr, eni 16,9 metr, bort hündürlüyü 6,80 metr, suya oturumu dəniz şəraitində 5,56 metr, çay şəraitində isə 3,60 metr olacaq.

Gəmilərin yükgötürmə qabiliyyəti dənizdə, təxminən, 9 min 900 ton, çay şəraitində isə 5 min 57 ton səviyyəsində nəzərdə tutulur. Bununla yanaşı, konteyner tutumu dənizdə 537 TEU, çayda isə 433 TEU təşkil edəcək gəmilərin hər biri 1600 kilovat gücündə olan iki əsas mühərriklə təchiz olunacaq. Onun sözlərinə görə, 11 düyün sürətlə hərəkət edə biləcək gəmilərin tikintisinin müqavilənin imzalanma tarixindən etibarən 28 ay müddətində başa çatdırılması nəzərdə tutulur.

***XQ***

# Dünya çağdaş aqrar yenilikləri Bakıdan izləyir

*Builki sərgilərdə 45 ölkədən 447 şirkət iştirak edir*

**Dünən Bakı Ekspo Mərkəzində “Caspian Agro Week” – 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu, “InterFood Azerbaijan” – 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi, eləcə də “Horeca Caspian” – 14-cü Xəzər Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar Sərgisi öz işinə başlayıb.**




Mərasimi giriş sözü ilə açan kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumunda müxtəlif ölkələrdən olan dövlət qurumlarının nümayəndələrinin, beynəlxalq təşkilatların, aqrar sahədə fəaliyyət göstərən şirkətlərin, investorların, fermerlərin iştirakı aqrar sektorun strateji əhəmiyyətini və bu sahədə beynəlxalq əməkdaşlığın genişlənən rolunu bir daha nümayiş etdirir. Qeyd olunub ki, sərgi təkcə məhsul və texnologiyaların nümayişi ilə məhdudlaşmır, sektorun müxtəlif istiqamətlərini əhatə edən forumları, eləcə də ölkədə fəaliyyət göstərən iri ixtisaslaşmış innovativ təsərrüfatlara təşkil olunan səfərləri özündə birləşdirir.

Nazir daha sonra qeyd edib ki, müasir dövrdə kənd təsərrüfatı yalnız iqtisadi fəaliyyət sahəsi deyil, eyni zamanda, ərzaq təhlükəsizliyinin təmin olunması, regionların sosial-iqtisadi inkişafı, məşğulluğun artırılması və ekoloji dayanıqlılığın qorunması baxımından mühüm strateji istiqamətdir. Qlobal iqlim dəyişikliklərinin, təbii resurslardan səmərəli istifadə zərurətinin və artan ərzaq tələbatının aqrar siyasətdə yeni yanaşmaları zəruriləşdirib. Hazırda ölkəmizdə aqrar sektorun inkişafının dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğunu vurğulayan Məcnun Məmmədov deyib: “Ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar kənd təsərrüfatının modernləşdirilməsinə, fermerlərin rifahının yüksəldilməsinə və aqrar istehsalın rəqabət qabiliyyətinin artırılmasına xidmət edir. Bu istiqamətdə dövlət tərəfindən fermerlərə və sahibkarlara geniş dəstək mexanizmləri tətbiq olunur. Subsidiyaların verilməsi, güzəştli kreditlərin təqdim edilməsi, kənd təsərrüfatı texnikasına əlçatanlığın artırılması, aqrar sığorta sisteminin genişləndirilməsi və innovativ texnologiyaların tətbiqinin təşviqi aqrar sektorun dayanıqlı inkişafına mühüm töhfə verir”.

Aqrar sahədə rəqəmsallaşmanın genişləndirilməsinin, “ağıllı kənd təsərrüfatı” həllərinin tətbiqinin, su resurslarından səmərəli istifadənin, torpaq münbitliyinin qorunmasının və ekoloji cəhətdən dayanıqlı istehsal modellərinin təşviqinin ölkəmizdə dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu vurğulayan nazirin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən aqrar layihələr də ölkəmizin kənd təsərrüfatı strategiyasında xüsusi yer tutur.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli ölkəmizdə qida təhlükəsizliyi sahəsində əldə edilən uğurlardan danışıb. Qeyd olunub ki, hazırda Azərbaycan 73 ölkəyə qida və kənd təsərrüfatı məhsulları göndərir. Onun sözlərinə görə, ötən il xarici bazarlara 914 min ton bitkiçilik məhsullarını özündə ehtiva edən məhsullar ixrac olunub: “İxrac elədiyimiz məhsulların göstəriciləri dünyanın istənilən bazarlarında özünə yer tapa bilməlidir. Bu məqsədlə də hazırda ölkədə ən vacib məsələlərdən biri heyvan sağlamlığının təmin olunmasıdır. Azərbaycanın quş qripi və xırdabuynuzlu heyvanların taun xəstəliyindən azad ölkə statusunu əldə etməyi, həmin məhsulların dünyanın bir sıra ölkələrinə ixrac olunmasına gətirib çıxarıb”.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov “Caspian Agro Week”in kiçik və orta biznes subyektləri üçün yaratdığı imkanlardan bəhs edib, sərgilərin əhəmiyyətini vurğulayıb. Kiçik və orta biznes subyektlərinin satış imkanlarının genişləndirilməsinin məhsul və xidmətlərin tanıdılmasına öz töhfəsini verdiyini diqqətə çatdıran O.Məmmədovun sözlərinə görə, 2018-ci ildən etibarən KOBİA-nın 2 mindən çox kiçik və orta sahibkarlıq subyektlərinin müxtəlif sahələrdə ixtisaslaşmış yerli və xarici sərgilərdə iştirakına dəstək olub.

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev deyib ki, bu kimi sərgilər qeyri-neft-qaz sektorunun inkişafına və ixrac imkanlarının genişləndirilməsinə öz töhfəsini verir. “Caspian Agro Week” və “InterFood Azerbaijan” sərgiləri kənd təsərrüfatı və qida istehsalı sahələri üzrə məhsulların tanıdılması üçün mühüm platforma rolunu oynadığını bildirən icraçı direktorun sözlərinə görə, bu ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 862 milyon dollar təşkil edib.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat builki sərginin aqro-ərzaq sektoru üçün mühüm bir dövrə təsadüf etdiyini vurğulayıb. Onun sözlərinə görə, təchizat zəncirlərindəki problemlər və iqlim dəyişiklikləri fonunda dayanıqlı, innovativ və özünü təmin edən kənd təsərrüfatının əhəmiyyəti daha da artır. FAO rəsmisi deyib ki, sərginin builki proqramı da FAO-nun mandatı və Azərbaycanın prioritetləri ilə uyğunluq təşkil edir.

İqlim dəyişikliyinin fermerlər üçün ciddi çağırışlar yaratdığını bildirən nümayəndə deyib: “Buna görə səmərəli su istifadəsi, sağlam torpaqlar, rəqəmsal alətlər və müasir yanaşmalar artıq seçim deyil, zərurətdir. “Caspian Agro Week” innovasiyaların praktik həllərə çevrilməsində mühüm rol oynayır. Azərbaycanda FAO-nun hökumətlə əməkdaşlığı ildən-ilə güclənir. Birgə layihələr çərçivəsində suvarma sistemlərinin təkmilləşdirilməsi, dayanıqlı torpaq və su idarəçiliyi, kooperativlərin gücləndirilməsi və fermerlərin təlimləndirilməsi istiqamətində işlər həyata keçirilir. Bu təşəbbüslər həm məhsuldarlığın artırılmasına, həm də kənd icmalarının inkişafına xidmət edir”.



Mərasimdən sonra sərgi iştirakçıları və qonaqlar VIP tura qoşulublar.

Qeyd edək ki, regionun kənd təsərrüfatı və qida sənayesi üzrə ən böyük sərgiləri olan “Caspian Agro Week” və “InterFood Azerbaijan” müvafiq sahələrdə fəaliyyət göstərən bütün iştirakçıları bir araya toplayan ilin vacib hadisələridir. Ötən illər ərzində sərgilər etibarlı və tanınan milli brend olmaqla yanaşı, dünyanın aparıcı beynəlxalq tədbirləri sırasına daxil olaraq, qlobal sərgi təqvimində layiqli yerini tutub.

Kənd təsərrüfatı və qida sənayesi üzrə regionun ən nüfuzlu tədbirinə və milli brendə çevrilmiş “Caspian Agro Week” və “InterFood Azerbaijan” aqrar-qida sərgiləri bu il 45 ölkədən 447 şirkəti bir araya toplayıb. Mayın 8-dək davam edəcək sərgilərdə tətbiq olunan yeniliklərdən biri də “InterFood Azerbaijan” sərgisi vahid məkanda – Bakı Ekspo Mərkəzinin 4-cü pavilyonunda keçirilməsi ilə bağlıdır.

Hər il Azərbaycanın müxtəlif regionlarının ənənəvi olaraq bu fermerləri üçün sərgiyə turlar təşkil olunur. Təşviq edilən təcrübə mübadiləsi istehsalın keyfiyyətinin yüksəldilməsinə və kənd yerlərində yaşayış şəraitinin yaxşılaşdırılmasına kömək edir. Builki sərgidə 51 bölgədən 500-dən çox fermer iştirak edir. Bu da onlara ən son sənaye yenilikləri və beynəlxalq təcrübə ilə tanış olmaq imkanı yaradacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Hənifə Məlikova-Zərdabi – 170*

# Azərbaycanın ilk maarifçi qadını

## *O həm də milli ziyalı xanımların anası fəxri adını qazanmışdı*

**Azərbaycanın ilk maarifçi qadını, böyük Həsən bəy Zərdabinin həyat yoldaşı və silahdaşı Hənifə Məlikova-Zərdabinin anadan olmasının 170-ci ildönümü tamam olur. 1856-cı il mayın 6-da Şimali Qafqazın Nalçik şəhərində qədim türk toplumlarından olan balkarların kübar ailəsində dünyaya göz açmış Hənifə Aslan bəy qızının taleyi Tiflisdə gimnaziya təhsilindən sonra bütövlükdə Azərbaycanla bağlı olub. O, Azərbaycan qadınının təhsil uğrunda mübarizəsinin ilk və ən güclü simalarındandır.**

Türk qadınının əsarətdən xilas yolunu sivil təhsildə görən Hənifə xanım qadının oxuyub bilik qazanmasının vacibliyini göstərərək deyirdi: "Əgər kişi ailənin başçısıdırsa, qadın onun zəmini, bünövrəsidir. Ailə ocağı ilə bağlı bütün qayğılar, ilk növbədə isə uşaqların tərbiyəsi qadının üzərinə düşür. Əgər müsəlman ana savadsız və cahildirsə, o zaman verdiyi tərbiyə nə olacaq? İmkanlı müsəlmanlar bu həqiqəti yaxşı başa düşürlər. Ona görə də ya savadlı qadınlarla evlənməyə can atır, ya da övladlarının təlim-tərbiyəsi üçün dayələr, quvernantlar tuturlar. Sadə xalq isə aydın məsələdir ki, bunu edə bilmir. Gələcəyimiz naminə biz oğlanlarla birlikdə qızlarımızın da təhsil almalarının qayğısına qalmalıyıq".



Hənifə xanım təhsilin əhəmiyyətini hələ ailə mühitində anlamışdı. Atası Aslanbəy Abayevin 1862-ci ildə qızı Hənifəni Tiflisə, Müqəddəs Nina qızlar gimnaziyasında oxumağa göndərməsi həmin dövr üçün cəsarətli qərar idi. Çünki o dövrdə müsəlman ailələrində qızların təhsil alması, xüsusilə də ailədən uzaqda, pansion tipli məktəbdə oxuması nadir və bəzən də qəbul edilməyən bir addım idi. Qapalı pansion tipli təhsil müəssisəsi olan Müqəddəs Nina məktəbində qızlara rus dilində dünyəvi biliklər verilirdi, onların formalaşması, sosial bacarıqlar qazanması da əsas məqsədlərdən idi. Hənifə xanım və onunla birlikdə oxuyan xalası qızı Fuza dünyəvi təhsil yolunu seçən ilk qafqazlı müsəlman qızlardılar.



Onillik təhsilini 1872-ci ildə başa vuran Hənifə xanım müəllimlik etmək üçün əlavə pedaqoji kurs keçməli idi. Həyatını xalqın maariflənməsinə həsr etmiş, milli mətbuatımızın və teatrın banisi Həsən bəy Zərdabi ilə tanışlığı şəxsi həyatında yeni mərhələnin başlanğıcı olur. Bu tanışlıq eyni ideallar uğrunda iki maarifçi insanın birgə missiyasını həyata keçirmək üçün fürsətə çevrilir. 1873-cü ildən taleyini Bakı ilə bağlayan Hənifə xanım öz evində azərbaycanlı müsəlman qızlar üçün kiçik məktəb yaradır, qızlara yazıb-oxumaq və rus dili öyrədir.

Hənifə xanım və Həsən bəy qızlar üçün pansionat tipli məktəb açmaq, onların sistemli şəkildə təhsil almasına şərait yaratmaq istəyirdilər. Lakin maddi çətinliklər səbəbindən bu ideya reallaşmır, "Əkinçi" qəzetinin nəşrə başlamasından sonra ailənin bütün maliyyə imkanları maarifçilik fəaliyyətinə yönəlir. Hənifə xanım o illəri xatırlayaraq yazırdı: "Qəzet cəmiyyəti hərəkətə gətirmişdi. Həsən bəy yeni başlayan müxbirlərə və qəzetin əməkdaşlarına olduqca həssas yanaşırdı. Çox vaxt aldığı zəif məqalələri ehtiyatla sahibinə qaytarıb onun nöqsanlarını başa salırdı".

Maarifçilik ideyaları uğrunda mübarizədə qarşılarına çıxan çətinliklər səbəbindən ailənin məcburi "mühacirəti" düz 16 il davam edir. Lakin bu ağır dövr Hənifə xanımın fəaliyyətini dayandırmır, Zərdabda yaşadığı illərdə o, öz mənzilində uşaqlara dərs deyir, savadsızlığın hökm sürdüyü kəndlərdə ev-ev, oba-oba gəzərək qadınlara yazıb-oxumaq, biçib-tikmək öyrədir. Mübariz, maarifçi xanım rus dilindən tərcümə etdiyi nağılları qadınlara və uşaqlara danışır, eyni zamanda, tibbi maarifçilik işinə də böyük önəm verir. Uşaqları peyvənd edir, insanlara gigiyena və sağlamlıqla bağlı biliklər ötürür, Zərdabda 132 nəfəri kor olmaqdan xilas edir.

1896-cı ildə Həsən bəy Zərdabi Bakı qubernatoruna müsəlman qızlar üçün rus-müsəlman məktəbinin yaradılması ilə bağlı rəsmi müraciət edir və bu təşəbbüs müsbət qarşılanmır. Ciddi mübarizədən sonra xeyriyyəçi, milyonçu Hacı Zeynalabdin Tağıyevin maddi və mənəvi dəstəyi sayəsində 1901-ci il sentyabrın 7-də Azərbaycanda ilk rəsmi qız məktəbi fəaliyyətə başlayır. Məktəbin Himayədarlar Şurasına Hacı Zeynalabdin Tağıyev rəhbərlik edir. Sona Tağıyeva müavin, Hənifə Məlikova isə məktəbin müdiri və rus dili müəllimi vəzifəsinə təyin edilir. Birinci il 58, növbəti ildə isə 83 şagird təhsil alır. 20 nəfər imkansız ailənin övladı bütün təhsil ödənişlərindən azad edilir. Şagird sayının artması və məktəbin genişlənməsi Hənifə xanımın üzərinə daha böyük məsuliyyət qoyur, bir müddət sonra rus dili müəllimliyindən ayrılaraq bütün diqqətini məktəbin idarə olunmasına yönəldir.



Sovet hakimiyyəti illərində də Hənifə xanım sevimli işindən ayrılmır, Azərbaycan SSR Xalq Maarifi Komissarlığında məsul vəzifələrdə çalışaraq təhsil sisteminin qurulması və inkişafında yaxından iştirak edir. Yarım əsrdən artıq davam edən müəllimlik və ictimai fəaliyyətini 1925-ci ildə yekunlaşdırarkən yazdığı fikirlər onun missiyasını ən aydın şəkildə ifadə edir: "Həyatımın məqsədi hüquqları uğrunda və istismara qarşı mübarizədə insanlarımızın, ilk növbədə isə türk qadınlarının mədəni səviyyəsini yüksəltmək olub və bu gün də dəyişməz olaraq qalır. Xoşbəxtəm ki, türk qadınının əsarətdən xilas yolunun üfüqlərinin açıldığı günlərə qədər yaşamaq nəsibim oldu".

1929-cu ildə 73 yaşında Bakıda dünyasını dəyişən Hənifə Məlikova-Zərdabinin adı Azərbaycanda qadın azadlığının, təhsil hüququnun və milli maarifçiliyin rəmzi kimi yaşayır. Onun həyat yolu göstərir ki, bir insanın ideayaları bütöv bir cəmiyyətin gələcəyini dəyişə bilər. Hənifə xanımın açdığı yol bu gün də Azərbaycan qadınının elmə, azadlığa və inkişafa doğru addımlarında öz əksini tapır.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən XQ-yə bildirildi ki,** "Gənc qızların təhsilinə dəstək" layihəsi Hacı Zeynalabdin Tağıyevin əsasını qoyduğu "Qızlar Məktəbi"nin 120 illik yubileyi və Beynəlxalq Qızlar Günü münasibətilə həyata keçirilir:

– Layihənin əsas məqsədi cəmiyyətin diqqətini qızların təhsilinə yönəltmək, xüsusilə regionlardan və həssas sosial qruplardan olan gənc qızların ali təhsil imkanlarından yararlanmasına real dəstək göstərməkdir. İlk il sahibkar qadınlar və müxtəlif şirkətlər sosial məsuliyyət nümayiş etdirərək hər biri bir tələbə qızın təhsilinə dəstək verməyi öhdələrinə götürdülər. 2022-ci ildən etibarən layihə Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsilin İnkişafı Fondu ilə əməkdaşlıq çərçivəsində daha sistemli şəkildə davam etdirildi.

2023-cü ildən isə layihənin daha mühüm mərhələsi başladı və Hənifə Məlikova-Zərdabinin adını daşıyan "Qızların təhsilinə dəstək" təqaüd proqramı təsis edildi. Bu, simvolik baxımdan böyük əhəmiyyət daşıyırdı. Çünki bir zamanlar qızların təhsil hüququ uğrunda mübarizə aparan Hənifə xanımın adı bu gün yeni nəslin təhsilinə dəstək verən bir proqramda yaşayır.

Təqaüdə namizədlər regionlardan gələn, həssas sosial qrupa aid və ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərən qızlar arasından seçilir. Kimya mühəndisliyi, informasiya texnologiyaları, aerokosmik mühəndislik, informasiya təhlükəsizliyi, kompüter elmləri, geologiya və geofizika kimi sahələrə qəbul olan tələbə qızların dəstəklənməsi əmək bazarında qadınların rolunun gücləndirilməsi baxımından mühüm addımdır. Layihənin nəticələrinə əsasən ötən il 93 nəfər bu təqaüd proqramından yararlanıb, son beş il ərzində isə ölkənin müxtəlif regionlarından 238 gənc qız dəstək alıb.

Ötən il reallaşan "Məzun Günü" layihəsi də xüsusi əhəmiyyət daşıdı. 2021-ci ildə yüksək balla ali məktəblərə qəbul olmuş 12 tələbə qız və "Sən tək deyilsən" layihəsi çərçivəsində dəstəklənən 3 şəhid xanımının məzuniyyəti qeyd olundu. Ümumilikdə, 15 məzun bu proqramın real nəticələrindən bəhrələndi. Cari ildə növbəti məzun gününün keçirilməsi nəzərdə tutulur.

Layihənin önəmli tərəflərindən biri də odur ki, təqaüd proqramı yalnız maliyyə dəstəyi ilə məhdudlaşmır, iştirakçılar müxtəlif təcrübə proqramları, peşəkar təlimlər və maarifləndirici görüşlərdən də faydalanırlar. Bu layihə bütövlükdə cəmiyyətin gələcəyinə yatırım edir. Azərbaycan maarif tarixində Həsən bəy və Hənifə xanım Zərdabilərin və Hacı Zeynalabdin Tağıyev kimi simaların başlatdığı yol bu gün dövlət dəstəyi ilə davam edir və yeni nəsil qızların həyatına işıq saçır.

Tarixdə elə qadınlar var ki, onlar istiqlal mücahidləri kimi ön sıralarda gələcək nəsillərin taleyinə də işıq salır, mübarizəsi, savadı və cəsarəti ilə yüzlərlə, minlərlə qızın həyat yoluna çıraq olurlar. Hənifə xanım Abayeva-Məlikova da təkcə Azərbaycanın deyil, bütövlükdə, türk xalqlarının qadın təhsili tarixində şərəfli yer tutmuş ziyalı qadınlarımızdandır. Onun arzu və əməlləri, maarifçilik irsi, nurlu xatirəsi türk qadınının tərəqqi yoluna çıxmasına işıq salır.

***Ləman TƏHMƏZ***
***XQ***

*Qərbi Azərbaycana Qayıdış*

**Ermənistanın Ağverən istirahət zonasında Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə delimitasiya komissiyalarının 13-cü iclası keçirilib. Görüşdə tərəflər sərhədin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri ətrafında müzakirələri davam etdiriblər. Rəsmi nümayəndə heyətlərinin müzakirələri ilə paralel olaraq, Ağverəndə hər iki ölkədən olan iş adamları da bir araya gəliblər. İclasdan sonra Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətinin korteji Ağverən ərazisini tərk edib. Oxucular üçün maraqlıdır ki, Ağverən istirahət zonası Ermənistan Respublikasının inzibati ərazisi baxımından harada yerləşir?**

# Yeni Bayazidin Ağverən kəndi

## *Azərbaycan–Ermənistan hökumət heyətləri ötən günlərdə burada görüşdü*



Qeyd edək ki, Ağverən toponiminin komponentlərini təşkil edən "ağ" və "verən" hər bir azərbaycanlı üçün anlaşıqlı sözdür, mənaları başadüşüləndir. Bəs bu kəndin tarixi barədə nə bilirik? Yeri gəlmişkən, apardığımız araşdırma nəticəsində bu qənaətə gəlirik ki, "verən" dilimizə fars dilindən keçən fars mənşəli "viran" sözünün dəyişdirilmiş fonetik formasıdır ki, ermənişünaslıq, obrazlı ifadə ilə desək, kələfin ucunu bir neçə dəfə dolaşdırıb. "Viran" (ويران) sözünün əsli Orta fars dilində (pəhləvi dili) eyni mənada işlənən "vīrān" sözünə əsaslanır və "xarab, uçuq, yıxıq, dağılmış, bərbad" mənalarını ifadə edir. Klassik ədəbiyyatda və Azərbaycan dilində həm fiziki dağıntı, həm də məcazi mənada (kədərli, məhzun) işlənir.

*Şamaxıda pristav Cəbrayılov sahibsiz və fəqir bir müsəlman övrətinin evini viran etdi.*

**C.Məmmədquluzadə;**

*Könlüm quşu qanad çalmaz,*
*sənsiz bir an, Azərbaycan!*
*Xoş günlərin getməz müdam*
*xəyalımdan Azərbaycan!*
*Səndən uzaq düşsəm də*
*mən eşqin ilə yaşayıram!*
*Yaralanmış qəlbim kimi,*
*qəlbi viran Azərbaycan!*

**Məhəmməd Hüseyn Şəhriyar**

Əslində, Ağverən yaşayış məntəqəsinin ilkin adı Ağörən olub. Ağörən XIX əsrdə İrəvan quberniyasının Yeni Bayazid qəzasının, sovet dönəmində, yəni Ermənistan SSR zamanında Axta (Hrazdan) rayonunun, 1991-ci ildə yaranan Ermənistan Respublikasının Kotayk vilayətinin inzibati ərazi vahidlərindən biri olaraq qeydə alınmışdır. Ağörən Zəngi çayının sağ qolu olan Dəllər çayının sahilində, Zəncirli dağının ətəyində, Ərzəkənd kəndindən 10 kilometr şimal-qərbdə yerləşirdi. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftər"ində Ağörən məzrəsi adında əksini tapır və İbrahimin adına olan timar kimi Ortaviran kəndi və Ağörən məzrəsinin illik gəlirinin 3.000 ağçadan ibarət olduğu qeyd edilir . Erməni mənbələrində tarixi həqiqət bir daha saxtalaşdırılaraq Ağörən toponimini "Ağverən" formasında göstərilir. Ağörən kəndində 1831-ci ildə 22, 1873-cü ildə 243, 1886-cı ildə 302, 1897-ci ildə 307, 1908-ci ildə 416, 1914-cü ildə 762, 1916-cı ildə 390 nəfər yalnız azərbaycanlı yaşamışdır. 1918-ci ildə azərbaycanlılar kənddən ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. 1920-ci ilin 29 noyabrında indiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə qayıda bilmişlər. Kənddə 1922-ci ildə 64, 1926-cı ildə 93, 1931-ci ildə 129 nəfər azərbaycanlı yaşamışdır. Erməni müəllifi C.Qorqudyanın 30-cu illərdə çap etdirdiyi kitabında bu barədə ətraflı məlumat verilir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 nömrəli, 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 nömrəli qərarları ilə Qərbi Azərbaycanın digər bölgələrində yaşayan azərbaycanlılar kimi, Axta rayonunun Ağörən kəndində yaşayan azərbaycanlılar da öz ata-baba torpaqlarından deportasiya edilmişlər. Yaşayış məntəqəsi kimi 1950-1960-cı illərdə Ağörən kəndi ləğv edilərək istirahət zonasına çevrilmişdir.

Toponim türk dilində "rəng" mənasında işlənən "ağ" sözü ilə (torpağın süxurunun rəngini bildirir) qədim türk dilində "uçulmuş, dağılmış, xaraba" mənasında işlənən "örən" sözünün (Радлов В.В. Опыт словаря тюркских наречий, т.l, ч. 1-2, СПб, 1893, с.1219; Necdet Sevinç. Gaziantep'te yer adları ve türk boylan, aşiretleri, türk oymakları. - Türk dünyası araştırmaları, 1983, № 26, s.105) birləşməsindən əmələ gəlib, "kiçik xarabalıq yanında olan kənd" mənasını verir. "Türklər sahib olduqları ölkələrin adlarını dəyişdirmədikləri kimi, qədim zamanlardan qalma kənd və ya şəhər xarabalıqlarının yaxınlarında yerləşdikləri zaman bu xarabalara örən və ya viran adlarını vermişlər. Bu adlara ya mənsub olduqları əşirətlərin (tayfaların - İ.B.), oymaq və ya obanın adını, ya da torpağın rənginə görə ağ, qara, qızıl kimi sifətlər əlavə edərək yeni adlar yaratmışlar".

Onu da qeyd etmək yerinə düşər ki, Qərbi Azərbaycan ərazisində "örən" sözü ilə formalaşan xeyli sayda qədim toponimlər olmuşdur. 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftər"ində qeydə alınmış bir neçə toponimi qeyd etməklə fikrimizə aydınlıq gətirmiş olarıq. Məsələn, Qara örən, Görücüörən, Qaraca örən. Həmçinin "viran" sözü ilə də düzələn kifayət qədər toponim mövcud olmuşdur. Məsələn, Qızılviran, Qaraviran və s.

Yekun olaraq belə bir fikrə də gəlirik ki, fars dilində "xarab, uçuq, yıxıq, dağılmış, bərbad" mənasında işlənən "viran" sözü, qədim türk dilində eyni məna bildirən "örən" sözünün farslaşdırılmış variantıdır.

***İbrahim BAYRAMOV,***
***ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor***

# Türkiyədə Azərbaycan Kinosu Günləri

**Türkiyədə keçirilən Azərbaycan Kinosu Günləri silsilə tədbirlərlə davam edir.**




Kino günlərinin açılış mərasimi və ilk film nümayişi İzmir şəhərində Egey Universitetində olub. Bakı ilə qardaşlaşmış şəhərin tamaşaçılarına yeni Azərbaycan filmi olan "Nargin: Sonadək sirli" təqdim edilib. Bədii-sənədli ekran əsəri Azərbaycan tarixinin qardaş Türkiyə ilə bağlı az öyrənilmiş səhifələrindən birinə günümüzdən baxmağa imkan yaradır.

Filmdə xüsusilə Birinci Dünya müharibəsi dövründə Bakı yaxınlığında – Xəzər dənizindəki Nargin adasında yaranmış müdhiş mənzərə orada saxlanılan yaralı Osmanlı əsirlərinin ağır durumu əks olunub. Xalqımızın ən çətin tarixi dönəmlərdə belə türk qardaşlarına kömək etmək üçün nümayiş etdirdiyi fədakarlıq, xronikada ön plana çəkilib, dostluq və qardaşlıq tellərinin ən ağır sınaqlardan güclənərək çıxması çağdaş nəsillərə təqdim edilib.

Kino günlərində "Buta", "Cənnət yuxusu" və "Zəfər rəqsi" filmləri də nümayiş olunacaq.

***XQ***

# "Kitabxanaşünaslığın aktual problemləri"

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Kitabxanaşünaslığın aktual problemləri" mövzusunda II respublika elmi konfransı işə başlayıb.**



Öncə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, əziz xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Mərasimi giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli konfransın ulu öndər Heydər Əliyevin Azərbaycan kitabxana işinin tərəqqisi naminə göstərdiyi misilsiz xidmətlərə, müasir kitabxana quruculuğunun ilkin mərhələsində bu sahənin canlandırılmasına verdiyi töhfələrə həsr olunduğunu qeyd edərək, konfransın əhəmiyyətini yüksək qiymətləndirib.

Akademik İsa Həbibbəyli Ulu öndərin milli dövlətçilik tariximizdəki xilaskarlıq rolunu vurğulayaraq, dahi rəhbərin ölkənin ən çətin zamanında Azərbaycanda daxili sabitliyi bərqərar etdiyini və uzaqgörən xarici siyasəti sayəsində dövlətin prioritet istiqamətlərini dəqiqliklə müəyyənləşdirdiyini diqqətə çatdırıb.

MEK-in direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov "Heydər Əliyev və Azərbaycanda kitabxana işinin inkişafı" adlı məruzəsi ilə çıxış edib. Hüseyn Hüseynov MEK-in II Respublika konfransında iştirak edən hər kəsi salamlayaraq qeyd edib ki, Azərbaycan xalqının zəngin mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsində kitabxanalar mühüm rol oynayıb və bu sahənin inkişafı birbaşa Ulu öndərin adı ilə bağlı olub.

Konfransda Prezident Kitabxanasının direktoru, filologiya elmləri doktoru, professor Afət Abbasova, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı filologiya üzrə fəlsəfə doktoru, dosent Ələmdar Bayramov, YAP Yasamal rayon təşkilatının məsləhətçisi Fuad Həbibzadə çıxış edərək kitabxanaşünaslıq elminin tədqiqinə, aktual problemlərinin müzakirəsinə ehtiyacın olduğunu və bu sahənin inkişafına töhfəsini verəcəyini bildiriblər.

***Q.YUSİFOĞLU***
***XQ***

*6 May İnsan Alverinə qarşı Mübarizə Günüdür*

# Qanun və əxlaq namus və ləyaqətin keşiyində

**İnsan alveri bu gün təkcə hüquq pozuntusu deyil, insan ləyaqətinə qarşı yönəlmiş ən ağır cinayətlərdən biri kimi beynəlxalq ictimaiyyətin və dövlətlərin qarşısında ciddi çağırış olaraq qalır. Bu çağırışlara cavab verən ölkələrdən biri olan Azərbaycanda da insan alverinə qarşı mübarizə dövlət siyasətinin mühüm istiqamətlərindən biridir.**




Azərbaycanda insan alverinə qarşı mübarizənin sistemli və institusional əsasları 2000-ci illərin əvvəllərində formalaşdırılıb, bu istiqamətdə mühüm tarixi addım 6 may 2004-cü il tarixində atılıb. Prezident İlham Əliyev tərəfindən imzalanmış müvafiq sərəncamla “Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı” təsdiq edilib. Həmin sənəd ölkədə insan alverinə qarşı mübarizənin hüquqi, institusional və təşkilati əsaslarını formalaşdırıb, dövlət qurumlarının koordinasiyalı fəaliyyətinə yol açıb. Bu qərar, eyni zamanda, insan hüquqlarının qorunmasını dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirib.

Məhz bu strateji sənədin ardınca, 2009-cu ildən etibarən 6 may tarixi Azərbaycanda İnsan Alverinə qarşı Mübarizə Günü kimi qeyd olunur. Bu təşəbbüs cəmiyyətin diqqətini insan alveri probleminə yönəltmək, ictimai maarifləndirməni gücləndirmək və risk qruplarının müdafiəsini artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Daxili İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi bu istiqamətdə əsas icraedici qurumlardan biridir.

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Mətbuat Xidmətinin əməkdaşı polis baş leytenantı Lumu İsrəfillinin** sözlərinə görə, son illər Daxili İşlər Nazirliyi tərəfindən aparılan sistemli mübarizə nəticəsində insan alveri cinayətlərinə qarşı nəzarət və aşkarlama mexanizmləri daha da təkmilləşdirilib: “Qanunvericiliyə əsasən zor tətbiq etmək, hədə-qorxu və ya digər məcburetmə vasitələri, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etmək və bu kimi digər üsullarla istismar məqsədilə insanların cəlb edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi insan alverinin predmetini təşkil edir və qanunla qadağandır”.

L.İsrəfilli bildirdi ki, Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi tərəfindən insanın istismarı ilə nəticələnən hüquqpozmaların vaxtında qarşısının alınması və həmin əməllərə yol verən şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində mütəmadi tədbirlər görülür. Bu məqsədlə Baş İdarənin fasiləsiz olaraq fəaliyyət göstərən “152” qaynar xəttinə daxil olmuş hər bir zəng araşdırılmaqla konfidensiallıq təmin olunur.

Polis əməkdaşları tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə insan alveri və məcburi əmək qurbanlarının müəyyənləşdirilməsi məqsədilə davamlı əməliyyat-axtarış tədbirləri həyata keçirilir, vətəndaşların insan alveri cinayətlərindən müdafiəsi təmin olunur, insan alveri qurbanları fiziki, psixoloji və sosial reabilitasiya tədbirləri ilə əhatə edilir: “Xüsusilə yetkinlik yaşına çatmayanların insan alverinin qurbanına çevrilməsinin qarşısının alınması diqqət mərkəzindədir. Bu istiqamətdə 15 yaşına çatmamış şəxsləri işə cəlbetmə, onları ictimai mənəviyyata zidd əməllərə sövq etmə, azyaşlıları küçə həyatına və dilənçiliyə məruz qoyma, erkən evliliyə daxil olmağa məcbur etmə kimi qanunazidd hallara qarşı nəzarət tədbirləri həyata keçirilir.

Eyni zamanda, respublikanın şəhər və rayonlarında insan alverinə qarşı mübarizə sahəsində maarifləndirmə işinin artırılması məqsədilə profilaktik tədbirlər təşkil olunur, insan hüquqları, uşaqların təhsildən yayınması və baxımsızlığı, uşaq nikahlarının qarşısının alınması, xüsusilə xarici ölkələrə əmək fəaliyyəti ilə məşğul olmaq üçün gedən vətəndaşların, eləcə də ölkə ərazisindən tranzit keçən və ölkəyə gələn əcnəbilərin insan alveri təhlükəsi barədə məlumatlandırılması təmin edilir”, - deyə Lumu İsrəfilli vurğuladı.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də bu mübarizədə sosial istiqamətin formalaşmasına xüsusi töhfə verir. Mövzu ilə bağlı **komitənin hüquq şöbəsinin baş məsləhətçisi Tural Hüseynzadə** açıqlamasında bildirdi ki, Azərbaycan Respublikasında bu sahədə həyata keçirilən tədbirlər əsasən milli fəaliyyət planları çərçivəsində qurulur. 2022–2024-cü illəri əhatə edən mövcud planın icrası davamlı şəkildə təmin olunmuş, hazırda isə 2026–2030-cu illər üzrə yeni milli fəaliyyət planı hazırlanaraq aidiyyəti qurumlarla razılaşdırılmış və hökumətə təqdim olunmuşdur. Yaxın zamanda təsdiqlənərək icraya yönləndirilməsi gözlənilir. Bu plan əvvəlki



sənədlə müqayisədə daha təkmilləşdirilib, yenilənib və dövlət qurumlarının üzərinə düşən öhdəliklər daha dəqiq şəkildə müəyyən edilib.

Risk qruplarına azyaşlı uşaqlar, gənc qadınlar, işsiz və sosial cəhətdən həssas insanlar, miqrantlar, təhsildən kənarda qalan şəxslər, ailədaxili zorakılıq qurbanları, baxımsız və valideyn himayəsindən məhrum uşaqlar, uşaq evlərində böyüyən şəxslər, eləcə də narkotik və alkoqol asılılığı olan və qeyri-rəsmi çalışan şəxslər daxildir. Bu qruplarla işin əsas məqsədi onların risklər barədə məlumatlandırılması, potensial təhlükələrin qarşısının alınması və sosial reabilitasiyalarının təmin edilməsidir”.

Komitə həm dövlət qurumları, həm də qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edərək maarifləndirmə kampaniyaları həyata keçirir. Bu tədbirlər çərçivəsində yerli səviyyədə müxtəlif görüşlər, təlimlər və məlumatlandırma sessiyaları təşkil olunur, həssas qruplarla birbaşa iş aparılır. Görülən bütün işlər üzrə mütəmadi olaraq rüblük və illik hesabatlar hazırlanır və ümumiləşdirilmiş şəkildə təqdim edilir.

Beləliklə, insan alverinə qarşı mübarizə bir dövlət siyasəti olmaqla yanaşı, həm də cəmiyyətin vicdan məsələsidir. Çünki hər xilas edilən insan taleyi təkcə bir fərdin deyil, bütöv bir cəmiyyətin qaranlığa qarşı qazandığı qələbədir. Bu gün biz bu faciələrə qarşı susmamağı seçsək, sabah daha çox taleyi xilas edə bilərik. Çünki insan ləyaqəti satıla bilməz - onu qorumaq isə hər birimizin borcudur.

*Nurəngiz ADİLQIZI*
*XQ*

*Beynəlxalq həyat*

# Atəşkəsi kim pozdu?

## *Yaxın Şərq savaşında növbəti cavabsız sual*

**Son günlər Amerika Birləşmiş Ştatları ilə İran arasında gərginliyin yeni fazaya keçdiyi müşahidə olunur. Beynəlxalq media bir suala cavab axtarır: atəşkəsi kim pozdu? Yayılan rəsmi açıqlamalara, peyk görüntülərinə əsaslanan təhlillərə və regional aktorların reaksiyalarına nəzər salsaq, bir-birini təkzib edən paralel həqiqətlərdən başqa bir şey görmək mümkün deyil.**

Məsələn, Ağ Evə yaxın mənbələrin və Pentaqon rəsmilərinin açıqlamalarında vurğulanır ki, son hücumlar birbaşa və ya dolayı şəkildə İran tərəfindən dəstəklənən qüvvələrin koordinasiyası ilə həyata keçirilib. ABŞ tərəfi regiondakı hərbi obyektlərə və logistika xətlərinə yönəlmiş raket və PUA hücumlarını atəşkəs rejiminin pozulması kimi təqdim edir. Vaşinqtonun yanaşmasına görə, Tehran həm də təsir dairəsində olan silahlı qrupların fəaliyyətinə görə məsuliyyət daşıyır. Tramp administrasiyasının arqumentasiyasında diqqət çəkən əsas məqam “inkar edilə bilən iştirak” konsepsiyasıdır. ABŞ rəsmiləri bildirirlər ki, İran regionda fəaliyyət göstərən proksi qüvvələr üzərində hərəkət edərək birbaşa münaqişəyə daxil olmadan təsirini saxlayır. Bu, xüsusilə İslam İnqilabı Keşikçiləri Korpusu ilə əlaqələndirilən şəbəkələrə istinadla əsaslandırılır. Pentaqonun son brifinqlərində qeyd olunur ki, hücumların texniki xüsusiyyətləri, istifadə olunan dron modelləri, raketlərin trayektoriyası və koordinasiya səviyyəsi bu əlaqəni gücləndirən dolayı sübutlar təqdim edir.

Tehran isə ittihamları qəti şəkildə rədd edir və hadisələrin təqdimatını tam fərqli çərçivədə qurur. İran rəsmilərinin açıqlamalarında vurğulanır ki, ölkə heç bir atəşkəs razılaşmasını pozmayıb və regiondakı silahlı qrupların fəaliyyəti “müstəqil müqavimət reaksiyasıdır”. İranın rəsmi mövqeyinə görə, ABŞ-ın bölgədə hərbi mövcudluğu və son dövrlər artan əməliyyat aktivliyi gərginliyin əsas səbəbidir. Bu kontekstdə Tehran Vaşinqtonu məqsədli şəkildə eskalasiya yaratmaqda, daha sonra bunu İranın üzərinə yükləməkdə itti-



ham edir. Son 48 saatın xronologiyası tərəflərin iddialarını tam təsdiqləməyə imkan vermir. Açıq mənbələrdə yayılan məlumatlara əsasən, ilk insidentlər regionda yerləşən ABŞ-la əlaqəli obyektlərə yönəlmiş zərbələrlə başlayıb. Lakin bu hücumların konkret olaraq hansı qrup tərəfindən həyata keçirildiyi və həmin qrupların Tehranla əlaqə səviyyəsi sübuta yetirilməyib. Eyni zamanda, ABŞ-ın cavab tədbirləri, xüsusilə seçilmiş hədəflərə qarşı həyata keçirilən hava zərbələri İran tərəfindən “atəşkəsin faktiki pozulması” kimi qiymətləndirilib.

Regional aktorların reaksiyaları bu mənzərəni daha da mürəkkəbləşdirir. İsrail açıq şəkildə ABŞ-ın mövqeyini dəstəkləyərək İranın dolayı fəaliyyətlərini birbaşa təhdid kimi qiymətləndirir. İsrail rəsmilərinə görə, Tehran regionda sabitliyi sistemli şəkildə pozur və son hadisələr bunun davamıdır. Digər tərəfdən, Türkiyə və bəzi ərəb ölkələri daha ehtiyatlı mövqe tutaraq tərəfləri qarşılıqlı ittihamlardan çəkinməyə və faktların beynəlxalq səviyyədə araşdırılmasına çağırır.

Avropa İttifaqı daxilində yanaşma daha maraqlıdır. Aİ rəsmiləri bildirirlər ki, mövcud məlumatlar əsasında qəti nəticə çıxarmaq mümkün deyil və hər iki tərəfin ritorikası vəziyyəti gərginləşdirir. Diplomatik dairələrdə səsləndirilən fikirlərə görə, hazırkı şəraitdə əsas problem atəşkəs mexanizminin özü ilə bağlıdır. Yaxud onun icrasına nəzarət edən effektiv beynəlxalq mexanizmlərin olmaması ilə.

Hadisələrin informasiya müstəvisində təqdimatı da diqqətəlayiqdir. ABŞ mediası əsasən İranın dolayı məsuliyyətini ön plana çıxarır, İran mediası isə hadisələri Vaşinqtonun planlı təxribatı kimi təqdim edir. Sosial platformalarda yayılan görüntülər və analizlər isə tez-tez selektiv şəkildə təqdim olunur, bu da obyektiv mənzərənin formalaşmasını çətinləşdirir. Analitiklər qeyd edirlər ki, müasir münaqişələrdə informasiya axını, ən azı, hərbi əməliyyatlar qədər təsir gücünə malikdir. Hərbi ekspertlərə gəldikdə, onlar məsələyə texniki nöqteyi-nəzərdən yanaşır. Onların fikrincə, atəşkəsin pozulması anlayışı klassik müharibə modellərindən fərqli olaraq artıq daha geniş interpretasiya olunur. Əgər əvvəl bu, birbaşa dövlətlərarası əməliyyatlarla bağlı idisə, indi qeyri-dövlət aktorlarının fəaliyyəti də eyni kateqoriyaya daxil edilir. Bu halda məsuliyyətin müəyyənləşdirilməsi xeyli çətinləşir və siyasi interpretasiyalara geniş imkan yaranır.

*

Mövcud faktların müqayisəli təhlili göstərir ki, tərəflərin hər biri öz strateji məqsədlərinə uyğun narrativ formalaşdırır. ABŞ üçün əsas hədəf İranın regional təsirini məhdudlaşdırmaq və onu beynəlxalq səviyyədə daha da təcrid etməkdir. İran isə əksinə, özünü müdafiə mövqeyində təqdim edərək həm daxili auditoriyanı səfərbər edir, həm də beynəlxalq təzyiqləri balanslaşdırmağa çalışır. Bu qənaətə gəlmək olar ki, sübutlar dolayı xarakter daşıyır, tərəflərin açıqlamaları isə bir-birini istisna edir. Reallıq isə böyük ehtimalla müxtəlif versiyaların kəsişmə nöqtəsində gizlənir. Amma bir şey dəqiqdir: məsələ nə tam şəkildə Vaşinqtonun iddia etdiyi, nə də Tehranın təqdim etdiyi kimidir.

Xülasə, ümumi mənzərə nə ABŞ-ın haqlı, nə də İranın günahsız olduğunu göstərir. Çünki atəşkəs bir anda pozulmayıb, qarşılıqlı etimadsızlıq, paralel təzyiq mexanizmləri və nəzarətdən çıxan proseslər nəticəsində tədricən aşınıb. Və bəlkə də bu qarşıdurmanın ən dəqiq izahını bədii ədəbiyyat çoxdan verib. Fyodor Dostoyevski “Karamazov qardaşları” əsərində yazırdı ki, insan bəzən həqiqəti tapmaqdan çox, haqlı olduğunu sübut etməyə çalışır. ABŞ–İran qarşıdurmasının bugünkü mənzərəsində də, sanki, eyni psixoloji paradoks görünür. Tərəflər faktlar əvəzinə öz narrativlərini müdafiə edirlər...

*Nəzrin ELDARQIZI*
*XQ*

## “Bakı Yastıq Zavodu” ASC səhmdarlarının nəzərinə!

27 iyun 2026-cı il saat 18.00-da “Bakı Yastıq Zavodu” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
1. Təftiş komissiyasının 2025-ci il üzrə hesabatı.
2. İdarə heyətinin 2025-ci il üzrə hesabatı.
3. Digər məsələlər.

**Ünvan:** *Bakı şəhəri, Keşlə qəsəbəsi, Abdulla Mirzəyev küçəsi 31.*

*İdarə heyəti*

## “Bakı Şərab-1” ATSC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 11.00-da “Bakı Şərab-1” ATSC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Heydər Əliyev prospekti 104 nömrəli ünvanda yerləşən binada keçiriləcəkdir.

Səhmdarlardan xahiş olunur ki, şəxsiyyəti təsdiqləyən sənədlə yığıncaqda iştirak etsinlər.

İllik hesabatla cəmiyyətin saytının elanlar bölməsində tanış olmaq mümkündür.

**web: bakuserab.az**
**Telefon:** *(012) 566-26-86.*

*“Bakı Şərab-1” ATSC-nin müşahidə şurası.*

## “ŞƏRAB-NƏQLİYYAT” ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 12.00-da “ŞƏRAB-NƏQLİYYAT” ASC səhmdarlarının növbədənkənar yığıncağı Bakı şəhəri, H.Əliyev prospekti 104 nömrəli ünvanda yerləşən binada keçiriləcəkdir.

Səhmdarlardan xahiş olunur ki, yığıncaqda şəxsiyyəti təsdiqləyən sənədlə iştirak etsinlər.

Telefon: *(055) 797-25-40.*

*“Şərab–Nəqliyyat” ASC-nin sədri*

## “CƏNUB” ASC səhmdarlarının nəzərinə!

“CƏNUB” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 11.00-da Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov küçəsi, 10T nömrəli ünvanda “Ellada” şadlıq sarayında keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**
1. 2025-ci ilin maliyyə hesabatının təsdiq edilməsi.
2. Digər məsələlər.

*İdarə heyəti*

## “Cənubtikintiservis” ASC səhmdarlarının nəzərinə!

19 iyun 2026-cı il saat 10.00-da Bakı şəhəri, Səbail rayonu, Gülbala Əliyev küçəsi, 25 nömrəli ünvanda “Cənubtikintiservis” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**
1. “Cənubtikintiservis” ASC-nin 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunları barədə hesabatı.
2. “Cənubtikintiservis” ASC-nin müşahidə şurasının tərkibinin və maliyyə-təftiş komissiyasının formalaşdırılması.

Növbəti ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu:** 012 491-00-30.

*“Cənubtikintiservis” ASC-nin baş direktoru*

## “Salyan – Taxıl”ASC səhmdarlarının nəzərinə!

“Salyan – Taxıl” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 27 iyun 2026-cı il saat 11.00-da keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**
1. Ümumi yığıncağın gündəliyinin təsdiq edilməsi.
2. Cəmiyyətin 2025-ci il üçün illik hesabatının təsdiq edilməsi.
3. Cari məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə Salyan şəhəri, 20 Yanvar küçəsindəki inzibati binada iş günləri saat 11.00-dan 16.00-dək tanış ola bilərlər.

**Əlaqə telefonu - Mobil:** *+ (994) 50-327-90-77.*
**Ünvan:** *Salyan şəhəri, 20 Yanvar küçəsi.*
**“Salyan – Taxıl” ASC-nin**
**İdarə Heyətinin sədri:** **M.H.Həsənov**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 78 (31047) 6 may 2026-cı il, çərşənbə

## İDMAN

### Nazir idmançılarla görüşüb



**Gənclər və idman naziri Fərid Qayıbov ötən ay beynəlxalq yarışlarda yüksək nəticələr əldə etmiş idmançılarla görüş keçirib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan İdman Akademiyasında təşkil olunan mərasimdə əvvəlcə "Azərbaycan Respublikasının idman ustası" adına layiq görülən idmançılara müvafiq vəsiqə və döş nişanları təqdim edilib.

Daha sonra Fərid Qayıbov idmançıların beynəlxalq arenalarda qazandıqları uğurları yüksək qiymətləndirərək onları və məşqçilərini təbrik edib. Nazir bildirib ki, mart ayı ərzində Azərbaycan Respublikasının Dövlət Himni 13 ölkədə səsləndirilib, idmançılarımız isə ümumilikdə 82 qızıl, 56 gümüş və 70 bürünc medal qazanıblar.

Mərasimdə beynəlxalq yarışlarda əldə olunan nəticələri əks etdirən videoçarx nümayiş etdirilib. Bir sıra idman növləri üzrə nümayəndələr isə iştirak etdikləri yarışlar və əldə etdikləri nailiyyətlər barədə məlumat veriblər.

### Misli Premyer Liqasında XXX tur



Misli Premyer Liqasında XXX tura yekun vurulub. Dünən "Karvan-Yevlax" "Neftçi"ni qəbul edib. Yevlax şəhər stadionunda baş tutan görüş bakılıların böyük hesablı qələbəsi ilə nəticələnib – 3:0.

Qonaqların heyətində İmad Faraj (31), Emin Mahmudov (50-p.) və Freddi Varqas (57) fərqləniblər.

Bu qələbə sayəsində "Neftçi" 50 xalla turnir cədvəlində 4-cü pilləyə – avrokubok zonasına yüksəlib. Sonuncu – 12-ci olan "Karvan-Yevlax"ın 14 xalı var.

Xatırladaq ki, daha əvvəl "Kəpəz" "Sumqayıt"ı (2:1), "İmişli" "Araz-Naxçıvan"ı (1:0) "Sabah" "Şamaxı"nı (3:0), "Zirə" "Qəbələ"ni (1:0), "Qarabağ" isə "Turan Tovuz"u (2:1) məğlub edib.

Qeyd edək ki, turnir cədvəlinə 75 xalla "Sabah" başçılıq edir. "Qarabağ" 62 xalla 2-ci, "Turan Tovuz" isə 56 xalla 3-cü pillədədir.

### Stolüstü tennis üzrə ölkə birinciliyi



**Dünən stolüstü tennis üzrə ölkə birinciliyinə start verilib. Stolüstü Tennis Federasiyasından verilən məlumata görə, "Şüa İdman Kompleksi"ndə keçirilən yarışda U19 və U15 yaş qruplarındakı idmançılar bacarıqlarını göstərirlər.**

4 gün davam edəcək birincilikdə paytaxt Bakı ilə yanaşı, müxtəlif şəhər və rayonlardan 120-dən artıq stolüstü tennisçi qələbə uğrunda mübarizə aparacaq. Qaliblər komanda, şəxsi, qoşa və qarışıq qoşa növlərində müəyyənləşəcək. Ölkə birinciliyində fəxri kürsüyə qalxan idmançılara Azərbaycan Gənclər və İdman Nazirliyinin diplom və medalları, həmçinin Azərbaycan Stolüstü Tennis Federasiyasının hədiyyələri təqdim olunacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Azərbaycan futbolu – 115*

# Dünyaşöhrətli futbol hakimimiz xatırlayırdı...

### "Hamı hədiyyədən də razı qalmışdı, Nizami Gəncəvini də tanımışdı"

**"1977-ci ildə Tunisdə keçirilən yeniyetmələr arasında birinci Dünya çempionatında mənə SSRİ hakimlərini təmsil etmək kimi yüksək etimad göstərilmişdi. Çempionatda ilk görüşüm Mərakeş–Suriya qarşılaşması oldu. Oyunu yaxşı keçirdim.**

Argentina–Avstriya görüşünü də idarə etdikdən sonra məni çempionatın mərkəzi matçlarından olan Tunis–İspaniya görüşünə hakim təyin etdilər. Bu, zalda elan olunanda alqış sədaları qopdu. Çox təəccübləndim, görəsən, alqışlar nəyə görədir. Demə, məni alqışlayanlar tunisli həmkarlarım imiş. Onlar istəyirmişlər ki, Tunis–İspaniya görüşünü məhz mən idarə edim. Nəyə görə? Bilmirəm. Yəqin, məni özlərininki hesab edirlərmiş.

Bu oyun ərəfəsində bir unudulmaz hadisə baş verdi. Tunisli hakimlərdən birinin toyu idi. Toya məni də dəvət etdilər. Dəvəti minnətdarlıq hissi ilə qəbul edib, axşam həmkarlarımla birlikdə toya getdim. Özümlə yaxşı bir hədiyyə də apardım. Hələ bir neçə il əvvəl Gəncədə yerli "Dinamo"nun oyununu idarə edərkən orada mənə üstündə Nizami Gəncəvinin şəkli olan gözəl xalça bağışlamışdılar. İndi həmin xalçanı Tunisə aparmışdım. Bu lap yerinə düşmüşdü. Axşam toyda xalçanı açıb, hədiyyəni təqdim edəndə hər yanı alqış sədaları bürüdü. Hamı hədiyyədən də razı qalmışdı, Nizami Gəncəvini də tanımışdı.

Bu toyun bir qəribə cəhəti də var idi. Tunis toylarında qonaqlar oturmurlar. Hamı 10-15 nəfər qrup halında dayanır və şənlənir. Bizim hakimlər qrupunda tamada olmağı gözlənilmədən mənə təklif etdilər. Deyəsən, bu işin öhdəsindən pis gəlmədim. Hiss edirdim ki, həmkarlarım öz doğma dilimdə dediyim sağlıqları başa düşməsələr də, səmimi qarşılayırlar.

Toyun bir əlamətdar cəhəti də bu idi ki, böyle gələn əslində gül-çiçək içində itib-batmışdılar. Ancaq qonaqlardan fərqli olaraq, onlar oturmuşdular. Sağlarında və sollarında isə iki-üç dəstə çalğıçı və xanəndə dayanmışdı. Bax, beləcə, toy çox maraqlı keçdi...".

### "95 min tamaşaçı, üstəlik də Şelest və onun "komandası"

"1968-ci il mövsümündə ilk oyunlarım Moskvada oldu: "Lokomotiv"–"Torpedo" Kutaisi, OMİK–"Zarya". Sonra isə gözlənilmədən təkcə turun yox, bütün çempionatın əsas görüşlərindən biri sayılan "Dinamo" Kiyev–"Torpedo" Moskva matçına dəvət aldım. Mən bunu eşidəndə qulaqlarıma inanmadım, çünki çox prinsipial oyun idi.

Köməkçilərim R.Adıgözəlov və Ə.Nağıbəyovla birlikdə Ukrayna paytaxtına gəldim. O zaman hər iki komandanın heyətində E.Streltsov, V.Bannikov, V.Turyançik, A.Bışovets, A.Puzaç, A.Kavazaşvili, M.Gerşkoviç, D.Pais, İ.Sabo kimi məşhur futbolçular çıxış edirdilər. Oyunun inspektoru N.Latışev idi. Stadiona 95 min nəfərə qədər tamaşaçı toplaşmışdı. Onlar buraya əsl bayram əhvali-ruhiyyəsi ilə gəlmişdilər. Biz meydançaya çıxdıqda tribunalarda elə bir uğultu qopdu ki... Əvvəlcədən mənə dedikləri kimi Sov.İKP MK Siyasi Bürosunun üzvü, Ukrayna KP MK-nın birinci katibi Şelest və respublikanın digər rəhbərləri mərkəzi tribunada idilər. 95 min tamaşaçı, üstəlik də, Şelest və onun "komandası". Bundan sonra dizlərin necə əsməsin?! Meydançaya çıxanda yenə də rəhmətlik anam ın mənə bağışladığı Quranı öpüb, cibimə qoydum. Bu həyəcanlı dəqiqələrdə onun köməyinə ümidim böyük idi.

Oyun çox gərgin keçirdi. 35-ci dəqiqədə Streltsov gözəl zərbə ilə hesabı açdı və birinci hissə torpedoçuların xeyrinə başa çatdı. Fasilədən sonra dinamoçular bu qolun nəinki əvəzini çıxdılar, hətta 88-ci dəqiqədə daha bir dəqiq zərbə ilə hesabda irəli çıxdılar. Hər iki qolun müəllifi Bışovets oldu.

Lakin görüşdən sonra məni məyusluq gözləyirdi. Nə üçün? Bu suala "Sovetski sport"un futbol icmalçısı Oleq Kuçerenkonun matçdan sonra dərc etdirdiyi qeydlərdə aydın cavab almaq olardı: "İkinci hissənin əvvəlində dinamoçuların qapısı ağzında kəskin vəziyyət yaranan zaman bir neçə oyunçu yıxıldı. Hakim haqlı olaraq bildirdi ki, qaydaları torpedoçular pozmuşlar. Sabo isə bundan sonra topu əlinə götürüb, onu var gücü ilə yerə yıxılmış, buna görə də müdafiəsiz qalmış moskvalı oyunçulara vurdu. E.Əzimzadə Sabonu yalnız yüngülcə məzəmmət etdi. Sabo, görünür, hakimin əhvali-ruhiyyəsindən istifadə edərək oyunun axırına yaxın özünü daha intizamsız apardı. Şalimov sağ cinahla hücum zamanı iki dinamoçu ilə toqquşduqdan və hakim moskvalının günahkar olduğunu bildirdikdən sonra Sabo topu əlinə götürüb, Şalimova yanaşdı və var gücü ilə ona vurdu. Torpedoçu ona qarşı kobudluq edən futbolçuya tərəf getdi. Bəs hakim? O, Şalimova öyüd-nəsihət verməyə başladı. Dərhal meydançadan qovulmalı olan Sabo isə cəzasız qaldı...".

Bu sətirlərlə razılaşmaya bilmərəm. Həqiqətən, Sabo kobud oynamışdı və buna görə onu meydançadan çıxarmalı idim. Mənə baha başa gələn həmin səhvi indiyə qədər unutmamışam, öz günahımı yumşaltmaq fikrində də deyiləm. Bu oyundan sonra məni altı ay müddətinə güclülər dəstəsi komandalarının görüşlərinə hakimlikdən uzaqlaşdırdılar.

Nəhayət, cəza müddəti başa çatdı və yenidən Moskvada OMİK-lə "Zarya"nın oyununu idarə etmək mənə həvalə olundu. Köməkçilərim isə Avropada tanınan leninqradlı beynəlxalq dərəcəli hakim Ənvər Zverev və suxumili Anatoli Milçenko idilər. Allahın köməyilə bu görüşü dəqiq idarə edib əla qiymət aldım".



**Şəkildə: 1977-ci il. Kopenhagen. Avropa çempionatının Danimarka–Portuqaliya seçmə görüşü. Oyunu sovet hakimləri, bakılı Eldar Əzimzadə (ortada), suxumili Anatoli Milçenko və almaatalı Mixail Çerdantsev idarə edəcəklər.**

*...Azərbaycan futbolunun 115 illik yubileyi ilində oxuculara təqdim etdiyimiz hər iki yazı mərhum hakimimiz, Tofiq Bəhramovdan sonra FİFA hakimlərinin Azərbaycanda ikinci səlahiyyətli nümayəndəsi, 3 dəfə – 1979, 1980 və 1982-ci illərdə SSRİ-nin ən yaxşı hakimi, – istər milli komandalar, istərsə də klublar səviyyəsində neçə-neçə rəsmi beynəlxalq görüşlərin, o cümlədən Moskva Olimpiadası 80-də Çexoslovakiya–ADR final oyununun (1:0) baş hakimi Eldar Əzimzadənin 1998-ci ildə nəşr etdirdiyi "Məhəbbətim mənim–futbol" kitabından götürülmüşdür.*

*Dünya şöhrətli hakimin bu qeydləri maraqla qarşılanan unudulmaz xatirələrdir. Mayın 25-də anadan olmasının 92-ci ili tamam olacaq E.Əzimzadə futbola böyük məhəbbəti ilə belə səhifələrdən çox yazıb.*

***Təqdim etdi:***
***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# Metroya sərnişin axını artıb




**Aprel ayında paytaxtın yeraltı nəqliyyat sistemində sərnişindaşıma göstəricilərində artım müşahidə olunub. Bakı Metropoliteni QSC tərəfindən açıqlanan məlumata əsasən, ay ərzində metro xidmətlərindən ümumilikdə 20 milyon 510 min 29 sərnişin istifadə edib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,11 faiz çoxdur.**

Statistikaya görə, ay ərzində ən çox sərnişin qəbul edən stansiya Koroğlu metro stansiyası olub. Həmin stansiyadan 1 milyon 824 min 773 nəfər istifadə edib.

2026-cı ilin ilk 4 ayının göstəriciləri də sərnişin axınının yüksək dinamikasını təsdiqləyir. Belə ki, ən çox sərnişin daşınan günlərin ilk üçlüyündə iki tarix məhz aprel ayına təsadüf edir. Aprelin 3-də 819 min 536, aprelin 2-də isə 802 min 283 sərnişin metrodan istifadə edib. Siyahıda ikinci yeri fevralın 18-i tutur – həmin gün 818 min 376 nəfər sərnişin daşınıb.

Eyni zamanda, nağdsız ödənişlərdə artım tendensiyası davam edir. Hesabata əsasən, NFC texnologiyası vasitəsilə ödəniş edən sərnişinlərin sayı 8 milyon 57 min 376 nəfərə çatıb ki, bu da ümumi ödənişli sərnişinlərin 40,3 faizini təşkil edir.

Bununla yanaşı, "Əlçatan metro" xidməti çərçivəsində həyata keçirilən sifarişlərin sayında da artım qeydə alınıb. Aprel ayında bu xidmət üzrə 236 müraciət daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 35,6 faiz çoxdur.

*XQ*

## HAVA

# Bakıda yağış, rayonlarda yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 11-14°, gündüz 15-19° olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80, gündüz isə 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntı olacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 9-13°, gündüz 15-20°, dağlarda gecə 2-7°, gündüz 8-13°, bəzi yerlərdə isə 15-18° olacaq.



*Q.ƏLİYEV*
*XQ*

✓ *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən "Ağstafa Aqrotexservis"ASC-yə verilmiş emissiya prospekti (özəlləşdirmə planı) itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Xanlar Vəliyev Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə anası

**GÖYƏRÇİN PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3160
SİFARİŞ 570
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00